RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 140 (10160) 7 avqust 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Unikal inkişaf və tərəfdaşlıq modeli



### Prezident İlham Əliyevin uğurlu strategiyası, uzaqgörən siyasi kursu sayəsində Azərbaycan etibarlı tərəfdaşa, söz sahibi olan ölkəyə və sabitlik adasına çevrilib

Hər bir dövlətin daxili təhlükəsizliyinin və siyasi sabitliyinin ən önəmli amili cəmiyyətin öz rəhbərinə böyük inam bəsləməsidir. Ölkəmizdə keçirilən rəy sorğularının nəticələri və mövcud reallıqlar birmənalı göstərir ki, Azərbaycanın bütün uğurlarının arxasında xalq-lider həmrəyliyi durur. Dövlət başçısının həyata keçirdiyi siyasi kursun milli maraqlara tam cavab verməsi ictimai-siyasi sabitliyin əsasını təşkil edir. Məhz daxili birlik Azərbaycanı istənilən xarici təzyiqdən, təhdiddən qoruyan qalxan rolunu oynayır.

Daxili sabitliyin və təhlükəsizliyin digər mühüm amili ölkəmizdə əsrlər boyu bərqərar olmuş multikulturalizm mühitidir. Fərqli dinə məxsus millətlərin dinc, həmrəy şəraitdə yaşaması Azərbaycanı ideoloji və dini qarşıdurmaların tüğyan etdiyi dünyada nümunəvi modelə çevirib. Bakı Prosesi və Qlobal Mədəniyyətlərarası Dialoq Forumları kimi beynəlxalq təşəbbüslər vasitəsilə ölkəmiz humanitar diplomatiyasını uğurla həyata keçirib, sülhə töhfə verib.

Mövcud şəraitdə ciddi problemlərdən biri də etibarlı dialoq platformalarının yoxluğudur. Azərbaycan şərqlə qərbin, şimalla cənubun kəsişməsində yerləşərək fərqli siyasi qütblərin maraqlarını ortaq nöqtəyə gətirməyi bacaran birləşdirici rol oynayır. Hərbi bloklara daxil olmadan Qoşulmama Hərəkatına uğurla sədrlik edən ölkəmiz bütün tərəflərlə bərabərhüquqlu əlaqələr qurur, açıq diplomatiya yürüdür. NATO və Rusiya generallarının, ABŞ və Rusiya rəsmilərinin ən gərgin vaxtlarda belə Bakıda bir araya gəlməsi ölkəmizə etimadın bariz nümayişi idi. Bu etimad Azərbaycanın beynəlxalq miqyasda qərəzsiz və konstruktiv mövqe nümayiş etdirməsi ilə bağlıdır. Bakı müxtəlif sivilizasiyalar və siyasi sistemlər arasında dialoqu təşviq etməklə Avrasiya coğrafiyasında barışdırıcı mərkəz kimi mövqeyini möhkəmləndirir.

Diplomatik müstəvidə qazanılan yüksək etimadın təməlində həm də ölkəmizin suverenliyini, ərazi bütövlüyünü təmin etməsi faktı dayanır. Azərbaycanın hərb tarixinə yazılan 44 günlük Vətən müharibəsindəki Zəfəri və 2023-cü ilin antiterror tədbirləri dövlətimizin qüdrətini bütün dünyaya göstərdi. Bir çox münaqişənin illərlə "dondurulmuş" halda saxlanılmasına baxmayaraq, Azərbaycan öz torpaqlarını işğaldan azad edərək suverenliyini tam bərpa etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu mütləq qələbə beynəlxalq güclərin münaqişədən təzyiq aləti kimi istifadə etmək cəhdlərini birdəfəlik iflasa uğratdı.

4

## Xarici siyasətimizin dəyişməz prinsipi

### Öz ərazisini üçüncü dövlətlərin qonşu ölkələrə qarşı fəaliyyət meydanına çevrilməsinə imkan verməyəcək



Azərbaycan həmişə bütün qonşuları ilə qarşılıqlı hörmətə, suverenliyə və daxili işlərə qarışmamaq prinsipinə əsaslanan münasibətlər qurmağa çalışıb. Bunun ən bariz nümunəsi son zamanlar Ermənistanla münasibətlərdə nümayiş etdirilən yanaşmadır. Otuz il ərzində torpaqları işğal altında qalmış, şəhər və kəndləri dağıdılmış, bir milyona yaxın vətəndaşı məcburi köçkün vəziyyətinə düşmüş Azərbaycan müharibədən sonra regionda davamlı sülhün tərəfdarı olduğunu bəyan edib və münasibətləri "təmiz səhifədən" başlamağı təklif edib. Bu baxımdan 8 avqust 2025-ci ildə Vaşinqtonda paraflanmış sülh sazişi layihəsi də Azərbaycanın regionda uzunmüddətli sabitlik və əməkdaşlıq mühitinin formalaşdırılması istiqamətində nümayiş etdirdiyi siyasi iradənin göstəricisi kimi qiymətləndirilə bilər. Belə bir siyasət yürüdən Azərbaycanın öz ərazisini hansısa dövlətə qarşı hərbi və ya kəşfiyyat fəaliyyəti üçün istifadəyə verməsi barədə iddialar nə ölkənin rəsmi mövqeyi, nə də həyata keçirdiyi xarici siyasət kursu ilə uzlaşır.

5



## Çolpon-Ata Bəyannaməsi: Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığının yeni strateji mərhələsi

Bəyannamənin mühüm cəhətlərindən biri əməkdaşlığın yalnız iqtisadi məsələlərlə məhdudlaşmamasıdır. Sənəddə regional sabitliyin qorunması, qarşılıqlı etimadın möhkəmləndirilməsi, davamlı inkişaf, rəqəmsal transformasiya, ekoloji təhlükəsizlik və humanitar əməkdaşlıq kimi istiqamətlərə də xüsusi diqqət yetirilir. Bu yanaşma müasir beynəlxalq münasibətlərdə çoxtərəfli əməkdaşlığın əsas prinsiplərinə uyğun olmaqla yanaşı, region dövlətlərinin ortaq maraqlar əsasında fəaliyyət göstərmək əzmini nümayiş etdirir. Çolpon-Ata Bəyannaməsi eyni zamanda Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya proseslərinin daha da dərinləşdirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır. Son illərdə türk dünyasında siyasi dialoq, iqtisadi əməkdaşlıq, nəqliyyat-kommunikasiya əlaqələri və humanitar inteqrasiyanın inkişafı istiqamətində əldə olunan nəticələr göstərir ki, üzv dövlətlər arasında əlaqələr ardıcıl şəkildə institusional xarakter alır. Azərbaycan bu prosesdə fəal iştirak etməklə yanaşı, təşkilatın iqtisadi və nəqliyyat gündəliyinin formalaşmasına mühüm töhfələr verir.

4

## Ölkəmizin öndərliyi ilə türk dövlətləri vahid güc mərkəzi kimi çıxış edir

Azərbaycanın türk birliyinə verdiyi töhfələr təsadüfi xarakter daşımır, dərin tarixi və siyasi köklərə söykənir. Bu mənəvi birliyin ilk təməli 1926-cı ildə qoyulub. Bakıda təşkil olunan I Türkoloji Qurultay türk xalqlarının dil, əlifba və mədəniyyət müstəvisində ortaq məxrəcə gəlməsi üçün tarixi dönüş nöqtəsi olub.

1990-cı illərdə türk birliyinin siyasi təməlləri atıldı. Müstəqilliyin ilk illərindən Ulu Öndər Heydər Əliyev türk dövlətləri ilə əlaqələri xarici siyasətin prioriteti elan etdi. 2009-cu ildə imzalanan tarixi Naxçıvan Sazişi isə türk dünyasının birliyinin institusional qaydada təsdiqi oldu. Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) təsis edildi. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın təsisçiliyi ilə başlayan prosesə 2019-cu ildə keçirilən Bakı Zirvəsi görüşündə Özbəkistan tamhüquqlu üzv kimi qoşuldu. Macarıstan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti və İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) müşahidəçi statusu qazanması qurumun əhatə dairəsini genişləndirdi. 2021-ci il İstanbul Zirvəsində isə qurum Türk Dövlətləri Təşkilatı adını alaraq beynəlxalq subyektə çevrildi.



5

## Rəqəmsal gələcəyin təməli təhsildən başlayır



Süni intellektin təhsildə tətbiqi nə qədər böyük imkanlar açsa da, bir o qədər də ciddi məsuliyyət yaradır. Çünki təhsil sahəsində texnologiyanın yanlış tətbiqinin nəticəsi, sadəcə, texniki problem deyil, gələcək nəslin düşüncə tərzinə, bilik səviyyəsinə və peşə hazırlığına təsir göstərə bilər. Problem texnologiyanın hazırladığı cavabın tələbənin öz düşüncəsi kimi təqdim edilməsindən başlayır. Belə olduqda süni intellekt öyrənmə prosesini sürətləndirmək əvəzinə, müstəqil düşünmə vərdişini zəiflədə bilər. Deməli, gələcəyin təhsilində mühüm bacarıqlardan biri yalnız süni intellektə düzgün sual vermək deyil, onun verdiyi cavabı da yoxlamaq olacaq.

6

## Dövlət proqramı Azərbaycanın kənd təsərrüfatına nə vəd edir

2026-cı ilin ilk altı ayı göstərdi ki, Azərbaycanın aqrar sektoru yeni inkişaf mərhələsinə daxil olur. Bu mərhələnin əsas fərqi istehsalın həcminin artmasından daha çox onun keyfiyyətinin yüksəldilməsi, resurslardan səmərəli istifadə, rəqəmsal texnologiyaların geniş tətbiqi və yüksək əlavə dəyər yaradan aqrobiznes modelinin formalaşdırılması ilə xarakterizə olunur. Qarşıdakı illərdə qəbul edilmiş qərarların ardıcıl və səmərəli icrası təmin olunduqca kənd təsərrüfatı təkcə ölkənin ərzaq təhlükəsizliyinin deyil, həm də qeyri-neft iqtisadiyyatının dayanıqlı inkişafının əsas dayaqlarından birinə çevriləcək.

8

# Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü və 25-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787 (Cild I); 2024, № 7, maddə 747; 2025, № 6, maddə 524, № 7, maddə 627; 2026, № 3, maddələr 202, 210) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9.0.5-ci maddəyə "sənədləri" sözündən sonra ", barəsində texniki reqlamentlərvə istinad edilmiş standartlar qəbul edilmiş idxal olunan mallara dair "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən uyğunluq sertifikatını, uyğunluq bəyannaməsini və tanınmış xarici mənşəli uyğunluq sənədlərini" sözləri əlavə edilsin;

1.2. 92.2.3-cü maddəyə "sənədlərlə" sözündən sonra ", barəsində texniki reqlamentlər və istinad edilmiş standartlar qəbul edilmiş mallara dair "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən uyğunluq sertifikatı, uyğunluq bəyannaməsi və tanınmış xarici mənşəli uyğunluq sənədləri ilə" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun barəsində texniki reqlamentlərin və istinad edilmiş standartların hər ikisinin birlikdə qüvvəyə minməsindən 2 (iki) il keçmiş, idxal edilən mallara şamil olunur.

**Maddə 3.** Bu Qanun dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2026-cı il*

# "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 446-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 446-VIIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 12 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 968 (Cild I); 2024, № 7, maddə 802) 3-cü hissəsinə "sənədlərin" sözündən sonra ", barəsində texniki reqlamentlər və istinad edilmiş standartlar qəbul edilmiş idxal olunan mallara dair "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən uyğunluq sertifikatının, uyğunluq bəyannaməsinin və tanınmış xarici mənşəli uyğunluq sənədlərinin" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 540 (Cild I); 2024, № 7, maddə 802) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnaməsi"nin 4.1.5-ci yarımbəndinə "sənədləri" sözündən sonra ", barəsində texniki reqlamentlər və istinad edilmiş standartlar qəbul edilmiş idxal olunan mallara dair "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən uyğunluq sertifikatını, uyğunluq bəyannaməsini və tanınmış xarici mənşəli uyğunluq sənədlərini" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 881 (Cild I); 2024, № 7, maddə 802) ilə təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.5.3-cü yarımbəndə ikinci halda "sənədlərin" sözündən sonra ", barəsində texniki reqlamentlər və istinad edilmiş standartlar qəbul edilmiş idxal olunan mallara dair "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən uyğunluq sertifikatının, uyğunluq bəyannaməsinin və tanınmış xarici mənşəli uyğunluq sənədlərinin" sözləri əlavə edilsin;

3.2. 3.4.2-ci yarımbəndə ikinci halda "sənədlərə" sözündən sonra ", barəsində texniki reqlamentlər və istinad edilmiş standartlar qəbul edilmiş idxal olunan mallara dair "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən uyğunluq sertifikatına, uyğunluq bəyannaməsinə və tanınmış xarici mənşəli uyğunluq sənədlərinə" sözləri əlavə edilsin;

3.3.5.6-cı bəndə ikinci halda "sənədlərin" sözündən sonra ", barəsində texniki reqlamentlər və istinad edilmiş standartlar qəbul edilmiş idxal olunan mallara dair "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən uyğunluq sertifikatının, uyğunluq bəyannaməsinin və tanınmış xarici mənşəli uyğunluq sənədlərinin" sözləri əlavə edilsin.

4. "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli 1853 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 496 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.4-cü bəndə ikinci halda "sənədlər" sözündən sonra", barəsində texniki reqlamentlər və istinad edilmiş standartlar qəbul edilmiş idxal olunan mallara dair "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən uyğunluq sertifikatı, uyğunluq bəyannaməsi və tanınmış xarici mənşəli uyğunluq sənədləri" sözləri əlavə edilsin.

4.2.2.5-ci bəndə "sənədlərin" sözündən sonra", barəsində texniki reqlamentlər və istinad edilmiş standartlar qəbul edilmiş idxal olunan mallara dair "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən uyğunluq sertifikatının, uyğunluq bəyannaməsinin və tanınmış xarici mənşəli uyğunluq sənədlərinin" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 446-VIIQD nömrəli Qanunundan və bu Fərmandan irəli gələn məsələləri həll etsin.

6. Bu Fərmanın 1 - 4-cü hissələri barəsində texniki reqlamentlərin və istinad edilmiş standartların hər ikisinin birlikdə qüvvəyə minməsindən 2 (iki) il keçmiş, idxal edilən mallara şamil olunur.

7. Bu Fərman dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 avqust 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 10 avqust tarixli 382 nömrəli, "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2000-ci il 10 avqust tarixli 383 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nın təsdiqi haqqında" 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli, "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 18 dekabr tarixli 410 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 605 (Cild I) 2.5-ci bəndinə "Holdinqi" sözündən sonra "və Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 606 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529; 2025, № 1, maddə 23, № 2, maddə 136, № 4 (I kitab), maddə 333) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın 15.2-ci bəndinə "Holdinqi" sözündən sonra "və Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542 (Cild I); 2024, № 4, maddə 379, № 5 (I kitab), maddə 529; 2025, № 5, maddə 459, № 8, maddə 763, № 11, maddə 1037, № 12 (I kitab), maddələr 1137, 1147; 2026, № 1, maddə 32; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 10 iyun tarixli 683 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə Əlavə"nin 4-cü hissəsinə "Holdinqinin" sözündən sonra "və Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON-un)" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2100 (Cild I) ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci hissə üzrə:

4.1.1. "2.0", "2.0.1" və "2.0.2" rəqəmləri müvafiq olaraq "2.1", "2.1.1" və "2.1.2" rəqəmləri ilə əvəz edilsin;

4.1.2. 2.1.1-ci yarımbəndin üçüncü abzasında "2.0.1-ci" sözləri "2.1.1-ci" sözləri ilə əvəz edilsin;

4.1.3. aşağıdakı məzmunda 2.2-ci bənd əlavə edilsin:

"2.2. Bu Qaydanın 3.1-ci, 4.1-ci, 4.3-cü bəndlərində, 4.4 - 4.6-cı bəndlərinin birinci cümlələrində, 4.12-ci və 4.13-cü bəndlərində "dövlətə məxsus hüquqi şəxs" dedikdə idarəetməsinə verilən dövlət müəssisələrinə, dövlət payı olan təsərrüfat cəmiyyətlərinə və publik hüquqi şəxslərə, eləcə də həmin hüquqi şəxslərin təsisçisi və iştirakçısı (iştirak payına uyğun) olduğu hüquqi şəxslərə münasibətdə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) nəzərdə tutulur.";

4.2. 4.8-ci bəndin birinci cümləsinə "borcalan" sözündən sonra "və idarəetməsinə verilən dövlət müəssisələrinə, dövlət payı olan təsərrüfat cəmiyyətlərinə və publik hüquqi şəxslərə, eləcə də həmin hüquqi şəxslərin təsisçisi və iştirakçısı (iştirak payına uyğun) olduğu hüquqi şəxslərə münasibətdə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2567 (Cild I); 2024, № 7, maddə 803) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın 2.1.1-ci yarımbəndinə aşağıdakı məzmunda 7-ci abzas əlavə edilsin:

"7. Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON-un) idarəetməsinə verilmiş hüquqi şəxslər - Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) vasitəsilə;".

6. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 665, № 7, maddə 806, № 8, maddə 938;2025, № 2, maddə 119, № 3, maddə 225, № 4 (I kitab), maddə 333) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.0.4-cü və 3.0.5-ci yarımbəndlərə birinci halda "dövlət" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin;

6.2. 3.0.8-ci yarımbəndə "Nazirliklə" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin;

6.3. 3.0.9-cu və 3.0.35-ci (birinci halda) yarımbəndlərə "dövlətə" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 avqust 2026-cı il*

# B.Ə.Aslanbəylinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Bəxtiyar Əli oğlu Aslanbəyli "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 avqust 2026-cı il*

# F.N.İsmayılovun Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fəxrəddin Nəcəf oğlu İsmayılov Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 avqust 2026-cı il*

# E.T.Abdullayevin Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elman Telman oğlu Abdullayev Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 avqust 2026-cı il*

# F.N.İsmayılovun Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fəxrəddin Nəcəf oğlu İsmayılov Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 avqust 2026-cı il*

# İlin birinci yarısında "Azəri-Çıraq-Günəşli"dən Azərbaycan dövlətinə 2 milyard kubmetr səmt qazı verilib

Cari ilin birinci yarısında "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündəlik orta hesabla 11 milyon kubmetr, ümumilikdə isə 2 milyard kubmetr səmt qazı təhvil verilib.

BP şirkətindən AZƏRTAC-a bildirilib ki, hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Bundan əlavə, ilin birinci yarısında AÇG-də sərbəst təbii qaz (STQ) hasilatı əməliyyatlarının başlanması ilə yataq ilk kommersiya qaz hasilatı əməliyyatları mərhələsinə keçib.

AÇG-də ilk STQ hasilatı əməliyyatları 2025-ci ildə qazılmış və hazırda hasilatda olan neft laylarının altında yerləşən iki prioritet STQ layını - daha dayaz Qırmakıüstü Qumlu və daha dərin Qırmakıaltı Qumlu lay dəstlərini hədəfləyən ilk hasilat quyusunda başlanıb. Quyu Qırmakıüstü Qumlu lay dəstində qaz ehtiyatlarının mövcudluğunu təsdiqləyib, Qırmakıaltı Qumlu lay dəstində isə yüksəktəzyiqli qaz ehtiyatlarının mövcudluğunu aşkar edib.

İlk STQ hasilatı əməliyyatları Qırmakıaltı Qumlu lay dəstində başlanıb və ilkin dövr hasilatı olmaqla yanaşı, həmçinin quyuda və lay dəstində sınaq işlərinin aparılmasını da əhatə edir.

Quyudan hasil edilən qaz və kondensat, neft və qaz işlənməsi sistemlərinin inteqrasiyası yolu ilə mövcud AÇG infrastrukturundan istifadə etməklə Səngəçal terminalına göndərilir ki, bu da mövcud dəniz obyektlərindən səmərəli istifadə üçün imkan yaradır. STQ-dən əlavə, ilk hasilat quyusu Qırmakıaltı Qumlu lay dəstinin dibində, qaz və su laylarının arasında yerləşən neft halqası da aşkar edib. İlk neft halqası quyusu "Dərinsulu Günəşli" platformasından qazılmaq üçün planlaşdırılıb və qazma işləri may ayında başlanıb. Bu quyuda qazma əməliyyatlarının 2026-cı ilin ikinci yarısında başa çatacağı gözlənilir.

İlk neft halqası quyusundan həmçinin əlavə qiymətləndirmə məlumatlarının əldə olunması da gözlənilir ki, bu da AÇG sahəsində gələcək işlənmə imkanlarının dəyərləndirilməsinə kömək edəcək.

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin yaradılması haqqında" 2021-ci il 27 aprel tarixli 1326 nömrəli, "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsinin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 2025-ci il 15 yanvar tarixli 286 nömrəli fərmanlarında və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2008-ci il 16 aprel tarixli 2761 nömrəli, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" 2014-cü il 10 yanvar tarixli 213 nömrəli və"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında" 2022-ci il 22 iyul tarixli 3378 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1326 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 331 (Cild I); 2024, № 2, maddə 155) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.2.2-ci yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 4.2.3-cü yarımbənd ləğv edilsin;

1.2. 4.3-cü və 4.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.3. Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON-a):

4.3.1. Agentliyin İdarə Heyəti sədrinin müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.3.2. bu Fərmanın 4.1-ci, 4.2-ci və 4.4-cü bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının normativ hüquqi aktlarında, o cümlədən "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində təsisçinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4.4. Agentliyə:

4.4.1.əməyin ödənişi fondunun və işçilərin əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) ilə razılaşdırmaqla müəyyən edilməsi.".

2. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 yanvar tarixli 286 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 1, maddə 26) ilə təsdiq edilmiş "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsi"nin 3.1.12-ci yarımbəndinə "müəssisələrinin" sözündən sonra "özəlləşdirməqabağı sağlamlaşdırılması və" sözləri əlavə edilsin.

3. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 16 aprel tarixli 2761 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 278 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 may tarixli 675 nömrəli Fərmanı) 2-ci və 3-cü hissələri aşağıdakı redaksiyada verilsin:

"2. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

2.1.2. Cəmiyyətin icra orqanının yaradılması;

2.1.3. Cəmiyyətin İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.2. Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON-a):

2.2.1. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş digər məsələlərin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirilməsi;

2.2.2. bu Sərəncamın 2.1-ci bəndində və 2.2.1-ci yarımbəndində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının normativ hüquqi aktları, eləcə də Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağa həvalə edilən digər səlahiyyətlərin həyata keçirilməsi.

3. Müəyyən edilsin ki:

3.1. Cəmiyyətin fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi həyata keçirmək məqsədilə sədr də daxil olmaqla 7 (yeddi) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.2. Cəmiyyətin Müşahidə Şurası aşağıdakı səlahiyyətləri həyata keçirir:

3.2.1. Cəmiyyətin inkişaf strategiyasına və onun icrası ilə bağlı tədbirlər planına, habelə əsas səmərəlilik göstəricilərinin müəyyən edilməsinə və biznes planına dair Ümumi Yığıncağa təkliflər vermək;

3.2.2. Cəmiyyətin gəlirlər və xərclər smetalarını, o cümlədən büdcə proqnozlarını təsdiq üçün Ümumi Yığıncağa təqdim etmək və icrasını təmin etmək;

3.2.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına dair Ümumi Yığıncağa təkliflər vermək;

3.2.4. fəaliyyətinin səmərəliliyini artırmaq üçün etika, strateji planlaşdırma, risklərin idarə edilməsi və s. üzrə yardımçı komitələr yaratmaq və öz səlahiyyətlərinin bir hissəsini onlara həvalə etmək;

3.2.5. Ümumi Yığıncaqla razılaşdırmaqla, Cəmiyyətin maliyyə planlaşdırılmasını təsdiq etmək və icrasını təmin etmək;

3.2.6. Ümumi Yığıncaqla razılaşdırmaqla, Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin nizamnamələrini təsdiq etmək;

3.2.7. Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, habelə Cəmiyyət tərəfindən hüquqi şəxslərin yaradılması, eləcə də onların idarəetmə orqanlarının üzvlərinin (rəhbərlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək;

3.2.8. Ümumi Yığıncağın razılığı ilə Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin strukturunu, işçilərinin say həddini, əməkhaqqı sistemini və əməyin ödənişi fondunu, ştat cədvəlini təsdiq etmək;

3.2.9. Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, həmçinin illik hesabatları və maliyyə hesabatlarını təsdiq üçün Ümumi Yığıncağa təqdim etmək;

3.2.10. Cəmiyyətin daxili audit bölməsini təşkil etmək və onun əsasnaməsini Ümumi Yığıncaqla razılaşdırmaqla təsdiq etmək, əməkdaşlarını vəzifəyə təyin və vəzifədən azad etmək;

3.2.11. bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları və Cəmiyyətin nizamnaməsi ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək;

3.3. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi 7 (yeddi) üzvdən - sədr və onun 6 (altı) müavinindən ibarət İdarə Heyəti həyata keçirir.".

4. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 26 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 may tarixli 675 nömrəli Fərmanı) 2-ci və 3-cü hissələri aşağıdakı redaksiyada verilsin:

"2. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

2.1.2. Cəmiyyətin icra orqanının yaradılması;

2.1.3. Cəmiyyətin İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.2. Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON-a):

2.2.1. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş digər məsələlərin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirilməsi;

2.2.2. bu Sərəncamın 2.1-ci bəndində və 2.2.1-ci yarımbəndində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının normativ hüquqi aktları, eləcə də Cəmiyyətin nizamnaməsi ilə Ümumi Yığıncağa həvalə edilən digər səlahiyyətlərin həyata keçirilməsi.

3. Müəyyən edilsin ki:

3.1. Cəmiyyətin fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi həyata keçirmək məqsədilə sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.2. Cəmiyyətin Müşahidə Şurası aşağıdakı səlahiyyətləri həyata keçirir:

3.2.1. Cəmiyyətin inkişaf strategiyasına və onun icrası ilə bağlı tədbirlər planına, habelə əsas səmərəlilik göstəricilərinin müəyyən edilməsinə və biznes planına dair Ümumi Yığıncağa təkliflər vermək;

3.2.2. Cəmiyyətin gəlirlər və xərclər smetalarını, o cümlədən büdcə proqnozlarını təsdiq üçün Ümumi Yığıncağa təqdim etmək və icrasını təmin etmək;

3.2.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına dair Ümumi Yığıncağa təkliflər vermək;

3.2.4. fəaliyyətinin səmərəliliyini artırmaq üçün etika, strateji planlaşdırma, risklərin idarə edilməsi və s. üzrə yardımçı komitələr yaratmaq və öz səlahiyyətlərinin bir hissəsini onlara həvalə etmək;

3.2.5. Ümumi Yığıncaqla razılaşdırmaqla, Cəmiyyətin maliyyə planlaşdırmasını təsdiq etmək və icrasını təmin etmək;

3.2.6. Ümumi Yığıncaqla razılaşdırmaqla, Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin nizamnamələrini təsdiq etmək;

3.2.7. Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, habelə Cəmiyyət tərəfindən hüquqi şəxslərin yaradılması, eləcə də onların idarəetmə orqanlarının üzvlərinin (rəhbərlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək;

3.2.8. Ümumi Yığıncağın razılığı ilə Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin strukturunu, işçilərinin say həddini, əməkhaqqı sistemini və əməyin ödənişi fondunu, ştat cədvəlini təsdiq etmək;

3.2.9. Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, həmçinin illik hesabatları və maliyyə hesabatlarını təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək;

3.2.10. Cəmiyyətin daxili audit bölməsini təşkil etmək və onun əsasnaməsini Ümumi Yığıncaqla razılaşdırmaqla təsdiq etmək, əməkdaşlarını vəzifəyə təyin və vəzifədən azad etmək;

3.2.11. bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlar və Cəmiyyətin nizamnaməsi ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək;

3.3. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi 7 (yeddi) üzvdən - sədrdən və onun 6 (altı) müavinindən ibarət İdarə Heyəti həyata keçirir.".

5. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddələr 647, 654, № 12 (II kitab), maddə 1359; 2025, № 8, maddə 749, № 11, maddə 1018; 2026, № 1, maddə 24; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 iyul tarixli 723 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1-ci bəndin dördüncü abzasının ikinci cümləsinə "Holdinqinin" sözündən sonra "və Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON-un)" sözləri əlavə edilsin;

5.2. "7. Tədbirlər planı" hissəsi üzrə:

5.2.1. "Əsas icraçı orqan (qurum)" sütununa "(qurum)" sözündən sonra ", fəaliyyət istiqamətinə uyğun olaraq" sözləri əlavə edilsin;

5.2.2. 3.1.9-cu yarımbəndin 4-cü abzasının "Əsas icraçı orqan (qurum), fəaliyyət istiqamətinə uyğun olaraq" sütununa "AİH" akronimindən sonra ", AZCON" akronimi əlavə olunsun və həmin abzasda "aralıq nəticələr" sütununa "AİH-in" sözlərindən sonra "və AZCON-un" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 avqust 2026-cı il*

# Xarici işlər naziri Ceyhun Bayramov Ukraynada bir sıra görüşlər keçirib





Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun avqustun 6-da Ukraynaya rəsmi səfəri başlayıb.

AZƏRTAC xəbər verir ki, nazir Ceyhun Bayramovu Kiyev Mərkəzi Dəmiryol Vağzalında Ukraynanın xarici işlər naziri Andrey Sibiqa qarşılayıb.

❖❖❖

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ukraynaya rəsmi səfəri çərçivəsində Ukrayna Prezidenti Volodimir Zelenski tərəfindən qəbul edilib.

Bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib.

Görüş zamanı Azərbaycan ilə Ukrayna arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, siyasi dialoq, enerji, nəqliyyat, humanitar əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan ilə Ukrayna arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin inkişafının önəmi vurğulanıb. Gələn il diplomatik münasibətlərin qurulmasının 35 illiyinin qeyd olunacağı, ötən dövr ərzində yüksəksəviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlərin ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verdiyi qeyd edilib.

Prezident Zelenskinin cari ilin aprel ayında Azərbaycana həyata keçirdiyi səfərin və səfər çərçivəsində əldə olunmuş razılaşmaların ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsi baxımından əhəmiyyət daşıdığı bildirilib.

Görüşdə regional təhlükəsizlik məsələləri, Ukraynada mövcud vəziyyət, habelə beynəlxalq gündəlikdə duran digər aktual mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə ardıcıl dəstək verdiyi bir daha diqqətə çatdırılıb.

Prezident Zelenski Ukraynaya humanitar dəstəyə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib.

Azərbaycan ilə Ukrayna arasında münasibətlərin bundan sonra da inkişaf etdirilməsi və müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsinə dair ortaq niyyət ifadə olunub.

❖❖❖

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Kiyevə rəsmi səfəri çərçivəsində ukraynalı həmkarı Andrey Sibiqa ilə birlikdə Ukraynanın azadlığı uğrunda həlak olmuş müdafiəçilərin Xatirə Memorialına gül dəstəsi qoyub.

Xatirə şəkli çəkildikdən sonra Azərbaycan və Ukrayna xarici işlər nazirləri arasında təkbətək görüş keçirilib.

Sonra nümayəndə heyətləri arasında geniş tərkibli görüş keçirilib. Görüşdə Azərbaycan-Ukrayna münasibətləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazirlər iki ölkə arasında mövcud olan müttəfiqlik münasibətlərinin qarşılıqlı hörmət və milli maraqların nəzərə alınması əsasında inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Bu çərçivədə ali və yüksək səviyyədə əldə olunmuş razılaşmaların icra vəziyyəti nəzərdən keçirilib.

❖❖❖

Avqustun 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Ukraynaya rəsmi səfəri çərçivəsində İrpen şəhərində olub.

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, İrpen şəhəri son illər Azərbaycan ilə Ukrayna arasında tarixi dostluq münasibətlərinin və humanitar əməkdaşlığın bariz nümunəsinə çevrilib. Azərbaycanın Laçın şəhəri ilə qardaşlaşmış şəhərlər əlaqələrinə malik İrpen şəhərində akademik Zərifə Əliyevanın adını daşıyan park, küçə və lisey fəaliyyət göstərir, liseydə Azərbaycan dili tədris olunur.

Səfər çərçivəsində nazir Ceyhun Bayramov və onun rəhbərlik etdiyi nümayəndə heyəti İrpen şəhərinin mərkəzində yerləşən akademik Zərifə Əliyeva adına parkda Azərbaycanın görkəmli oftalmoloq-alimi, akademik Zərifə Əliyevanın büstü önünə gül dəstələri qoyaraq, onun əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Sonra Azərbaycanın maliyyə və humanitar dəstəyi ilə əsaslı şəkildə bərpa olunaraq yenidən istifadəyə verilmiş Akademik Zərifə Əliyeva adına lisey və şəhər poliklinikası ilə tanışlıq olub. Müharibə nəticəsində ciddi dağıntılara məruz qalmış İrpen şəhərində həyata keçirilən bu layihələr Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımın və bərpa prosesinə verdiyi töhfənin mühüm nümunələrindəndir.

Daha Azərbaycan hökumətinin dəstəyi ilə İrpendə həyata keçirilməsi planlaşdırılan mədəniyyət mərkəzinin bərpası layihəsi ilə tanışlıq həyata keçirilib.

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsində yekun qərar elan olunub

Avqustun 6-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə açıq məhkəmə iclası davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

İclasa Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının nümayəndələri müşahidəçi qismində qatılıblar.

Məhkəmədə təqsirləndirilən şəxslərin apellyasiya şikayətləri üzrə məhkəmə qərarı elan olunub.

Məhkəmə qərarında bildirilib ki, Harutyunyan Arayik Vladimiri, Sahakyan Bako Sahaki, Babayan Davit Klimin, Mnatsakanyan Levon Henrixi, Qukasyan (Ğukasyan) Arkadi Arşaviri, Manukyan David Azati, İşxanyan Davit Rubeni, Babayan Madat Arakeli, Paşayan Melikset Vladimiri, Martirosyan Qarik Qriqori, Qazaryan Erik Roberti, Beqlaryan Vasili İvani, Balayan Levon Romiki, Allahverdiyan Davit Nelsoni və Stepanyan Qurqen Homerosinin barələrində olan cinayət işi üzrə Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmü verilmiş apellyasiya şikayətlərinə münasibətdə dəyişdirilmədən saxlanılsın.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.



# Unikal inkişaf və tərəfdaşlıq modeli

## Prezident İlham Əliyevin uğurlu strategiyası, uzaqgörən siyasi kursu sayəsində Azərbaycan etibarlı tərəfdaşa, söz sahibi olan ölkəyə və sabitlik adasına çevrilib

**Dünya mürəkkəb, qeyri-müəyyən və münaqişələrlə zəngin dövrünü yaşayır. Böyük güclər arasında rəqabətin kəskinləşməsi, qarşıdurma coğrafiyasının daha da genişlənməsi qlobal vəziyyəti arzuolunmaz hala salıb. İllərdir davam edən Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə yenidən alovlanan hadisələr bir daha nümayiş etdirir ki, beynəlxalq hüquq normaları öz çəkindirici funksiyasını çoxdan itirib. Problem ondadır ki, hərbi-siyasi toqquşmaların ən ağır zərbəsi qlobal iqtisadiyyata, nəqliyyat marşrutlarına və sivil əhaliyə dəyir.**

Geosiyasi böhranların dərinləşdiyi bir şəraitdə Azərbaycan tamamilə fərqli, nümunəvi bir siyasət ortaya qoyur. Ölkəmiz ətraf bölgələrdə cərəyan edən qarşıdurmaların əhatəsində daxili nizamını qoruyan, sosial-iqtisadi dayanıqlılığını artıran, dünya üçün etibarlı tərəfdaş statusunu gücləndirən unikal dövlətə çevrilir. Münaqişə səhifəsini tamamilə qapatmış Azərbaycan regional sülhün və təhlükəsizlik mühitinin təminatçısına çevrilib.

Birmənalı vurğulamaq lazımdır ki, Azərbaycanın hərtərəfli tərəqqisi, beynəlxalq nüfuzunun artması və sabitlik məkanına çevrilməsi Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən, milli maraqlara söykənən dövlətçilik kursunun nəticəsidir. Ölkəmizin inkişafının, əldə edilən tarixi nailiyyətlərin təməlində müasir çağırışlara və milli mənafeyə uyğun reallaşdırılan praqmatik daxili və xarici siyasət dayanır. Dövlətimizin başçısının qəbul etdiyi qərarların uzunmüddətli hədəflərə hesablanması, siyasi, hüquqi və sosial-iqtisadi islahatların davamlı şəkildə həyata keçirilməsi, daxili və xarici risklərin neytrallaşdırılması Azərbaycanı böyük güclərin toqquşma poliqonu olmaqdan xilas edib.

Hər bir dövlətin daxili təhlükəsizliyinin və siyasi sabitliyinin ən önəmli amili cəmiyyətin öz rəhbərinə böyük inam bəsləməsidir. Ölkəmizdə keçirilən rəy sorğularının nəticələri və mövcud reallıqlar birmənalı göstərir ki, Azərbaycanın bütün uğurlarının arxasında xalq-lider həmrəyliyi durur. Dövlət başçısının həyata keçirdiyi siyasi kursun milli maraqlara tam cavab verməsi ictimai-siyasi sabitliyin əsasını təşkil edir. Məhz daxili birlik Azərbaycanı istənilən xarici təzyiqdən, təhdiddən qoruyan qalxan rolunu oynayır.

Daxili sabitliyin və təhlükəsizliyin digər mühüm amili ölkəmizdə əsrlər boyu bərqərar olmuş multikulturalizm mühitidir. Fərqli dinə məxsus millətlərin dinc, həmrəy şəraitdə yaşaması Azərbaycanı ideoloji və dini qarşıdurmaların tüğyan etdiyi dünyada nümunəvi modelə çevirib. Bakı Prosesi və Qlobal Mədəniyyətlərarası Dialoq Forumları kimi beynəlxalq təşəbbüslər vasitəsilə ölkəmiz humanitar diplomatiyasını uğurla həyata keçirib, sülhə töhfə verib.

Mövcud şəraitdə ciddi problemlərdən biri də etibarlı dialoq platformalarının yoxluğudur. Azərbaycan şərqlə qərbin, şimalla cənubun kəsişməsində yerləşərək fərqli siyasi qütblərin maraqlarını ortaq nöqtəyə gətirməyi bacaran birləşdirici rol oynayır. Hərbi bloklara daxil olmadan Qoşulmama Hərəkatına uğurla sədrlik edən ölkəmiz bütün tərəflərlə bərabərhüquqlu əlaqələr qurur, açıq diplomatiya yürüdür. NATO və Rusiya generallarının, ABŞ və Rusiya rəsmilərinin ən gərgin vaxtlarda belə Bakıda bir araya gəlməsi ölkəmizə etimadın bariz nümayişi idi. Bu etimad Azərbaycanın beynəlxalq miqyasda qərəzsiz və konstruktiv mövqe nümayiş etdirməsi ilə bağlıdır. Bakı müxtəlif sivilizasiyalar və siyasi sistemlər arasında dialoqu təşviq etməklə Avrasiya coğrafiyasında barışdırıcı mərkəz kimi mövqeyini möhkəmləndirir.

Diplomatik müstəvidə qazanılan yüksək etimadın təməlində həm də ölkəmizin suverenliyini, ərazi bütövlüyünü təmin etməsi faktı dayanır. Azərbaycanın hərb tarixinə yazılan 44 günlük Vətən müharibəsindəki Zəfəri və 2023-cü ilin antiterror tədbirləri dövlətimizin qüdrətini bütün dünyaya göstərdi. Bir çox münaqişənin illərlə "dondurulmuş" halda saxlanılmasına baxmayaraq, Azərbaycan öz torpaqlarını işğaldan azad edərək suverenliyini tam bərpa etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu mütləq qələbə beynəlxalq güclərin münaqişədən təzyiq aləti kimi istifadə etmək cəhdlərini birdəfəlik iflasa uğratdı.

Bu Zəfər ədalətin bərpası ilə yanaşı, Cənubi Qafqazda və Avrasiyada yeni geostrateji reallıqların yaranmasına səbəb oldu. İndi qalib Azərbaycan əməkdaşlıq qaydalarını özü müəyyənləşdirir, tərəfdaşlarına faydalı təkliflər təqdim edir. Bu gün Cənubi Qafqazda yaranmış sabitlik mühiti Azərbaycanın irəli sürdüyü sülh gündəliyinə söykənir. Eyni zamanda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan irimiqyaslı bərpa işləri ölkəmizin qurucu gücünün və iqtisadi müstəqilliyinin təcəssümüdür.

Azərbaycanın formalaşdırdığı təhlükəsizlik və sabitlik mühiti dünya güclərinin də diqqət mərkəzindədir. ABŞ, Avropa İttifaqı, Çin kimi böyük güclər rəsmi Bakı ilə əlaqələri dərinləşdirməyə önəm verirlər. Xəzər hövzəsinin enerji resurslarının təhlükəsiz yollarla dünya bazarlarına çatdırılması ölkəmizin strateji əhəmiyyətini daha da yüksəldib. Avropa İttifaqı üçün Azərbaycan alternativ enerji mənbəyi və Mərkəzi Asiyaya açılan etibarlı qapıdır. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycan qazını alır, "yaşıl enerji" layihələri tərəfdaşlığı daha da möhkəmləndirir.

Ənənəvi beynəlxalq marşrutların təhlükəsizliyini itirdiyi bir vaxtda Azərbaycanın logistik imkanları qlobal ticarət üçün xilas yoluna çevrilib. İllər öncədən reallaşdırılan Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, müasir magistral yollar və hava limanları infrastrukturu ölkəmizi strateji tranzit mərkəzinə çevirib. Çindən çıxan yüklərin Avropaya qısa və təhlükəsiz çatdırılmasını təmin edən Orta dəhliz, eləcə də Zəngəzur dəhlizi kimi perspektivli layihələr qlobal tədarük zəncirində Azərbaycanın rolunu həlledici edir.

Ölkəmiz ekoloji problemlərin həllində, iqlim diplomatiyasında da öncül dövlətlərdən birinə çevrilib. Azərbaycanın COP29 kimi qlobal tədbirə evsahibliyi etməsi, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonalarının salınması və bərpa olunan enerji layihələrinə xarici investisiyaların cəlb edilməsi rəsmi Bakının gələcək hədəflərini göstərir. Ekoloji təhlükəsizlik gündəliyini fəal şəkildə təşviq edən Azərbaycan bu sahədə də Şərqlə Qərb arasında yeni əməkdaşlıq körpüləri salır.

Son illərdə Azərbaycanın beynəlxalq diplomatiyada artan fəallığı da ölkəmizin nüfuzunun yüksəlməsinin mühüm göstəricisidir. Geosiyasi və iqtisadi dəyişikliklər fonunda orta güclərin beynəlxalq münasibətlər sistemində rolu getdikcə artır. Belə bir reallıqda Azərbaycan çevik diplomatiyası, iqtisadi dayanıqlılığı, enerji və nəqliyyat imkanları ilə öz mövqeyini daha da gücləndirir.

Bu çərçivədə Azərbaycanın türk dünyasının inteqrasiyasına verdiyi töhfələr də xüsusi rol oynayır. Türk Dövlətləri Təşkilatının güclənməsində və vahid hərbi-siyasi, iqtisadi platformaya çevrilməsində rəsmi Bakının fəal liderliyi aydın görünür. Bu strateji xətt Avrasiya coğrafiyasında yeni və etibarlı təhlükəsizlik çətirinin formalaşmasına birbaşa xidmət edir.

Nəticə etibarı ilə, dünyanı bürüyən böhranlar və qarşıdurmalar fonunda Azərbaycanın nümayiş etdirdiyi inkişaf və sabitlik formulu bir daha sübut edir ki, həqiqi güc müstəqil siyasi iradə nümayiş etdirmək və milli maraqları qətiyyətlə qorumaq bacarığıdır. Bu gün əldə etdiyimiz bütün uğurlar uzunmüddətli dövlət strategiyasının və ardıcıl xarici siyasət kursunun məntiqi nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan bu uğurlu model Azərbaycanın gələcək inkişafının, daxili əmin-amanlığının və beynəlxalq müstəvidəki yüksək statusunun ən etibarlı zəmanətidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Çolpon-Ata Bəyannaməsi:
## Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığının yeni strateji mərhələsi

Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətlərinin son illərdə dinamik inkişafı regional əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir. Dövlət başçılarının siyasi dialoqunun intensivləşməsi, iqtisadi və nəqliyyat əlaqələrinin genişlənməsi, Türk Dövlətləri Təşkilatı çərçivəsində koordinasiyanın gücləndirilməsi, həmçinin ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəldilməsi bu prosesin əsas istiqamətlərini təşkil edir. Bu kontekstdə Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Mərkəzi Asiya dövlət başçılarının növbəti Məşvərət Görüşünün yekununda qəbul edilmiş Çolpon-Ata Bəyannaməsi regional əməkdaşlığın inkişafında mühüm siyasi sənəd kimi qiymətləndirilə bilər.



**Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, bəyannamə Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında formalaşmış qarşılıqlı etimadın, ortaq maraqların və uzunmüddətli strateji baxışın növbəti təsdiqi olmaqla yanaşı, Avrasiya məkanında yeni əməkdaşlıq modelinin formalaşmasına xidmət edir: "Son illərdə Azərbaycanın Mərkəzi Asiya üzrə siyasəti ardıcıl və sistemli xarakter daşıyır. Dövlət başçılarının qarşılıqlı səfərləri, imzalanan strateji sənədlər, nəqliyyat, logistika, energetika, investisiya və humanitar sahələrdə əməkdaşlığın genişlənməsi göstərir ki, münasibətlər artıq ayrı-ayrı layihələr çərçivəsini aşaraq, institusional xarakter alır. Çolpon-Ata Bəyannaməsi məhz bu prosesin siyasi və hüquqi əsaslarını daha da möhkəmləndirən sənəd kimi diqqət çəkir. Müasir beynəlxalq münasibətlər sistemində Mərkəzi Asiya geosiyasi və geoiqtisadi baxımdan strateji əhəmiyyətini artırıb. Qlobal ticarət marşrutlarının diversifikasiyası, enerji təhlükəsizliyi, logistika zəncirlərinin yenidən formalaşdırılması və alternativ nəqliyyat dəhlizlərinə marağın artması regionun rolunu daha da gücləndirir. Bu şəraitdə Azərbaycan Xəzər hövzəsinin qərb sahilində yerləşən etibarlı tərəfdaş və mühüm tranzit ölkə kimi Mərkəzi Asiya dövlətləri üçün Avropa istiqamətində əsas bağlantı nöqtəsinə çevrilib".

Deputat bildirib ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də Orta dəhlizin inkişafı istiqamətində həyata keçirilən layihələr Şərqlə Qərb arasında yükdaşımaların artmasına mühüm töhfə verir. Bu baxımdan, Çolpon-Ata Bəyannaməsində nəqliyyat və logistika əməkdaşlığının inkişafına verilən önəm Avrasiya məkanında iqtisadi inteqrasiyanın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

S.Fətəliyeva qeyd edib ki, bəyannamənin mühüm cəhətlərindən biri əməkdaşlığın yalnız iqtisadi məsələlərlə məhdudlaşmamasıdır: "Sənəddə regional sabitliyin qorunması, qarşılıqlı etimadın möhkəmləndirilməsi, davamlı inkişaf, rəqəmsal transformasiya, ekoloji təhlükəsizlik və humanitar əməkdaşlıq kimi istiqamətlərə də xüsusi diqqət yetirilir. Bu yanaşma müasir beynəlxalq münasibətlərdə çoxtərəfli əməkdaşlığın əsas prinsiplərinə uyğun olmaqla yanaşı, region dövlətlərinin ortaq maraqlar əsasında fəaliyyət göstərmək əzmini nümayiş etdirir. Çolpon-Ata Bəyannaməsi, eyni zamanda Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya proseslərinin daha da dərinləşdirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır. Son illərdə türk dünyasında siyasi dialoq, iqtisadi əməkdaşlıq, nəqliyyat-kommunikasiya əlaqələri və humanitar inteqrasiyanın inkişafı istiqamətində əldə olunan nəticələr göstərir ki, üzv dövlətlər arasında əlaqələr ardıcıl şəkildə institusional xarakter alır. Azərbaycan bu prosesdə fəal iştirak etməklə yanaşı, təşkilatın iqtisadi və nəqliyyat gündəliyinin formalaşmasına mühüm töhfələr verir".

Bəyannamənin Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətlərinin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini təsdiqlədiyini deyən deputat əlavə edib ki, bu gün Azərbaycan region ölkələri ilə siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, tranzit-logistika, rəqəmsal inkişaf və "yaşıl enerji" istiqamətlərində uzunmüddətli tərəfdaşlıq münasibətləri formalaşdırıb. Qarşılıqlı investisiyaların həcminin artması, nəqliyyat infrastrukturunun genişləndirilməsi və biznes əlaqələrinin intensivləşməsi bu əməkdaşlığın davamlı xarakter daşıdığını göstərir.

Deputat qeyd edib ki, Azərbaycanın həyata keçirdiyi balanslaşdırılmış və praqmatik xarici siyasət ölkəmizin həm Şərq, həm də Qərb arasında etibarlı tərəfdaş kimi mövqeyini daha da gücləndirib: "Bu siyasət nəticəsində Azərbaycan müxtəlif beynəlxalq və regional platformalarda dialoqu təşviq edən, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığı dəstəkləyən dövlət kimi qəbul edilir. Mərkəzi Asiya ölkələri ilə münasibətlərin inkişafı da məhz bu xarici siyasət kursunun mühüm istiqamətlərindən birini təşkil edir. Qlobal geosiyasi proseslərin sürətlə dəyişdiyi, beynəlxalq iqtisadi əlaqələrin yeni reallıqlara uyğunlaşdığı bir dövrdə Çolpon-Ata Bəyannaməsinin qəbulu Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında strateji əməkdaşlığın gələcək inkişafı üçün yeni imkanlar açır. Bu sənəd nəqliyyat və logistika əlaqələrinin genişləndirilməsi, regional iqtisadi inteqrasiyanın dərinləşdirilməsi, qarşılıqlı investisiyaların artırılması və türk dünyasında çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsi baxımından mühüm siyasi əsas yaradır".

S.Fətəliyeva vurğulayıb ki, Çolpon-Ata Bəyannaməsi təkcə növbəti çoxtərəfli əməkdaşlığa xidmət edən sənəd deyil, həm də Azərbaycanın Mərkəzi Asiya istiqamətində həyata keçirdiyi ardıcıl siyasətin məntiqi nəticəsi kimi çıxış edir. Bəyannamədə əks olunan yanaşmalar regional sabitliyin möhkəmləndirilməsinə, Avrasiya məkanında qarşılıqlı əlaqələrin genişlənməsinə və türk dünyasında inteqrasiya proseslərinin daha da inkişafına xidmət edən mühüm siyasi platforma formalaşdırır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Avrasiyanın yeni geosiyasi xəritəsinin memarlarından biridir

"XXI əsrdə enerji bağlantısı nəqliyyatdan heç də az əhəmiyyət kəsb etmir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Eyni zamanda Qazaxıstan, Özbəkistan və Mərkəzi Asiyanın digər dövlətləri əhəmiyyətli enerji potensialına malikdir. Gələcəkdə Xəzər hövzəsi ölkələri arasında əməkdaşlıq ənənəvi neft və qazdan daha geniş sahəni əhatə edə, bərpaolunan enerji, elektrik enerjisi və "yaşıl texnologiya"lar da daxil olmaqla, geniş miqyasda inkişaf edə bilər. Bu o deməkdir ki, gələcəkdə biz yalnız Orta dəhlizdən deyil, həm də daha geniş enerji bağlantısı sahəsindən danışa biləcəyik".

Bu fikirləri AZƏRTAC ilə **beynəlxalq münasibətlər və beynəlxalq hüquq üzrə ekspert, Kahramanmaraş Sütçü İmam Universitetinin professoru Toğrul İSMAYIL** bölüşüb.

Bununla belə, ekspert yaranmaqda olan Mərkəzi Asiya-Xəzər-Cənubi Qafqaz regionuna yeni siyasi və ya hərbi-siyasi blok kimi baxmağı düzgün hesab etmir. O əlavə edib: "Bunun üçün nə zərurət, nə də obyektiv əsas var. Region dövlətləri çoxvektorlu xarici siyasət yürüdür. Onlar, həmçinin Çin, Rusiya, Türkiyə, Avropa İttifaqı, Körfəz ölkələri və digər güc mərkəzləri ilə münasibətləri inkişaf etdirir. Məhz buna görə də mövcud inteqrasiya fərqli xarakter daşıyır. O, heç kimə qarşı yönəlməyib və əsas məqsədi regiondakı dövlətlərin sabitliyini və təsirini artırmaqdır".

Toğrul İsmayılın sözlərinə görə, ölkələr arasında nəqliyyat, enerji, ticarət və investisiya əlaqələri nə qədər möhkəm olarsa, müstəqil xarici siyasət manevrləri üçün imkanlar da bir o qədər çox olar. Bu mənada geoiqtisadi əlaqə strateji muxtariyyət vasitəsinə çevrilir.

Professor əlavə edib: "Bu, əsas sualı doğurur: Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında vahid geosiyasi və geoiqtisadi məkandan danışa bilərikmi? Mən bu suala belə cavab verərdim: onun əsas konturları artıq formalaşıb, lakin proses hələ tam başa çatmayıb. Siyasi çərçivə mövcuddur. İnstitusional mexanizmlər genişlənir. Müqavilə münasibətləri dərinləşir. Nəqliyyat layihələri reallığa çevrilir. Enerji əməkdaşlığı inkişaf edir. Ticarət və investisiya əlaqələri artır. Mədəni və humanitar qarşılıqlı əlaqə güclənir. Lakin vahid regional kompleksin tam şəkildə ortaya çıxması üçün növbəti mərhələ - infrastrukturun, gömrük prosedurlarının, rəqəmsal sistemlərin, enerji şəbəkələrinin və investisiya mexanizmlərinin sinxronlaşdırılması zəruridir. Gələcəyin müəyyən olunacağı amillər bunlardır".




Onun sözlərinə görə, biz ənənəvi regional əməkdaşlıqdan yeni bir geosiyasət növünə - bağlantı geosiyasətinə keçidin şahidi oluruq. Onun təməli artıq ərazilər deyil, dəhlizlər, limanlar, dəmir yolları, enerji şəbəkələri, rəqəmsal rabitə, investisiyalar və insanlar arasında əlaqələrdir. "Bu yeni məkanda Azərbaycan unikal mövqe tutur. Bakı artıq Mərkəzi Asiyaya sadəcə Xəzər dənizi vasitəsilə baxmır. Azərbaycan Mərkəzi Asiyanın siyasi arxitekturasının bir hissəsinə və Mərkəzi Asiya ilə xarici bazarlar arasında əsas əlaqələrdən birinə çevrilir. Məhz buna görə də Prezident İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşlərində iştirakı tarixi əhəmiyyətə malikdir. Bu, sadəcə formatın genişləndirilməsi deyil. Bu, artıq müəyyən edilmiş reallığın əksidir", - deyə T. İsmayıl vurğulayıb.

Ekspert, həmçinin Avrasiyada yeni geosiyasi vektorun tədricən yarandığını qeyd edərək bildirib: "Hesab edirəm ki, mövcud prosesi təkcə Azərbaycanın Mərkəzi Asiya ilə əlaqələrinin möhkəmlənməsi kimi qiymətləndirmək olmaz. Söhbət daha böyük fenomendən gedir. Avrasiyanın coğrafiyası dəyişir. Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasındakı sərhədlər daha az əhəmiyyət kəsb edir. Xəzər bölücü dəniz olmaqdan çıxır və birləşdirici məkana çevrilir. Orta dəhliz tədricən yeni Avrasiya infrastrukturunun əsas elementlərindən biri olur. Azərbaycan isə regionların kəsişməsində yerləşən dövlətdən onların qarşılıqlı əlaqəsinin memarlarından birinə çevrilir. Bu səbəbdən hazırda Azərbaycanın Mərkəzi Asiyanın bir hissəsi olub-olmadığını müzakirə etmək yersizdir. Azərbaycan inkişaf etməkdə olan məkanın bir hissəsinə artıq çevrilib. Son hadisələrin əsas geosiyasi əhəmiyyəti məhz bundan ibarətdir".

Professor hesab edir ki, Çin və Mərkəzi Asiyadan Xəzər dənizi və Azərbaycan vasitəsilə Cənubi Qafqaza, Türkiyəyə və Avropaya doğru yeni məkan yaranır.

"Əgər region dövlətləri siyasi iradəni effektiv infrastruktura, razılaşdırılmış qaydalara və davamlı iqtisadi əlaqələrə çevirə bilsələr, bu məkan yaxın illərdə Avrasiyanın geosiyasi və geoiqtisadi dinamikasının yeni mərkəzlərindən birinə çevrilə bilər. Azərbaycan bu prosesin kənarında olmayacaq. O, əsas halqa və daha da əhəmiyyətlisi, Avrasiyanın yeni geosiyasi xəritəsinin memarlarından biri olacaq, - deyə professor sözlərini yekunlaşdırıb.

# Azərbaycan Cənubi Qafqazda İsveçrənin mühüm tərəfdaşıdır

**İsveçrə Konfederasiyası Azərbaycan Respublikasının müstəqilliyini ilk tanıyan dövlətlərdən biri olub. İsveçrə hələ SSRİ-nin rəsmi süqutundan əvvəl, 23 dekabr 1991-ci ildə dövlətimizin müstəqilliyini tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər 21 yanvar 1992-ci ildə qurulmuşdur. Gələn il 35 ili tamam olacaq diplomatik əlaqələr iki ölkə arasında siyasi, iqtisadi və humanitar sahələrin inkişafı üçün fundament təşkil edir.**



Azərbaycan Prezidenti İlham Əliyev indiyədək İsveçrəyə 21 işgüzar səfər həyata keçirmişdir. Prezident İlham Əliyev beynəlxalq Davos İqtisadi Forumuna davamlı dəvət edilən liderlər arasındadır. Prezidentimiz sonuncu dəfə bu ilin yanvarında Davos Forumunda iştirak etmək üçün orada səfərdə olmuşdur.

İsveçrə Konfederasiyası Federal Şurasının üzvü, Federal Xarici İşlər Departamentinin rəhbəri və ATƏT-in fəaliyyətdə olan sədri İqnasio Kassisin Azərbaycana səfəri həm ikitərəfli, həm də çoxtərəfli diplomatiya baxımından xüsusi əhəmiyyət daşıyır. Bu səfər Azərbaycan-İsveçrə münasibətlərinə yeni siyasi impuls verən, qarşılıqlı etimadı gücləndirən və ikitərəfli əməkdaşlıq sahələrini zənginləşdirən mühüm diplomatik hadisə kimi qiymətləndirilə bilər.

Nazir Kassisin səfəri iki ölkə arasında siyasi dialoqun intensivləşməsi və qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanların formalaşdığını nümayiş etdirir. Kassisin səfər öncəsi "AZƏRTAC"a verdiyi müsahibə də göstərir ki, Azərbaycan və İsveçrə arasında siyasi, iqtisadi, enerji, investisiya və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi səfər gündəliyinin əsas müzakirə mövzularıdır. Ümumilikdə, İqnasio Kassisin Bakıya səfəri Azərbaycan-İsveçrə ikitərəfli münasibətlərinin inkişafında mühüm siyasi hadisə kimi qiymətləndirilə bilər.

Digər tərəfdən isə ATƏT-ə sədrlik edən ölkənin xarici işlər nazirinin Bakıya səfəri Cənubi Qafqazda davamlı sülhün və sabitliyin möhkəmləndirilməsinə təşkilatın verdiyi əhəmiyyətin göstəricisidir. ATƏT-in Minsk qrupunun, ümumilikdə Minsk prosesinin 2025-ci de-fakto və de-yure bağlanmasından sonra ATƏT-in fəaliyyətdə olan sədri Azərbaycana və regiona ilk dəfə səfər edir. Bu səfər regionda yaranmış yeni siyasi reallıqlar şəraitində, artıq Azərbaycan və Ermənistanın bir ilə yaxın sülh şəraitində yaşadığı bir vaxtda həyata keçirilir. Bu mənada İsveçrə xarici işlər naziri Kassisin səfəri həm də Azərbaycan Prezidenti İlham Əliyevin sülh və yeni model əməkdaşlıq təşəbbüslərinin, onun nəticələrinin həm ikitərəfli formatda İsveçrə, həm də çoxtərəfli formatda ATƏT tərəfindən dəyərləndirilməsidir. Bu kontekstdə Azərbaycanın ATƏT-dən gözləntisi humanitar minatəmizləməyə dəstək verməsidir. Bu gün Azərbaycan ərazilərinin böyük bir hissəsi 1,5 milyon ədəd mina və partlamamış hərbi sursatla çirklənmiş vəziyyətdə qalır.

Səfər həmçinin İsveçrənin Azərbaycanın sabitlik, əməkdaşlıq və beynəlxalq hüquqa əsaslanan sülh gündəliyinə verdiyi önəmi də nümayiş etdirir. Belə ki, torpaqlarımızın işğalına son qoyulduqdan sonra Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıqlar fonunda Azərbaycanın regional təhlükəsizlik, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri və Orta dəhlizin inkişafındakı rolu əhəmiyyətli dərəcədə artıb. Bu isə bütün Avropa dövlətləri, eləcə də İsveçrə üçün birbaşa və tranzit sahəsində ticari əlaqələr üçün əlavə imkanlar yaradır.

Bu baxımdan, İsveçrənin Azərbaycanla siyasi dialoqu genişləndirməsi həm Avropanın enerji təhlükəsizliyi prioritetləri, həm də Xəzər regionunun artan geoiqtisadi əhəmiyyəti ilə uzlaşır. Eyni zamanda İsveçrənin ənənəvi neytrallıq siyasəti, humanitar diplomatiya və beynəlxalq vasitəçilik təcrübəsi regionda etimadın möhkəmləndirilməsi və dayanıqlı sülhün təşviqi baxımından əlavə siyasi dəyər yaradır.

İsveçrə Orta dəhlizin inkişafında və ondan istifadədə maraqlıdır. Belə ki, coğrafi mövqeyinə görə, dənizə çıxışı olmayan ölkə kimi İsveçrə alternativ və şaxələndirilmiş ticarət marşrutlarının inkişafına xüsusi önəm verir.

Sabit və şaxələndirilmiş ticarət marşrutları Azərbaycan kimi etibarlı tərəfdaşla nəqliyyat-tranzit sahəsində uzun müddətli münasibətlər dayanıqlı iqtisadi-ticari inkişaf üçün üçün mühüm əhəmiyyət kəsb edir. İsveçrə ilə logistika, infrastruktur və rəqəmsallaşdırma kimi sahələrdə əməkdaşlıq üçün potensial böyükdür. Buna görə də, nazir Kassis Azərbaycanın regional nəqliyyat mərkəzi kimi roluna artan marağın bariz nümunəsi kimi Cenevrədə yerləşən "Mediterranean Shipping Company" (MSC) tərəfindən ötən il Bakıda nümayəndəliyin açılmasını xüsusi qeyd etdi.

İsveçrə Azərbaycanın İtaliya, Türkiyə, Rusiya və Çindən sonra 5-ci mühüm ticarət tərəfdaşıdır. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ildə İsveçrə ilə ticarət dövriyyəmiz 1 milyard 773 milyon ABŞ dolları təşkil edib. Bu isə təxminən 49 milyard 423 milyon ABŞ dolları dəyərində olan Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində təxminən 3,6 faizlik pay deməkdir. Lakin iqtisadi münasibətlərin potensialı mövcud göstəricilərdən daha böyükdür və hələ tam reallaşdırılmayıb. Hazırkı iqtisadi əlaqələr, əsasən, enerji sektorunda cəmləşib və gələcək mərhələdə onların daha da şaxələndirilməsi vacibdir.

Nazir Kassis vurğulamışdır ki, Azərbaycan Cənubi Qafqazda İsveçrənin mühüm tərəfdaşıdır. Həmçinin Azərbaycan Avropa ilə Asiya arasında əsas əlaqədir və regional mərkəz kimi rolu artmaqdadır. Rəsmi Bern Ermənistanla sülh istiqamətində əldə olunmuş irəliləyişi bütün region üçün, o cümlədən sabitlik və iqtisadi əməkdaşlıq baxımından yeni imkanlar kimi dəyərləndirir.

Bu baxımdan, hər iki ölkənin rəsmi qurumlarının müəyyən etdiyi prioritetlər bir-birini tamamlayır. Azərbaycanın həyata keçirdiyi iqtisadi şaxələndirmə siyasəti, sənaye parkları, Ələt Azad İqtisadi Zonası, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa layihələri, eləcə də Orta dəhliz üzrə artan tranzit imkanları İsveçrə şirkətləri üçün yeni investisiya imkanları yaradır. İsveçrənin isə innovasiya, yüksək texnologiyalar, maliyyə xidmətləri və sənaye sahəsində malik olduğu qabaqcıl təcrübə bu istiqamətlərdə əməkdaşlığı genişləndirmək üçün əlverişli zəmin formalaşdırır.

Perspektivli istiqamətlər sırasında yüksək texnologiyalar, süni intellekt, rəqəmsal iqtisadiyyat, "fintech" (maliyyə xidmətlərinin texnologiya vasitəsi ilə həyata keçirilməsi), biotexnologiyalar, əczaçılıq, tibbi texnologiyalar, "ağıllı kənd təsərrüfatı", qida emalı və startap ekosistemi yer alır. Məsələn, İsveçrənin innovasiya mərkəzləri və texnologiya şirkətləri ilə Azərbaycanın sənaye parkları və innovasiya infrastrukturu arasında birgə R&D (tədqiqat və inkişaf) mərkəzlərinin yaradılması, texnologiya transferi proqramlarının həyata keçirilməsi və vençur kapitalı fondlarının birgə maliyyələşdirilməsi real əməkdaşlıq istiqamətləri kimi nəzərdən keçirilə bilər.

Bretton Vuds institutları çərçivəsində Azərbaycan və İsveçrə arasındakı əməkdaşlıq münasibətləri xüsusi bir istiqamətdir. Azərbaycanın İsveçrənin rəhbərlik etdiyi qrupda üzvlüyü qarşılıqlı etimadın göstəricisidir. Bu etibarlı və uzunmüddətli əməkdaşlıq həm də müntəzəm siyasi dialoqa, koordinasiyalı fəaliyyətə və texniki əməkdaşlığa şərait yaradır.

Bu kontekstdə maliyyə sektorunda da mühüm imkanlar mövcuddur. İsveçrə bankçılıq, aktivlərin idarə olunması və "yaşıl maliyyələşdirmə" sahəsində dünyanın aparıcı mərkəzlərindən biridir. Bu baxımdan, "yaşıl istiqraz"ların emissiyası, dayanıqlı investisiya fondlarının yaradılması, müasir tələblərə uyğun rəqəmsal maliyyə xidmətlərinin inkişafı üzrə birgə layihələr Azərbaycanın maliyyə bazarının inkişafına mühüm töhfə verə bilər.

Eyni zamanda peşə təhsili və insan kapitalının inkişafı sahəsində də əməkdaşlıq genişləndirilə bilər. İsveçrənin dual peşə təhsili modeli, universitet-sənaye əməkdaşlığı və tətbiqi elmi-tədqiqat institutlarının təcrübəsi Azərbaycanda yüksəkixtisaslı mühəndis, İT mütəxəssisi və texniki kadr hazırlığına dəstək verə bilər. Bu istiqamətdə birgə təhsil proqramlarının, innovasiya laboratoriyalarının və texnologiya inkubatorlarının yaradılması mühüm nəticələr verə bilər.

Növbəti mərhələdə Azərbaycan-İsveçrə iqtisadi münasibətlərinin əsas inkişaf xətti ənənəvi enerji əməkdaşlığından innovasiya, rəqəmsal transformasiya, "yaşıl texnologiyalar", logistika, maliyyə xidmətləri və insan kapitalının inkişafına doğru genişlənəcək. Belə bir model yalnız ticarət dövriyyəsinin artmasına deyil, həm də yüksək əlavə dəyər yaradan uzunmüddətli strateji iqtisadi tərəfdaşlığın formalaşmasına xidmət edəcək.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin Azərbaycan-İsveçrə parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun rəhbəri, siyasi elmlər doktoru***

# Xarici siyasətimizin dəyişməz prinsipi

## Öz ərazisini üçüncü dövlətlərin qonşu ölkələrə qarşı fəaliyyət meydanına çevrilməsinə imkan verməyəcək

**Son dövrlərdə bəzi dairələr tərəfindən Azərbaycan ərazisinin guya İsrailin xüsusi xidmət orqanı "Mossad" tərəfindən üçüncü ölkələrə qarşı istifadə olunduğu barədə iddialar irəli sürülür. Prezidentin köməkçisi Hikmət Hacıyevin də vurğuladığı kimi, Azərbaycan öz ərazisinin heç vaxt hər hansı dövlətə qarşı istifadə edilməsinə imkan vermir. Bu, ölkəmizin uzun illərdir ardıcıl şəkildə həyata keçirdiyi xarici siyasətin əsas prinsiplərindən biridir.**

**Milli Məclisin deputatı Azər BADAMOV** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan həmişə bütün qonşuları ilə qarşılıqlı hörmətə, suverenliyə və daxili işlərə qarışmamaq prinsipinə əsaslanan münasibətlər qurmağa çalışıb. Bunun ən bariz nümunəsi son zamanlar Ermənistanla münasibətlərdə nümayiş etdirilən yanaşmadır. Otuz il ərzində torpaqları işğal altında qalmış, şəhər və kəndləri dağıdılmış, bir milyona yaxın vətəndaşı məcburi köçkün vəziyyətinə düşmüş Azərbaycan müharibədən sonra regionda davamlı sülhün tərəfdarı olduğunu bəyan edib və münasibətləri "təmiz səhifədən" başlamağı təklif edib. "Bu baxımdan, 8 avqust 2025-ci ildə Vaşinqtonda paraflanmış sülh sazişi layihəsi də Azərbaycanın regionda uzunmüddətli sabitlik və əməkdaşlıq mühitinin formalaşdırılması istiqamətində nümayiş etdirdiyi siyasi iradənin göstəricisi kimi qiymətləndirilə bilər. Belə bir siyasət yürüdən Azərbaycanın öz ərazisini hansısa dövlətə qarşı hərbi və ya kəşfiyyat fəaliyyəti üçün istifadəyə verməsi barədə iddialar nə ölkənin rəsmi mövqeyi, nə də həyata keçirdiyi xarici siyasət kursu ilə uzlaşır. Bu baxımdan, Azərbaycanın "Mossad" tərəfindən istifadə edildiyi barədə səsləndirilən fikirlər tamamilə əsassız olmayan iddialardır", - deyə o əlavə edib.

Deputat hesab edir ki, bu cür iddiaların dövri şəkildə gündəmə gətirilməsi Azərbaycanla İran arasında etimad mühitini zəiflətməyə və iki qonşu ölkənin münasibətlərinə xələl gətirməyə çalışan dairələrin maraqlarına xidmət edir. Azərbaycan isə dəfələrlə ən yüksək səviyyədə bəyan edib ki, öz ərazisini üçüncü dövlətlərin qonşu ölkələrə qarşı fəaliyyət meydanına heç vaxt çevirməyəcək.

Azərbaycanın İranla münasibətlərə xüsusi önəm verdiyini deyən A.Badamov bildirib ki, iki ölkə arasında tarixi, dini, mədəni və iqtisadi bağlar mövcuddur: "Bundan əlavə, İranda on milyonlarla azərbaycanlı yaşayır və bu amil münasibətlərə əlavə humanitar məzmun qazandırır. Məhz bunlara görə də Azərbaycan regionda gərginliyin azalmasını, İranın təhlükəsizliyinin və sabitliyinin qorunmasını dəstəkləyir. Çünki bölgədə istənilən münaqişənin davam etməsi, ilk növbədə, orada yaşayan insanların, o cümlədən azərbaycanlıların təhlükəsizliyinə və sosial rifahına mənfi təsir göstərir. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinin tərəfdarı olan dövlətdir. Otuz il ərzində işğaldan əziyyət çəkmiş ölkə kimi dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsipini daim əsas tutur. Bu yanaşma İran məsələsinə münasibətdə də dəyişmir. Azərbaycan regionda bütün problemlərin dövlətlərin suverenliyi və beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həll olunmasını dəstəkləyir".



Deputat qeyd edib ki, Azərbaycan ərazisində İsrailin hərbi bazalarının və ya hərbi kontingentinin yerləşdirilməsi barədə səsləndirilən fikirlər də reallıqdan uzaqdır. Bu iddiaları təsdiqləyən hər hansı fakt mövcud deyil. Azərbaycanın hərbi təhlükəsizlik siyasəti yalnız milli maraqlarına və dövlət suverenliyinin qorunmasına əsaslanır. Doğrudur, müəyyən dövrlərdə Azərbaycan-İran münasibətlərində gərginlik yaşanıb, lakin son illər qarşılıqlı siyasi dialoqun intensivləşməsi nəticəsində münasibətlər yenidən müsbət inkişaf mərhələsinə qədəm qoyub. Hazırda iki ölkə iqtisadiyyat, energetika, nəqliyyat və logistika sahələrində mühüm layihələri birgə həyata keçirirlər.

A.Badamov vurğulayıb ki, "Şimal-Cənub" beynəlxalq nəqliyyat marşrutu bu əməkdaşlığın əsas istiqamətlərindən biridir: "Bununla yanaşı, Araz çayı boyunca Naxçıvana alternativ nəqliyyat marşrutunun yaradılması, Araz çayı üzərində birgə hidrotexniki və enerji layihələrinin icrası, sərhədyanı əməkdaşlığın genişləndirilməsi Azərbaycan-İran tərəfdaşlığının strateji xarakter daşıdığını göstərir. Məhz bu səbəbdən iki ölkə arasında münasibətlərin inkişafından narahat olan müəyyən dairələrin vaxtaşırı müxtəlif əsassız iddialar ortaya atması gözləniləndir. Keçmişdə də buna bənzər iddialar səsləndirilib və onların heç biri təsdiqini tapmayıb. Bu gün də Azərbaycanın guya "Mossad" üçün platformaya çevrildiyi barədə səsləndirilən fikirlər faktlara deyil, siyasi manipulyasiyalara əsaslanır".

Deputat qeyd edib ki, Azərbaycanın xarici siyasətinin dəyişməz prinsipi ölkə ərazisinin üçüncü dövlətlərə qarşı istifadə olunmasına heç vaxt imkan verilməməsidir. Rəsmi Bakının dəfələrlə bəyan etdiyi bu prinsip regionda etimadın möhkəmləndirilməsinə, qonşuluq münasibətlərinin inkişafına və Cənubi Qafqazda davamlı sabitliyin təmin olunmasına xidmət edir. Buna görə də bu kimi iddialar Azərbaycan-İran münasibətlərinin strateji inkişaf xəttinə təsir göstərə bilməz.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ölkəmizin öndərliyi ilə türk dövlətləri vahid güc mərkəzi kimi çıxış edir

**XX yüzilliyin əvvəlində Bakıda toplanan ilk Türkoloji Qurultayla mənəvi təməlləri atılan türk birliyi, bu gün regional coğrafiyanı aşaraq Avrasiyanın əsas güc balansını müəyyənləşdirən geosiyasi reallığa çevrilib. Türk Dövlətləri Təşkilatının (TDT) təsisindən bəri proseslərin mərkəzində dayanan Azərbaycan, bu birliyi sadəcə ideoloji həmrəylik məkanı kimi deyil, qlobal hadisələrin gedişatına birbaşa təsir edən strateji platforma kimi formalaşdırır.**

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən XII Zirvə görüşü zamanı sözügedən məsələnin vacibliyini bir daha belə gündəmə gətirmişdi: "Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir".

### Tarixi varislikdən müasir birliyə

Azərbaycanın türk birliyinə verdiyi töhfələr təsadüfi xarakter daşımır, dərin tarixi və siyasi köklərə söykənir. Bu mənəvi birliyin ilk təməli 1926-cı ildə qoyulub. Bakıda təşkil olunan I Türkoloji Qurultay türk xalqlarının dil, əlifba və mədəniyyət müstəvisində ortaq məxrəcə gəlməsi üçün tarixi dönüş nöqtəsi olub.

1990-cı illərdə türk birliyinin siyasi təməlləri atıldı. Müstəqilliyin ilk illərindən Ulu Öndər Heydər Əliyev türk dövlətləri ilə əlaqələri xarici siyasətin prioriteti elan etdi. 2009-cu ildə imzalanan tarixi Naxçıvan Sazişi isə türk dünyasının birliyinin institusional qaydada təsdiqi oldu. Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) təsis edildi. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanın təsisçiliyi ilə başlayan prosesə 2019-cu ildə keçirilən Bakı Zirvəsi görüşündə Özbəkistan tamhüquqlu üzv kimi qoşuldu. Macarıstan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti və İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) müşahidəçi statusu qazanması qurumun əhatə dairəsini genişləndirdi. 2021-ci il İstanbul Zirvəsində isə qurum Türk Dövlətləri Təşkilatı adını alaraq beynəlxalq subyektə çevrildi.

2020-ci il Vətən müharibəsində qazanılan Zəfər həm də türk dünyasının etnosiyasi coğrafiyasını birləşdirərək regional təhlükəsizliyi köklü şəkildə dəyişdi. Bu Zəfərin ardınca imzalanan Şuşa Bəyannaməsi isə Azərbaycan-Türkiyə qardaşlığını rəsmi olaraq müttəfiqlik səviyyəsinə qaldırdı. Eyni zamanda bununla bütün türk dünyasının hərbi, siyasi və iqtisadi təhlükəsizlik çətiri formalaşdırıldı. Bəyannamə tərəflərdən birinin suverenliyinə və ya ərazi bütövlüyünə üçüncü dövlət tərəfindən təhdid olduqda qarşılıqlı hərbi yardım mexanizmini təsbit etməklə, regionda dayanıqlı sülhün və geosiyasi sabitliyin əsas təminatçısına çevriləcəkdi.



Şuşa Bəyannaməsi Zəngəzur dəhlizinin (TRIPP) açılmasını strateji hədəf kimi ortaya qoyaraq, türk dövlətləri arasında həm fiziki, həm də geoiqtisadi bağların bərpasını tənzimlədi. Bu yanaşma türk birliyinin sadəcə mədəni platforma deyil, real hərbi-siyasi güc mərkəzi kimi qlobal müstəvidə qəbul olunmasını təmin etdi.

### Türk dövlətləri ilə şaxələnən ikitərəfli strateji əlaqələr

Azərbaycanın TDT çərçivəsindəki liderliyi həm də üzv və müşahidəçi dövlətlərlə qurulan sıx ikitərəfli müttəfiqlik münasibətlərinə söykənir.

2024-cü ilin avqustunda Daşkənddə Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev tərəfindən Müttəfiqlik Münasibətləri haqqında Müqavilənin imzalanması iki ölkə arasında əlaqələri ən ali zirvəyə qaldırdı.

2025-ci ilin oktyabrında Astanada keçirilən Ali Dövlətlərarası Şuranın ikinci iclası və strateji tərəfdaşlıq müqaviləsinin 20 illiyi münasibətilə Azərbaycan ilə Qazaxıstan arasında imzalanan Birgə Bəyanat Xəzər üzərindən energetika və nəqliyyat marşrutlarının inteqrasiyasını sürətləndirdi.

Ölkəmizin Türkmənistanla dil, din və qədim tarixi köklərə söykənən münasibətləri müstəqillik dövründə strateji tərəfdaşlıq müstəvisinə yüksəlib.

Azərbaycanın Mərkəzi Asiya istiqamətində yürütdüyü fəal diplomatiyanın ən mühüm halqalarından birini Prezident İlham Əliyevin cari il iyulun 30-da Qırğızıstana reallaşan dövlət səfəri təşkil etdi. Çolpon-Ata şəhərində baş tutan yüksəksəviyyəli danışıqlar, Azərbaycan-Qırğızıstan Dövlətlərarası Şurasının növbəti iclası və imzalanan sənədlər iki qardaş ölkə arasındakı münasibətləri yeni inkişaf mərhələsinə daşıdı. İki ölkə arasında Müttəfiqlik Münasibətləri haqqında Bəyannamə imzalanaraq siyasi, təhlükəsizlik və hərbi sahədə qarşılıqlı öhdəliklər ən ali hüquqi səviyyədə təsbit olundu.

Azərbaycanın TDT daxilindəki liderliyi sadəcə bəyanatlarla deyil, konkret iqtisadi və sosial addımlarla daha da möhkəmlənir. Ölkəmizin üzv dövlətlərin iqtisadiyyatına yatırdığı investisiyalar, həmçinin TDT katibliyinin hesabına 2 milyon ABŞ dolları ianə köçürməsi buna nümunələrdir. 2023-cü ilin fevralında Türkiyədə baş verən zəlzələ ilə əlaqədar Prezident İlham Əliyevin təşəbbüsü ilə mart ayında Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşünün keçirilməsi dağıdıcı zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində mühüm əhəmiyyətə malik oldu. Eyni zamanda Azərbaycan tərəfindən Kahramanmaraşda cəmi iki il ərzində salınan "Azərbaycan" məhəlləsi qardaşlıq köməyinin ən bariz göstəricisidir.

Türk dövlətlərinin həmrəyliyi Qarabağ və Şərqi Zəngəzurun bərpasında da özünü aydın şəkildə göstərir. Füzulidə Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına məktəb, Qazaxıstanın tikdiyi Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Türkmənistanın hədiyyəsi olan Füzuli məscidi, Ağdamda Qırğızıstanın Manas adına məktəbi, Cəbrayılda Macarıstanın inşa etdiyi təhsil müəssisəsi və Xankəndidə Özbəkistanın dəstəyi ilə açılan tikiş fabriki bu birliyin zirvəsidir.

Siyasi və iqtisadi platforma ilə yanaşı, TDT daxilində mənəvi-mədəni inteqrasiya prosesi də sürətlənib. Ortaq əlifba layihələri, vahid tarix və ədəbiyyat dərsliklərinin hazırlanması, eləcə də Türk Universitetlər Birliyinin fəaliyyəti mühüm əhəmiyyətə malikdir.

Mövcud qlobal böhranlar, münaqişələr və geosiyasi təhdidlər fonunda Türk Dövlətləri Təşkilatı həm də ortaq təhlükəsizlik və hərbi əməkdaşlıq müstəvisində vahid qalxan rolunu oynayır. Bakının strateji liderliyi, fəal diplomatiyası və iqtisadi imkanları sayəsində TDT artıq regional çərçivəni aşaraq, dünyada sülhə və sabitliyə xidmət edən əsas qlobal güc mərkəzlərindən birinə çevrilir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



Hazırda texnoloji inqilabın ən sürətli və mürəkkəb dövrünü yaşayırıq. Smartfonlar, planşetlər və sosial şəbəkələr gündəlik həyatımızın ayrılmaz hissəsidir. Lakin bu rəqəmsal dünyada ən böyük zərbəni müdafiəsiz uşaqlarımız alır. Uşaqların rəqəmsal mühitdə təhlükəsizliyi, psixoloji sağlamlığı və zərərli məzmunlardan qorunması məsələsi isə bilavasitə valideyn məsuliyyətinə daxildir. Eyni zamanda bu mövzu beynəlxalq səviyyədə müzakirə olunan və dövlətlərin qanunvericilik səviyyəsində müdaxilə etdiyi qlobal təhlükəsizlik problemidir. Sözsüz ki, ekrana bağlı böyüyən yeni nəsil sürətli informasiya mübadiləsindən faydalandığı qədər, məkan, yaş və məzmun sərhədlərinin itdiyi bir təhlükənin içindədir. Məhz bu səbəbdən dünya ölkələri və eləcə də Azərbaycan rəqəmsal mühitdə uşaqların müdafiəsini gücləndirmək üçün ciddi hüquqi və texniki addımlar atır.



## Rəqəmsal dövrdə uşaqlarımızı necə qorumalıyıq?

Böyük Britaniya mülkü olan Gernsı adasında uşaqların internetdəki zərərli və yaşa uyğun olmayan məzmunlardan qorunması məqsədilə olduqca maraqlı və fərqli sistemlər irəli sürülür. Böyük Britaniyada qüvvədə olan "Rəqəmsal Təhlükəsizlik Qanunu" zərərli saytlara yaş məhdudiyyəti və ciddi yoxlama tələbləri qoyur. Lakin Gernsidə hələlik bu növ hüquqi sistemlər mövcud deyil. Məhz bu boşluğu doldurmaq üçün adada müxtəlif ictimai və texniki təşəbbüslər meydana gəlib. Gernsidə diqqət çəkən əsas proseslərdən biri "Smartfonsuz Uşaqlıq" kampaniyasıdır. Kampaniya nümayəndələrinin fikrincə, proqram təminatı ilə yaş məhdudiyyəti qoymaq və ya VPN vasitəsilə yayılan qadağaları idarə etmək praktiki olaraq çox çətindir. Onlar bildirirlər ki, uşaqlar rəqəmsal boşluqları tez tapırlar. Şübhəsiz ki, ən effektiv yol ibtidai və orta məktəb yaşlı uşaqlara internetə çıxışı olmayan, sadə "düyməli telefonlar"ın verilməsini sosial normaya çevirməkdir.

Bununla yanaşı, adada ikili şəbəkə sisteminin tətbiqi də müzakirə olunur. Ekspertlər hər bir internet paylayıcısında avtomatik olaraq iki paralel şəbəkənin, yəni "uşaq üçün təhlükəsiz" və "böyüklər üçün" şəbəkələrin yaradılmasını təklif edirlər. Həmçinin mütəxəssislər məxfilik və texniki qadağaların uşaqlar tərəfindən müxtəlif yollarla aşılması məsələsinə xüsusi diqqət yetirirlər. Məsələ burasındadır ki, yaş yoxlanışı üçün şəxsi məlumatların tələb edilməsi həmin informasiyaların kənara sızması riskini artırır. Digər tərəfdən, uşaqlar VPN proqramları və digər texniki hiylələrdən istifadə edərək internetin yerini dəyişir, qoyulmuş blokları rahatlıqla aldadaraq yan keçirlər. Sözsüz ki, bu texniki boşluqlar tətbiq edilən qadağaları səmərəsiz edir. Məhz bu riskləri nizamlamaq üçün Gernsinin Daxili İşlər Komitəsi rəqəmsal təhlükəsizliklə bağlı qanunvericilik bazasına yenidən baxıldığını bəyan edib.

Uşaqların rəqəmsal mühitdə qorunması yalnız Gernsı adası ilə məhdudlaşmır. Qlobal arenada, xüsusən də Avropa və ABŞ-də bu istiqamətdə qanunlar qəbul edilir.

Fransa rəqəmsal mühitdə yaş həddi tətbiq edən ilk ölkələrdəndir. Fransa parlamenti tərəfindən qəbul edilən qanuna əsasən, 15 yaşından kiçik uşaqların sosial şəbəkələrdə fərdi hesab açması üçün valideyn razılığı mütləq şərt hesab olunur. Fransa məktəblərində smartfonların tamamilə qadağan edilməsi isə rəqəmsal asılılığın qarşısını almağa yönəlmiş ən sərt addımlardan biridir.

Avstraliya hökuməti sosial şəbəkələrin uşaqlara mənfi təsirini minimuma endirmək üçün qətiyyətli addım ataraq 16 yaşdan kiçik uşaqların sosial media platformalarından ("TikTok", "İnstagram", "YouTube" və s.) istifadəsini tamamilə yasaqlayan qanun qəbul edib. Əgər sosial media şirkətləri bu qaydaya riayət etməzlərsə və yaşa nəzarət etməzlərsə, onları 50 milyon Avstraliya dollarına qədər cərimələr gözləyir.

ABŞ-də uzun illərdir ki, uşaqların rəqəmsal mühitdə təhlükəsizliyini tənzimləyən "Uşaqların Onlayn Məxfiliyinin Qorunması" qanunu qüvvədədir. Bu qanun 13 yaşdan kiçik uşaqların fərdi məlumatlarının, onların adı, ünvanı, yerləşdiyi məkan və davranış vərdişlərinin valideynlərinin rəsmi icazəsi olmadan toplanmasını, saxlanmasını və reklam şirkətlərinə satılmasını qadağan edir. Lakin müasir texnologiyaların inkişafı daha yeni hüquqi addımların atılmasını tələb edib. Bu mənada, son dövrlərdə qəbul edilən "Uşaqların Onlayn Təhlükəsizliyi" qanunu rəqəmsal sahədə köklü dəyişikliklərə yol açıb. Yeni qanun "Big Tech" kimi tanınan iri texnologiya giqantlarının ("Meta", "Google", "ByteDance" və s.) üzərinə hüquqi məsuliyyət və "qayğı göstərmək öhdəliyi" qoyur. Belə ki, platformalar öz alqoritmlərini elə tənzimləməlidirlər ki, uşaqlara və yeniyetmələrə avtomatik olaraq zərərli məzmunlar göstərilməsin. Bura xüsusilə intihar, özünəqəsd, qida qəbulu pozuntuları, zorakılıq, qumar oyunları və narkotik təbliğatına aid videolar və yazılar daxildir. Şirkətlər asılılıq yaradan avtomatik oxutma və sonsuz vərəqləmə kimi funksiyaları azyaşlılar üçün məhdudlaşdırmalı, həmçinin valideynlərə uşaqlarının rəqəmsal fəallığına nəzarət etmək üçün gücləndirilmiş alətlər təqdim etməlidirlər.

Çin isə bu sahədə ən sərt rəqəmsal rejim tətbiq edən ölkələrdən biridir. Ölkədə azyaşlıların onlayn oyun oynama saatları həftədə 3 saatla məhdudlaşdırılıb. Şirkətlər bu qaydaya əməl olunmasını təmin etmək üçün hətta üz tanıması sistemlərindən istifadə edirlər. Eyni zamanda "TikTok"un analoqu olan "Douyin" platformasında 14 yaşdan kiçik uşaqlar üçün xüsusi "gənclik rejimi" tətbiq olunur. Bu rejimdə uşaqlara, sadəcə, elmi və maarifləndirici məzmunlar göstərilir, gündəlik istifadə müddəti 40 dəqiqəni keçə bilməz və saat 22:00-dan sonra tətbiqə giriş tamamilə bağlanır. Həmçinin qanunvericilik azyaşlıların canlı yayımlarda blogerlərə pul və virtual hədiyyələr göndərməsini də qətiyyətlə qadağan edir.

Azərbaycan da qlobal çağırışlardan kənarda qalmır. Ölkəmizdə uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin gücləndirilməsi istiqamətində kompleks hüquqi islahatlar həyata keçirilir. İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi hazırlanıb. Bu layihə Azərbaycan Respublikası Prezidentinin "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" Sərəncamının icrasını təmin etmək məqsədi daşıyır. Bu sənəd hazırlanarkən qabaqcıl beynəlxalq təcrübə və mütərəqqi mexanizmlərə malik dövlətlərin qanunvericilik modelləri təhlil olunub.

Sosial şəbəkələrdə fərdi rəqəmsal hesabların müstəqil açılması üçün minimum rəqəmsal yetkinlik yaşı 16 yaş müəyyən edilir. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" sənədə əsasən, 16-18 yaş arası şəxslər də uşaq kateqoriyasına aid edilir. Bu səbəbdən həmin yaş qrupunun platformalarda hesab yaratması, paylaşım etməsi və istifadəsi yalnız qanuni nümayəndələrin (valideynlərin) razılığı və nəzarəti ilə mümkün olacaq. Platforma provayderləri yaşa nəzarət üzrə effektiv texniki üsullar tətbiq etməlidirlər. Yaşın və valideyn razılığının yoxlanılması üçün bank kartı, elektron poçt və mobil telefon nömrəsi üzrə məlumatlar yoxlanılacaq. Həmçinin aidiyyəti dövlət qurumlarının birgə razılığı ilə digər texniki üsullardan da istifadə edilə bilər. 16-18 yaş arası istifadəçilərin yerləşdirəcəyi məzmunlar, reklamlar və platformadan istifadə saatları valideyn tərəfindən idarə olunacaq. Provayderlər müvafiq nəzarət paneli təmin etməyə məcburdurlar. Bəyan olunan yaşla bağlı şübhə yarandıqda təkrar yaş yoxlanılması aparılmalıdır. Yaşın yoxlanılması üçün toplanmış məlumatların saxlanılması, üçüncü şəxslərə ötürülməsi, kommersiya və ya hədəfli reklam məqsədilə istifadəsi qəti qadağandır. Şəxs yetkinlik yaşına çatdıqda onun uşaqlıq dövründə yerləşdirdiyi profil və məlumatlar sistemdən tam silinməlidir. Uşaqlarda psixi asılılıq yaradan sonsuz sürüşdürmə və videoların avtomatik səsləndirilməsi funksiyalarından istifadə, eləcə də zərərli reklamların yerləşdirilməsi qadağan edilir. Məkan məlumatları gizli saxlanılmalı və yüksək konfidensiallıq rejimi tətbiq olunmalıdır. Təhsil, səhiyyə və işgüzar platformalar istisna olmaqla, ölkəmizdə xidmət göstərən sosial şəbəkə provayderləri dövlət qeydiyyatından keçməlidir. Qeydiyyatdan keçməyən platformalara mərhələli maliyyə sanksiyaları, reklam məhdudiyyətləri və internet sürətinin azaldılması kimi ciddi tədbirlər tətbiq ediləcək.

Görünən odur ki, istər Gernsı adasındakı "düyməli telefon" təşəbbüsü, istər Avropadakı sərt qanunlar, istərsə də Azərbaycandakı hüquqi islahatlar eyni amala xidmət edir - uşaqlarımızı rəqəmsal bataqlıqdan xilas etmək. Əlbəttə, texnologiyanı tamamilə həyatımızdan çıxarmaq mümkün deyil. Lakin onu idarə olunacaq və təhlükəsiz çərçivəyə salmaq bizim əlimizdədir. Qanunvericilik bazası, dövlət nəzarəti və valideyn diqqəti bir araya gəldikdə rəqəmsal mühit uşaqlar üçün təhlükə mənbəyi kimi yox, inkişaf və bilik meydanına çevriləcək.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

## Rəqəmsal gələcəyin təməli təhsildən başlayır

Müasir dünyanın inkişaf dinamikasını müəyyən edən əsas amillərdən biri rəqəmsal texnologiyaların sürətli inkişafı və süni intellektin cəmiyyət həyatının müxtəlif sahələrinə getdikcə daha geniş nüfuz etməsidir. Bu proses artıq ayrı-ayrı texnoloji yeniliklərin tətbiqi çərçivəsindən çıxaraq iqtisadiyyatın, idarəetmənin, əmək bazarının və sosial münasibətlərin məzmununa təsir göstərən genişmiqyaslı transformasiyaya çevrilib.



Belə bir şəraitdə ölkələrin inkişaf perspektivlərini yalnız malik olduqları təbii və maddi resurslar deyil, həm də yeni texnoloji imkanları mənimsəyə və onlardan səmərəli istifadə edə bilən insan kapitalının səviyyəsi müəyyənləşdirir.

Dövlətimizin rəqəmsal transformasiyaya, innovasiyalara və süni intellekt texnologiyalarına artan diqqəti də məhz bu qlobal reallığın tələbləri ilə bağlıdır. Rəqəmsal inkişafın dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilməsi, bu sahədə institusional mexanizmlərin formalaşdırılması və yeni texnologiyaların müxtəlif sahələrdə tətbiqinin genişləndirilməsi ölkənin gələcək inkişaf modelində rəqəmsallaşmaya verilən əhəmiyyətin göstəricisidir.

Bu transformasiyanın mühüm istiqamətlərindən biri isə təhsildir. Texnologiyanın inkişaf tempi ilə insan kapitalının hazırlıq səviyyəsi arasında uyğunluq təmin edilmədən rəqəmsal iqtisadiyyatın qarşıya qoyduğu məqsədlərə nail olmaq mümkün deyil. Yeni texnologiyalar yeni bilik, yeni bacarıq və nəticə etibarilə yeni təhsil fəlsəfəsi tələb edir. Bu baxımdan süni intellektin təhsilə inteqrasiyası yalnız tədris prosesinə müasir texniki vasitələrin gətirilməsi kimi qiymətləndirilməməlidir. Məsələnin mahiyyəti daha genişdir: dəyişən əmək bazarının tələblərinə cavab verən, rəqəmsal bacarıqlara malik, eyni zamanda müstəqil düşünmə və yaradıcı yanaşma qabiliyyətini qoruyan yeni nəsil insan kapitalının formalaşdırılmasıdır. Qarşıda duran əsas vəzifə süni intellektin təhsilə daxil edilməsindən daha çox onun təhsilin keyfiyyətinin yüksəldilməsinə, müəllimin imkanlarının artırılmasına və gələcəyin mütəxəssisinin hazırlanmasına necə xidmət edəcəyini müəyyənləşdirməkdir.

Süni intellektin sürətli inkişafı ilə bilik anlayışının özü də dəyişir. Əvvəllər təhsilin əsas vəzifələrindən biri informasiyanı əldə etmək, yadda saxlamaq və tətbiq etmək idisə, indi informasiya demək olar ki, hər kəs üçün əlçatandır. Buna görə əsas məsələ yalnız məlumatı bilmək deyil, onu seçmək, doğruluğunu yoxlamaq, təhlil etmək, düzgün sual vermək və yeni ideyaya çevirmək getdikcə daha böyük əhəmiyyət qazanır. Sözsüz ki, bu dəyişiklik Azərbaycan təhsilinin qarşısında da yeni vəzifələr qoyur. Rəqəmsal texnologiyaların və süni intellektin iqtisadiyyatın, idarəetmənin və əmək bazarının inkişafına təsiri gücləndikcə təhsil sistemi bu prosesin arxasınca getməklə kifayətlənə bilməz. Təhsilin başlıca vəzifəsi gələcəyin insanını bu gündən hazırlamaqdır. Bu baxımdan rəqəmsal siyasətin əlaqələndirilməsi məqsədilə yaradılan və fəaliyyətinə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Rəqəmsal Şuranın qarşıya qoyduğu vəzifələr xüsusi strateji əhəmiyyət daşıyır. Rəqəmsal transformasiyaya dövlət səviyyəsində verilən diqqət göstərir ki, texnologiya artıq ayrıca bir sahənin məsələsi kimi deyil, ölkənin gələcək inkişafının mühüm dayaqlarından biri kimi nəzərdən keçirilir. Rəqəmsal transformasiyanın uğuru yalnız müasir texnologiyaların alınması və tətbiqi ilə təmin edilə bilməz. Müasir texnologiyaya malik olmaq başqa, ondan səmərəli istifadə edə biləcək insan kapitalına sahib olmaq isə tamam başqa məsələdir. Bu baxımdan rəqəmsal transformasiyanın ən mühüm ünvanlarından biri məhz təhsildir.

Süni intellekt əmək bazarının strukturunu dəyişdikcə ali məktəbin qarşısında duran vəzifə də dəyişir. Təhsil müəssisəsi bu gün mövcud olan peşələr üzrə mütəxəssis hazırlamaqla kifayətlənə bilməz. O, həm də gələcəyin peşələrinə hazır insan yetişdirməlidir. Bu baxımdan ali təhsil proqramlarında süni intellekt, data analitikası, rəqəmsal texnologiyalar və innovativ informasiya sistemləri ilə bağlı istiqamətlərin genişləndirilməsi mühüm addımdır. Yeni ixtisasların yaradılması və rəqəmsal bacarıqların müxtəlif ixtisasların məzmununa inteqrasiya edilməsi əmək bazarının dəyişən tələblərinə cavab vermək zərurətindən irəli gəlir.

Bu məqamda xüsusi qeyd edək ki, rəqəmsallaşmanı yalnız yeni ixtisasların yaradılması kimi başa düşmək də doğru olmaz. Gələcəyin müəllimi, iqtisadçısı, mühəndisi, həkimi və hüquqşünası sözsüz ki, müəyyən səviyyədə rəqəmsal savadlılığa malik olmalıdır. Çünki süni intellektin təsiri yalnız texnologiya şirkətləri ilə məhdudlaşmayacaq, demək olar ki, bütün peşələrin iş üsulunu dəyişəcək. Bu səbəbdən gələcəyin mütəxəssisi iki mühüm xüsusiyyəti özündə birləşdirməlidir: öz peşəsini dərindən bilməli və rəqəmsal texnologiyaları həmin peşənin inkişafına tətbiq etməyi bacarmalıdır.

Mütəxəssislərin fikrinə görə, süni intellektin təhsildə üstünlükləri yalnız məlumatın daha sürətli əldə olunması ilə məhdudlaşmır. Onun əsas üstünlüklərindən biri tələbənin inkişafını daha dəqiq izləməyə və təlim prosesini fərdi ehtiyaclara uyğunlaşdırmağa imkan verməsidir. Tələbənin nəticələri, davamiyyəti və öyrənmə dinamikası haqqında məlumatların təhlili onun hansı istiqamətdə çətinlik çəkdiyini müəyyənləşdirməyə, geridə qalmaq ehtimalını əvvəlcədən görməyə və vaxtında müdaxilə etməyə imkan verə bilər. Beləliklə, təhsil müəssisəsi problem yarandıqdan sonra reaksiya vermək əvəzinə, onun əlamətlərini əvvəlcədən müəyyənləşdirməyi bacarmalıdır. Bu, həm təhsilin keyfiyyətinin yüksəldilməsi, həm də insan kapitalının daha səmərəli formalaşdırılması baxımından əhəmiyyətlidir.

Bu səbəbdən süni intellekt dövrünün məktəbi və universiteti yalnız bilik ötürən müəssisə ola bilməz. Onun əsas vəzifələrindən biri müstəqil düşünən, yaradıcı, rəqəmsal savadlı və texnologiyanın imkanlarını düzgün istiqamətə yönəldə bilən insan yetişdirməkdir. Bu gün Azərbaycan təhsilinin qarşısında duran əsas məsələ də budur: süni intellektdən istifadə edən gənclər yetişdirmək, yoxsa süni intellektlə birlikdə düşünməyi və onun imkanlarını ölkənin inkişafına çevirməyi bacaran nəsil?

Qeyd etmək yerinə düşər ki, süni intellektin təhsildə tətbiqi nə qədər böyük imkanlar açsa da, bir o qədər də ciddi məsuliyyət yaradır. Çünki təhsil sahəsində texnologiyanın yanlış tətbiqinin nəticəsi, sadəcə, texniki problem deyil, gələcək nəslin düşüncə tərzinə, bilik səviyyəsinə və peşə hazırlığına təsir göstərə bilər. Problem texnologiyanın hazırladığı cavabın tələbənin öz düşüncəsi kimi təqdim edilməsindən başlayır. Belə olduqda süni intellekt öyrənmə prosesini sürətləndirmək əvəzinə müstəqil düşünmə vərdişini zəiflədə bilər. Deməli, gələcəyin təhsilində mühüm bacarıqlardan biri yalnız süni intellektə düzgün sual vermək deyil, onun verdiyi cavabı da yoxlamaq olacaq.

Burada maraqlı bir paradoks ortaya çıxır: texnologiya nə qədər güclənirsə, insan amilinin əhəmiyyəti bir o qədər artır. Süni intellekt məlumat yarada, variantlar təklif edə və böyük həcmdə informasiyanı sürətlə təhlil edə bilər. Amma həmin məlumatın hansı məqsədlə istifadə olunacağına, hansı qərarın doğru olduğuna və bu qərarın cəmiyyət üçün nəticələrinə görə məsuliyyəti yenə insan daşıyır. Hədəf texnologiyaya uyğunlaşmaq yox, onu inkişafın vasitəsinə çevirməkdir.

Azərbaycanın məqsədi yalnız dünyanın sürətli texnoloji dəyişikliklərinə qoşulmaq deyil, əsas məsələ həmin dəyişiklikdən milli inkişaf üçün səmərəli istifadə edə biləcək insan kapitalını formalaşdırmaqdır.

Süni intellekt Azərbaycan təhsilinin qarşısında seçim deyil, yeni reallıq yaradıb. Bu reallıqdan kənarda qalmaq mümkün deyil. Lakin texnologiyanı qəbul etmək onun imkanlarını düşünmədən tətbiq etmək demək də deyil.

Süni intellektdən istifadə etməyi bacaran, amma onun qarşısında düşünmək qabiliyyətini itirməyən nəsil yetişdirilməlidir. Hazır cavabı qəbul edən deyil, düzgün sual verən və cavabı yoxlayan tələbə, texnologiyadan qorxan deyil, onun imkanlarını məsuliyyətlə idarə edən müəllim formalaşdırılmalıdır. Azərbaycan təhsilinin gələcəyi də məhz bu tarazlıqdan asılıdır - müasir texnologiya ilə ən vacib insan keyfiyyətlərini - zəka, yaradıcılıq, məsuliyyət və mənəvi dəyərləri bir araya gətirmək. Gələcəyin məktəbi və universiteti texnologiyanın insanı əvəz etdiyi yer deyil, insanın texnologiyanın imkanlarından istifadə edərək öz intellektual sərhədlərini genişləndirdiyi məkan olmalıdır.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***








**2026 Şəhərsalma və Memarlıq İli**








# Odlar yurdunun "Alov qüllələri"

**XXI əsr qlobal miqyasda urbanizasiya prosesinin misilsiz sürətlə inkişaf etdiyi, şəhərlərin landşaftının və memarlıq arxetipinin yenidən formalaşdığı bir dövrdür. Müasir günümüzdə şəhərsalma artıq sadəcə beton və şüşə konstruksiyaların ucaldılması və mənzil fondu yaradılmasından ibarət mexaniki bir proses deyil. O, sosiologiyanın, ekologiyanın, mühəndisliyin və rəqəmsal texnologiyaların kəsişməsində qərar tutan, bəşəriyyətin gələcək həyat standartlarını müəyyən edən strateji bir elmdir.**

Bu gün ölkəmizin böyük şəhərlərində ucalan yeni binalar həm memarlıq estetikası, həm də mühəndislik həlləri baxımından köklü bir transformasiya dövrünü yaşayır. Köhnə, monolit və birrəngli yaşayış massivləri öz yerini ekoloji cəhətdən təmiz, enerjiyə qənaət edən və insan amilini mərkəzdə saxlayan multifunksional yaşayış komplekslərinə verir. Bu keçid şəhərlərimizin yalnız vizual görünüşünü dəyişmir, həm də gələcək nəsillər üçün daha təhlükəsiz, yaşıl və intellektual mühit vəd edir.

Bakı hazırda dünya miqyasında həm də sürətli modernləşmə və unikal şəhərsalma nümunəsi kimi çıxış edir. Neft bumunun memarlıq irsini daşıyan qədim İçərişəhərin, XIX əsr Avropa üslublu binaların əhatə etdiyi paytaxtımız XXI əsrdə tamamilə fərqli bir vizual və funksional mərhələyə qədəm qoyub. Belə bir inkişaf təkcə infrastrukturun yenilənməsi ilə məhdudlaşmır, həm də şəhərin tarixi kimliyini müasir texnologiyalar və fəlsəfə ilə birləşdirən yeni simvolların yaranmasını tələb edir.

Azərbaycan Respublikasında elan olunmuş 2026-cı il - "Şəhərsalma və Memarlıq İli" çərçivəsində paytaxtın keçdiyi bu təkamül yolu daha dərindən təhlil edilir və gələcək inkişaf strategiyaları formalaşdırılır. Artıq təsdiq olunmuş 2040-cı ilədək olan regional baş plan çərçivəsində Bakı qlobal memarlıq arenasında öz yeni futuristik simasını nümayiş etdirir.

Müasir Bakının simasını kökündən dəyişən, şəhərə gələn hər bir qonağın ilk diqqətini çəkən və qısa müddətdə ölkənin gerçək brendinə çevrilən ən mühüm memarlıq kompleksi isə şübhəsiz ki, "Alov qüllələri"dir (Flame Towers). Bu möhtəşəm layihə, sadəcə bir göydələn kompleksi deyil, Bakının qədim "Odlar Yurdu" fəlsəfəsinin müasir mühəndislik dili ilə yenidən şərh olunmasıdır.

## Müasir tikinti trendləri

Məlumdur ki, şəhərsalma elmində hündürmərtəbəli binaların yerləşməsi şəhərin gerçək balansını pozmamalı, əksinə, tamamlamalıdır. "Alov qüllələri" məhz bu baxımdan mükəmməl strateji nöqtədə - Bakının ən hündür təbii yüksəkliklərindən birində - Dağüstü parkın yaxınlığında inşa edilib. Kompleks Xəzər dənizinin sahilindən və şəhərin əksər mərkəzi küçələrindən aydın seçilir. Binalar paytaxtın amfiteatr formalı relyefində təbii bir dominant rolunu oynayır. Onların fasadını örtən xüsusi LED ekran panelləri vasitəsilə icra olunan vizual şoular, rəqs edən alovlar və Azərbaycan bayrağının əksi Bakının gecə mənzərəsini tamamlayan əsas elementlərdir.

Kompleks Amerikanın dünyaca məşhur "HOK" memarlıq şirkəti (baş memar Barri Hyuz) tərəfindən layihələndirilmiş, 2007-2012-ci illərdə inşa olunmuşdur. Tikinti işləri əsasən Türkiyənin "Dia Holdinq" şirkəti tərəfindən həyata keçirilmişdir. Bu tikili adını və formasını Azərbaycanın qədim tarixi köklərindən götürmüşdür. Bakı ərazisində əsrlər boyu mövcud olmuş atəşpərəstlik mədəniyyəti və təbii qaz sızmalarından yaranan alovlar memarların ilham mənbəyi olmuşdur. Göydələnlərin üç müstəqil alov dilini xatırladan asimmetrik forması şəhərin qədim hissəsi olan İçərişəhər və Qız qalası ilə kəskin təzad yaratsa da, vizual olaraq bir harmoniya təşkil edir. Bu, şəhərsalmada tarixin qorunması ilə yanaşı, gələcəyə doğru atılan cəsarətli addımların ən bariz nümunəsidir.

## Üç sütun, üç funksiya

Hündürlükləri 140 metrdən 182 metrə qədər dəyişən bu üç qüllə təkcə estetik görünüşü ilə deyil, həm də çoxfunksiyalığı ilə müasir şəhər həyatının mərkəzinə çevrilib. Cənub qülləsi (yaşayış) ən hündür qüllədir və 182 metr, 39 mərtəbədən ibarətdir, paytaxtın ən lüks və müasir standartlara cavab verən rezidensiyalarını özündə birləşdirir. Şimal qülləsi (hotel) hündürlüyü 165 metr, 36 mərtəbədən ibarətdir. Bura beynəlxalq "Fairmont Baku" brendi altında fəaliyyət göstərərək şəhərin turizm infrastrukturuna böyük töhfə verir. Qərb qülləsi (ofis) hündürlüyü 161 metr, 28 mərtəbə təşkil edir və müasir "A" sinifli kommersiya ofislərindən ibarətdir. Müasir biznes mərkəzi kimi yerli və beynəlxalq şirkətlərin fəaliyyəti üçün yüksək texnoloji şəraiti təmin edir. Hər üç qülləni birləşdirən alt hissədə böyük ticarət və əyləncə mərkəzi yerləşir.

"Alov qüllələri" təkcə vizual görünüşü ilə deyil, həm də arxasında dayanan mürəkkəb mühəndislik həlləri ilə dünya tikinti tarixinə düşüb. Bakının yüksək seysmik zonada yerləşməsi və şəhərin simvolu olan güclü xəzri küləkləri layihəçilər, dizaynerlər qarşısında çox ciddi sınaqlar qoymuşdu. Bu çətinlikləri dəf etmək üçün binanın inşasında unikal mühəndislik üsullarından istifadə olunub. İlk növbədə kompleks Rixter şkalası ilə 9 ballıq zəlzələyə tab gətirə biləcək şəkildə layihələndirilib. Binaların bünövrəsində diametri 1,2 metrdən 1,5 metrə qədər dəyişən, yerin dərinliklərinə doğru uzanan yüzlərlə dəmir-beton svaylar (bunun üçün xüsusi qazma avadanlıqları tərəfindən 30 metrdən çox dərinlikdə quyular qazılmışdı) quraşdırılıb. Bu sistem binanın çəkisini yerin altındakı möhkəm süxurlara ötürür.

Bakının saniyədə 35-40 metrə çatan küləkləri binaların yuxarı mərtəbələrində güclü rəqslər yarada bilərdi. Bunun qarşısını almaq üçün qüllələrin yuxarı hissəsində polad karkas konstruksiyalardan istifadə olunub. Həmçinin binaların daxilində xüsusi kütlə dempferləri (külək rəqslərini söndürən nəhəng balans sistemləri) quraşdırılıb. Beləliklə, külək nə qədər güclü olsa da, binanın aerodinamik quruluşu və daxili mexanizmləri onun təhlükəsizliyini tam təmin edir.

Binalar dik yamacda və sürüşmə ehtimalı olan ərazidə inşa edildiyi üçün mühəndislər əvvəlcə nəhəng bir beton dayaq divarı (buna şəhərsalmada şpunt divarı deyilir) çəkməli olublar. Bu, həm torpaq sürüşməsinin qarşısını almış, həm də ağır texnikanın ərazidə təhlükəsiz işləməsinə şərait yaratmışdır.

## "Ağıllı bina" (Smart Building)

"Alov qüllələri" təkcə möhkəm bünövrəsi ilə deyil, həm də daxili idarəetmə sistemlərinin intellektual səviyyəsi ilə müasir şəhərsalmanın ən son nailiyyətlərini özündə cəmləşdirir. Kompleks tam şəkildə "Ağıllı bina" (Smart Building) konsepsiyası əsasında idarə olunur. Qüllələrin fasadında istifadə olunan şüşə örtüklər xüsusi tərkibə malikdir. Onlar yayda günəş şüalarının istiliyini geri qaytararaq daxili soyutma sistemlərinin yükünü azaldır, qışda isə istiliyi içəridə saxlayaraq enerji sərfiyyatını minimuma endirir.

Binanın xarici səthinə quraşdırılmış 10 mindən çox yüksək güclü LED çıraq xüsusi kompüter proqramı ilə mərkəzləşdirilmiş qaydada idarə olunur. Bu sistem onları vahid bir ekrana çevirərək şəhər miqyasında vizual kommunikasiya aləti rolunu oynayır. Yanğın, dəm qazı sızması və ya hər hansı digər fövqəladə hal zamanı intellektual sensorlar dərhal işə düşür. Liftlər, havalandırma və təxliyə yolları insan amili olmadan, tam avtomatik rejimdə ən təhlükəsiz vəziyyətə gətirilir. Gecə saatlarında binaların üzərində hərəkət edən nəhəng alov dilləri, Azərbaycan bayrağını dalğalandıran insan fiqurları və müxtəlif vizual animasiyalar nümayiş etdirilir. Bu layihə skyscrapers.com tərəfindən dünyanın ən yaxşı işıqlandırılmış binası seçilmişdir.

Kompleks həm də Avropanın daşınmaz əmlak bazarında ən nüfuzlu müsabiqələrdən biri sayılan MIPIM 2013-də "Ən yaxşı hotel və turizm mərkəzi" nominasiyasının qalibi olmuşdur.

"Alov qüllələri" Bakının təkcə memarlıq uğuru deyil, həm də şəhərsalma strategiyasının düzgün idarə olunmasının göstəricisidir. "Şəhərsalma və Memarlıq İli"ndə bu kompleksə nəzər salarkən bir daha əmin oluruq ki, Bakı öz tarixi ruhunu və qədim köklərini itirmədən dünyanın ən müasir, təhlükəsiz və texnoloji metropolisinə çevrilməyi bacaran nadir şəhərlərdəndir.

Bir faktı da qeyd edək ki, modern üslubda inşa edilən yeni binalar sadəcə vizual gözəllik naminə deyil, yüksək texnoloji funksionallıq və ekoloji tələblər (Green Architecture) əsasında layihələndirilir. Yeni tikililərin fasadlarında istifadə olunan modern vitrajlar günəş şüalarını filtrləyərək binanın daxili iqlimini avtomatik tənzimləyir. Bu sistemlər yayda sərinlik yaradır, qışda isə istilik itkisini minimuma endirir. Yeni tikilən premium sinif binalar avtomatlaşdırılmış idarəetmə ("Smart Home"), yağış sularının toplanaraq yaşıllıqların suvarılmasında təkrar istifadəsi və alternativ enerji mənbələrinə inteqrasiya sistemləri ilə təchiz olunur.

Bütün bunlar göstərir ki, son illər ölkəmizdə, xüsusilə paytaxt Bakıda şəhərsalma prosesi və yeni çoxmərtəbəli binaların inşası keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. İnkişaf edən şəhər infrastrukturu və əhalinin mənzilə artan tələbatı tikinti sektorunun dinamikasını sürətləndirməklə bərabər, prosesin hüquqi və memarlıq normaları çərçivəsində tənzimlənməsi də əsas prioritetə çevrilmişdir. Dövlətin bu sahədə apardığı islahatlar şəhərin estetik görkəminin qorunması və vətəndaşların təhlükəsizliyinin təminatı məqsədini daşıyır.

*İradə ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Kürün kürlüyünü buraxdığı Kür qəsəbəsi

### Bu şəhərtipli yaşayış məskəni Heydər Əliyevin təşəbbüsü ilə salınıb

**Şəmkir rayonunda dörd şəhərtipli qəsəbə var - Zəyəm, Çinarlı, Dəllər və Kür qəsəbəsi. Onlardan ən gənci Ümummilli Lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə rayonun şimal-şərq istiqamətində salınmış Kür qəsəbəsidir.**






Şəmkir SES-in ilk rəisi işləmiş Hafiz Yusifov xatirələrində bildirir ki, qəsəbənin ilk sakinlərindən biri olub: "O vaxtlar burada 5-6 taxta vaqon-ev var idi. Camaat arasında "energetiklər evi" deyirdilər. Tikintidə işlər böyüdükcə, fəhlə və mütəxəssislər çoxaldıqca, ikinövbəli, üçnövbəli iş rejimi tətbiq edildikcə "energetiklər evi" böyüməyə başladı. Şəxsən mənim də iştirak etdiyim heyətin tərkibində Heydər Əliyev yaşayış məskəninin seçilməsi üçün bir neçə dəfə əraziyə baxış keçirdi. Mütəxəssislərlə söhbətdən, müəyyən layihələri müzakirədən sonra - 1975-ci ildə fəhlə və qulluqçularımız üçün evlərin ilk təməl daşları qoyuldu. Əvvəllər camaat arasında bura "Energetiklər qəsəbəsi" adlandırılsa da, 1978-ci ildə rəsmləşdirmə zamanı Kür çayının sahilində salındığından Kür qəsəbəsi adlandırıldı. Bir neçə iri zavod və fabrik, o cümlədən Cihazqayırma, Kabel zavodları, soyuducu istehsal edən müəssisə, toxuculuq kombinatı və s. fəaliyyətə başladı. Yola saldığımız illər, tarix və zaman, bugünkü yaşlı nəsil şahiddir ki, bu yaşayış məkanı şəxsən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və tövsiyəsi ilə tikilib, qurulub və cənnətməkan bir diyara çevrilib".

Qəsəbə düzənlik ərazidə şəhərsalma arxitektura qaydalarına məxsus elə salınıb ki, adam baxdıqca baxmaq, gəzdikcə gəzmək istəyir. Şəhərsalma mədəniyyəti onun coğrafiyası ilə sıx bağlıdır. Göylərə baş çəkən qovaqlar, şam və çinar ağacları, barlı-bərəkətli meyvə bağları, yaşıllıqlar, çoxmərtəbəli yaşayış evləri göz oxşayır. İstirahət parkı, adamların davranışı, geyim-keçimi, nəqliyyatın hərəkəti - bütün bunlar insanlara müasir şəhər həyatını xatırladır.

Ötən əsrin 70-ci illərində Kür çayı üzərində ikinci SES tikilərkən inşaatçıların əksəriyyəti Kür qəsəbə sakinləri olsalar da, burada yerli camaatla yanaşı, tikintidə işləmək üçün uzaq və yaxın bölgələrdən köçüb gələnlər də məskunlaşıblar. Hazırda qəsəbənin əhalisi 11 mindən çoxdur. Qəsəbədə iki tam orta məktəb, uşaq bağçası, xəstəxana, Uşaq Gənclər İdman məktəbi, ATS, poçt, polis bölməsi, Yanğından mühafizə xidməti və gündəlik mərkəzi bazar fəaliyyət göstərir. Burada təhlükəsiz, ekoloji cəhətdən sağlam və sosial baxımdan balanslı mühit formalaşdırılıb.

Qəsəbənin taleyi və necə yaradılması haqqında hansı ziyalı, hansı ağsaqqalla görüşdüksə, Ulu Öndər Heydər Əliyevin 2000-ci ildə Yenikənd Su-Elektrik Stansiyasının açılış mərasimindəki çıxışında dediyi sözlər yada düşdü: "Mən 1970-ci illərdə səpdiyim toxumların bəhrəsini görürəm. Amma bu bəhrə üçün kənarda gözləməmişəm ki, görüm bu toxum nə vaxt cücərəcəkdir, nə vaxt qalxacaqdır, nə vaxt ağac, yaxud bitki olacaqdır. Onu sulamışam, bəsləmişəm, bütün işləri görmüşəm, burada bax bu cür nəhəng su-elektrik stansiyasının tikilməsinə nail olmuşam. Butün bunlar kimin üçündür? Bizim millətimiz üçündür, Azərbaycan xalqı, dövləti, müstəqil Azərbaycan üçündür!"

Bu gün şəhər tipli Kür qəsəbəsi yalnız tikililər toplusu deyil, quruculuq düşüncəsinin, sosial rifahın və mədəni yaddaşın maddiləşmiş formasıdır. Şəhər quruculuğu sahəsindəki yeni təzahürlər qəsəbədə inşa edilən binaların memarlıq həllində özünü qabarıq büruzə verir.

Şəmkir rayon Kür qəsəbə bələdiyyəsinin sədri Elşad Hüseynov bildirir ki, qəsəbədə irili-xırdalı 20-dən çox küçə var: "Bu küçələrin əksəriyyəti tarixi şəxsiyyətlərin, dövlət xadimlərinin, şair və yazıçıların, Qarabağ müharibəsində şəhidlik zirvəsinə yüksələnlərin adını daşıyır. Qəsəbənin görməli yerində Birinci Qarabağ müharibəsinin iştirakçısı, Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun abidəsi ucalır. Ötən əsrin 80-ci illərindən fəaliyyətdə olan ikimərtəbəli xəstəxana binası 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" çərçivəsində yenidən təmir olunub, müasir tibbi avadanlıqlarla təmin edilərək Regional Vərəm Xəstəxanasına çevrilib. Küçələrimiz abad və səliqə-sahmanlıdır. Son illər qəsəbəmizdə yerli memarlıq üslubunda tikilən iki və üçmərtəbəli mülklərin sayı xeyli artıb".

Küçələr boyu əkilən dekorativ kollar, şam ağacları və qızıl güllər göz oxşayır. Yeni yaradılmış fərdi sex və iaşə sahələri əhaliyə yüksək səviyyədə xidmət göstərir. Ötən ildən Ceyrançölü deyilən ərazidə şəkər sexi fəaliyyətə başlayıb. Bir sözlə, Ulu Öndərin xeyir-duası ilə əsası qoyulan Şəmkirin şəhərsalma simasına xüsusi gözəllik verən və Kürün kürlüyünü buraxdığı Kür qəsəbəsi bu yerlərə yeni nəfəs gətirib.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Zəngilan zəngin keçmişi üzərində qurulur

**Ölkəmizin qədim və əsrarəngiz gözəlliyi ilə seçilib və sevilən diyarlarından biri olan Zəngilan zaman-zaman xalqımızın mədəniyyətinin inkişafına əvəzsiz töhfələr vermişdir. Amma təəssüflər olsun ki, XX əsrin əvvəllərində və sonlarında baş verən məlum proseslər, qan və işğal qoxulu hadisələr bu gözəl diyarın inkişafının üzərinə qara buludlar kimi çökmüşdü.**



1920-ci ilin aprelində Azərbaycanın məcburi surətdə sovetləşdirilməsindən sonra bolşeviklərin dəstəyi ilə qədim torpaqlarımız hesabına ermənilər tarixdə ilk dəfə dövlət yaratdılar. Bolşevik Rusiyasının təzyiqi ilə Qərbi Zəngəzur Azərbaycandan alınaraq Ermənistana birləşdirildi. Şərqi Zəngəzur Laçın, Qubadlı və Zəngilan rayonları isə Azərbaycanın tərkibində qaldı.

XX əsrin sonlarında yenə də ermənilərin çirkin və gizli məqsədləri səbəbindən bölgədə qan töküldü. Ermənistanın Azərbaycana qarşı başlatdığı işğalçı siyasət nəticəsində yenə də Zəngilanın başının üstündə qara buludlar dolaşmağa başladı. Füzuli və Cəbrayıl rayonları işğal olunduqdan 67 gün sonra 29 oktyabr 1993-cü ildə Zəngilan da düşmən əlinə keçdi. 30 ilə yaxın davam edən işğal zamanı ermənilər Zəngilanın tarixi-mədəni irsini darmadağın etdilər. IV-XIX əsrlərə aid tarixi abidələr, məscidlər, ziyarətgahlar yerlə yeksan olundu.

27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsində Zəngilan erməni işğalçılarından azad edildi. Başqa bölgələrimiz kimi, bu rayonda da bərpa-quruculuq işlərinə başlanıldı.

Zəngilan Böyük qayıdışın başlanğıcıdır. Torpaqlarımız azad edildikdən sonra ilk evlərin tikintisi bu rayonun ərazisində həyata keçirildi. Prezident İlham Əliyev 2021-ci il aprelin 26-da Ağalı kəndinə səfər edərək 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərini əhatə edən "ağıllı kənd" layihəsinin təməlini qoydu. Bununla da Zəngilanda və erməni işğalçılarından azad olunmuş digər ərazilərdə tikinti və şəhərsalma işlərinə başlandı. 2022-ci il mayın 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak etdilər.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Zəngilan şəhər məscidi də bərpa edildi. İllərdən bəri rayon sakinlərinin ibadət etdiyi məscid tarixi libasını yenidən əyninə geyindi. İşğal illərində düşmən tərəfindən təhqir olunan və ilkin memarlıq görkəminin 70 faizdən çoxunu itirən müqəddəs ibadətgah müasir memarlıq tələblərinə uyğun, tarixi üslubu qorunmaqla yenidən inşa olundu. İkiminarəli, zərif memarlıq detallarına malik yeni məscid qısa müddət ərzində Zəngilanın bərpasının, xalqımızın mənəvi dirçəlişinin və dini-mədəni irsə sədaqətinin rəmzinə çevrildi.

Zəngilanda aparılan şəhərsalma və quruculuq işləri çərçivəsində Konqres Mərkəzi Kompleksi də tikilib istifadəyə verilib. Zəngilan Konqres Mərkəzi Kompleksi yerli və xarici mütəxəssislər cəlb olunmaqla, 6 ay ərzində inşa edilib. Memarlıq baxımından görənləri heyran edən, ərazisi 2,2 hektar olan Zəngilan Konqres Mərkəzi Kompleksi iki hissədən ibarətdir. Kompleksə daxil olan 600 yerlik korpusda ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün müasir standartlara uyğun şərait yaradılıb. Kompleksin ərazisində yaşıllıq zonaları salınıb, binanın dam hissəsində günəş panelləri quraşdırılıb.

Artıq Zəngilan şəhərində keçmiş köçkünlər üçün tikilən evlərin bir hissəsinin inşası başa çatıb. İllərdən bəri ata-baba yurdunun həsrətini çəkən insanlar doğma ocaqlarına qayıdıblar. 2026-cı il mayın 10-da Azərbaycan Prezidenti İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib.

Bu gün də Zəngilan yenidən qurulur, yenidən tikilir. Nazirlər Kabineti 2023-cü il oktyabrın 30-da "Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair baş planı"nı təsdiq edib. İnfrastruktura böyük vəsait ayrılıb və artıq bir neçə yaşayış layihəsi icra edilir.

Dünya təcrübəsində özünü doğrultmuş qlobal şəhərsalma prinsipləri nəzərə alınaraq şəhərin planlı və sistemli inkişafını təmin etmək məqsədilə Zəngilanın baş planının hazırlanması üçün Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nüfuzlu beynəlxalq şəhərsalma təşkilatı - İsveçrənin "sa_partners" şirkətini və Bakı Dövlət Layihə İnstitutunu əməkdaşlığa cəlb edib. Baş planın konsepsiyasına əsasən, Zəngilan logistika, turizm və ticarət, bərpaolunan enerji, müasir innovasiyalar mərkəzi kimi inkişaf edəcək. Şəhərin beynəlxalq əhəmiyyəti nəqliyyat dəhlizinin üzərində yerləşməsi onun strateji məntəqə rolunu gücləndirəcək, sürətli inkişafına böyük töhfələr verəcək.

Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti sayəsində Şərqi Zəngəzurun ən mühüm coğrafi mərkəzlərindən biri olan Zəngilanın yenidən qurulması və dirçəldilməsi istiqamətində genişmiqyaslı işlər sürətlə davam edir. Deməli, tikilən müasir yaşayış binaları, aparılan geniş abadlıq işləri, yaradılan sosial infrastruktur və rahat həyat şəraiti Zəngilanın yeni simasını formalaşdıracaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

Son illər dünyada baş verən geosiyasi proseslər, ərzaq bazarlarındakı dalğalanmalar, iqlim dəyişiklikləri və su ehtiyatlarının azalması kənd təsərrüfatını yenidən dövlətlərin strateji prioritetləri sırasına çıxarıb. Əgər bir neçə il əvvəl aqrar sektor əsasən sosial məşğulluq sahəsi kimi qiymətləndirilirdisə, bu gün o, milli təhlükəsizlik, iqtisadi dayanıqlılıq və ixrac potensialını müəyyən edən aparıcı istiqamətlərdən biri hesab olunur. Məhz buna görə də bu ilin əvvəlindən Azərbaycanda həyata keçirilən aqrar siyasətə yalnız cari tədbirlər toplusu kimi deyil, kənd təsərrüfatının gələcək inkişaf modelini müəyyən edən yeni mərhələnin başlanğıcı kimi baxmaq daha doğru olardı.

# Dövlət proqramı Azərbaycanın kənd təsərrüfatına nə vəd edir



Bu dövrdə diqqəti cəlb edən ən mühüm məqam odur ki, dövlət siyasətində prioritet artıq təkcə istehsalın artırılması deyil, daha yüksək məhsuldarlığa, emal sənayesinin genişləndirilməsinə, əlavə dəyər yaradan istehsal zəncirinin formalaşdırılmasına və ixrac qabiliyyətinin gücləndirilməsinə yönəlir. Başqa sözlə, məqsəd əvvəlki illərdə olduğu kimi, yalnız daha çox məhsul istehsal etmək deyil, həmin məhsulun iqtisadi dəyərini artırmaqdır.

Bu yanaşma təsadüfi deyil. Dünyanın inkişaf etmiş aqrar ölkələrinin təcrübəsi göstərir ki, kənd təsərrüfatının rəqabət qabiliyyəti artıq əkin sahələrinin genişliyi ilə deyil, texnologiya, innovasiya, logistika və emal imkanları ilə müəyyən olunur. Azərbaycanın son aylarda qəbul etdiyi qərarlar da məhz bu istiqamətdə yeni mərhələnin başlandığını göstərir.

Bu baxımdan may ayında təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" xüsusi əhəmiyyət daşıyır. Proqramın əsas məqsədi aqrar istehsalın rəqabət qabiliyyətini artırmaq, intensiv təsərrüfatçılığı genişləndirmək, yüksək əlavə dəyər yaradan emal sənayesini inkişaf etdirmək və ölkənin ərzaq təhlükəsizliyini daha da möhkəmləndirməkdir. Eyni zamanda proqram normativ-hüquqi bazanın təkmilləşdirilməsi, dövlət investisiyalarının gücləndirilməsi, su təminatının yaxşılaşdırılması və icra prosesinin vahid monitorinq mexanizmi ilə qiymətləndirilməsini də nəzərdə tutur.

Bu sənəd, əslində, Azərbaycanın aqrar siyasətinin yeni fəlsəfəsini formalaşdırır. Əvvəlki proqramlarda daha çox ayrı-ayrı sahələrin dəstəklənməsi ön planda idisə, yeni yanaşmada istehsal, emal, logistika, ixrac, su idarəçiliyi və rəqəmsallaşma vahid sistem kimi nəzərdən keçirilir. Bu isə aqrar sektorda struktur dəyişikliklərinin sürətlənəcəyini göstərən mühüm amildir.

Son aylar regionlarda keçirilən müşavirələr də göstərir ki, dövlət proqramının icrası yalnız mərkəzi səviyyədə deyil, iqtisadi rayonlar üzrə konkret fəaliyyət planları əsasında təşkil olunur. Fermer təsərrüfatlarının yaradılması, su təminatının yaxşılaşdırılması, torpaqdan daha səmərəli istifadə və istehsalın koordinasiyası artıq regional inkişaf siyasətinin ayrılmaz hissəsinə çevrilir.

Regionlarda artıq dövlət proqramının icrasına başlanılıb. Proqramın qəbulundan sonra diqqəti cəlb edən əsas məqamlardan biri onun yalnız normativ sənəd kimi qalmaması, qısa müddətdə regionlar üzrə konkret fəaliyyət mexanizmlərinə çevrilməsidir. İyun ayından başlayaraq müxtəlif iqtisadi rayonlarda keçirilən regional müşavirələr göstərdi ki, aqrar siyasətin həyata keçirilməsində artıq vahid yanaşmadan deyil, hər bir regionun ixtisaslaşma üstünlüklərinə əsaslanan diferensial inkişaf modelindən istifadə olunur.

Quba-Xaçmaz və Abşeron-Xızı iqtisadi rayonları üzrə keçirilən müşavirələrdə əsas diqqət meyvəçilik, tərəvəzçilik və heyvandarlığın məhsuldarlığının artırılmasına yönəldildi. Burada su təminatının yaxşılaşdırılması, ekoloji dayanıqlı istehsal texnologiyalarının tətbiqi və intensiv bağçılığın genişləndirilməsi prioritet istiqamətlər kimi müəyyən edildi. Eyni zamanda fermerlərin müasir texnologiyalara çıxış imkanlarının artırılması və su ehtiyatlarından daha səmərəli istifadə məsələləri geniş müzakirə olundu.

Qarabağ iqtisadi rayonu üzrə Ağcabədidə keçirilən müşavirədə regionun aqrar potensialının tam reallaşdırılması əsas hədəf kimi müəyyən edildi. Taxılçılıq, pambıqçılıq, heyvandarlıq və quşçuluq sahələrinin inkişafı, azad edilmiş ərazilərin aqrar dövriyyəyə daha geniş cəlb olunması, müasir təsərrüfatların yaradılması və emal müəssisələrinin inkişafı prioritet istiqamətlər sırasında yer aldı. Bu yanaşma Qarabağın yalnız kənd təsərrüfatı istehsalçısı deyil, eyni zamanda yüksək əlavə dəyər yaradan aqrar-sənaye mərkəzinə çevrilməsi məqsədini ortaya qoyur.

Lənkəran-Astara iqtisadi rayonunda keçirilən regional müzakirələr isə subtropik kənd təsərrüfatının inkişaf perspektivlərinə həsr olundu. Burada çayçılıq, sitrusçuluq, tərəvəzçilik və intensiv bağçılığın genişləndirilməsi ilə yanaşı, məhsuldarlığın yüksəldilməsi üçün konkret hədəflər açıqlandı.

Dövlət proqramında buğda üzrə məhsuldarlığın hədəf rayonlarda 50 sentnerə, dəmyə rayonlarında isə 30 sentnerə çatdırılması, 571 yeni kombaynın alınması, 84,9 min hektarda lazer hamarlama texnologiyasının tətbiqi, 150 min ton əlavə taxıl silosu və 100 min ton yeni soyuducu anbar tutumunun yaradılması kimi tədbirlər nəzərdə tutulur. Bu investisiyalar istehsal itkilərinin azaldılmasına və məhsulların bazara daha səmərəli çıxarılmasına xidmət edəcək. Bu regional yanaşma göstərir ki, dövlət artıq bütün ölkə üzrə eyni aqrar model tətbiq etmək əvəzinə, hər iqtisadi rayonun təbii-iqlim şəraitini, ixtisaslaşmasını və bazar imkanlarını nəzərə alan inkişaf strategiyası formalaşdırır. Bu, resurslardan daha səmərəli istifadə etməyə, investisiyaların daha düzgün istiqamətləndirilməsinə və regionların rəqabət üstünlüklərinin gücləndirilməsinə imkan yaradır.

Əslində, müşavirələrin məzmunu bir mühüm məqamı da ortaya qoyur. Yeni dövlət proqramının uğuru yalnız ayrılan maliyyə vəsaiti ilə deyil, mərkəzi dövlət qurumları, yerli icra hakimiyyətləri, fermerlər, aqrobiznes subyektləri və elmi müəssisələr arasında koordinasiyanın necə qurulacağından asılı olacaq. Bu baxımdan regional müşavirələr, sadəcə, təşkilati tədbir deyil, proqramın icra mexanizminin praktik əsaslarının formalaşdırılması kimi qiymətləndirilə bilər.

Maraqlıdır ki, son illərdə aqrar sektora yanaşmada başqa bir mühüm dəyişiklik də müşahidə olunur. Əgər əvvəl subsidiya siyasəti əsasən istehsalçının cari xərclərinin azaldılmasına xidmət edirdisə, indi dövlət dəstəyi daha çox məhsuldarlığın yüksəldilməsinə, texnologiyanın tətbiqinə və bazaryönümlü istehsalın təşviqinə istiqamətlənir. Bu yanaşma fermeri yalnız dəstək alan subyekt kimi deyil, rəqabət qabiliyyətli sahibkar kimi formalaşdırmağı hədəfləyir.

Bütün bunlar göstərir ki, Azərbaycanın aqrar siyasətində baş verən dəyişikliklər qısamüddətli tədbirlərdən daha çox uzunmüddətli iqtisadi transformasiya strategiyasının tərkib hissəsidir. Qarşıdakı illərdə əsas məsələ istehsal həcmlərinin artımı ilə yanaşı, hər hektardan əldə olunan iqtisadi səmərənin, ixrac olunan məhsulların əlavə dəyərinin və kənd təsərrüfatının milli iqtisadiyyata töhfəsinin artırılması olacaq.

Rəqəmlər göstərir ki, 2026-cı ilin ilk altı ayı kənd təsərrüfatı üçün sabit artım mərhələsi kimi xarakterizə oluna bilər. Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-iyun aylarında kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 7,1 milyard manata yaxın olub və əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 2,2 faiz artıb. Bu dinamika ümumi iqtisadi artım tempini dəstəkləyən qeyri-neft sektorunun əsas istiqamətlərindən biri kimi aqrar sahənin rolunu bir daha təsdiqləyir. Həmin dövrdə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində yaradılmış əlavə dəyər də 2,3 faiz yüksəlib.

İlk baxışdan 2-3 faizlik artım yüksək görünməyə bilər. Lakin aqrar iqtisadiyyatda bu göstərici tamamilə fərqli məna daşıyır. Çünki kənd təsərrüfatı hava şəraiti, su təminatı, mövsümi risklər və dünya bazarındakı qiymət dəyişiklikləri kimi çoxsaylı xarici amillərdən asılı olan sahədir. Belə şəraitdə sabit artım tempinin qorunması özü-özlüyündə idarəetmənin və dövlət dəstəyinin effektivliyini göstərən mühüm göstəricidir.

Diqqətçəkən digər məqam isə aqrar inkişafın artıq yalnız istehsal həcmi ilə ölçülməməsidir. Müasir iqtisadi yanaşmaya görə, kənd təsərrüfatının uğuru məhsulun tonla ifadə olunan miqdarı ilə deyil, həmin məhsulun bazar dəyəri, emal səviyyəsi, ixrac potensialı və istehsal səmərəliliyi ilə qiymətləndirilir. Azərbaycanın son illərdə həyata keçirdiyi islahatlar da məhz bu yanaşmaya əsaslanır. Bu dəyişikliklərin mərkəzində subsidiya siyasətinin yeni məntiqi dayanır. Əvvəlki mərhələlərdə subsidiya əsasən istehsal xərclərinin azaldılmasına xidmət edirdisə, indi dövlət dəstəyi daha çox məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqi, sertifikatlaşdırılmış toxumdan istifadə, damazlıq heyvandarlığın inkişafı və innovativ təsərrüfat modellərinin genişləndirilməsi ilə əlaqələndirilir. Başqa sözlə, dövlət yalnız maliyyə dəstəyi vermir, eyni zamanda fermerləri daha səmərəli istehsala istiqamətləndirən iqtisadi motivasiya sistemi formalaşdırır.

Bu baxımdan Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin imkanlarının genişləndirilməsi xüsusi diqqət çəkir. Rəqəmsal platformalar vasitəsilə subsidiya müraciətlərinin qəbulu, torpaq sahələrinin uçotu, əkinlərin monitorinqi və dövlət xidmətlərinin elektronlaşdırılması fermerlə dövlət arasında əlaqələri daha şəffaf və operativ edir. Bu isə həm inzibati xərclərin azalmasına, həm də resurslardan daha səmərəli istifadəyə şərait yaradır.

Dünya təcrübəsi göstərir ki, gələcəyin kənd təsərrüfatı peyk təsvirləri, pilotsuz uçuş aparatları, "ağıllı suvarma" sistemləri və süni intellekt əsaslı qərarvermə mexanizmləri üzərində qurulacaq. Azərbaycanın son illərdə aqroparkların inkişafına, rəqəmsal monitorinq sistemlərinə və innovativ texnologiyaların tətbiqinə verdiyi üstünlük də məhz bu qlobal transformasiyanın tərkib hissəsi kimi qiymətləndirilməlidir. Artıq rəqabət yalnız torpaq və əmək resursları arasında deyil, texnologiyaların tətbiq sürəti və məlumatların effektiv idarə olunması səviyyəsində formalaşır.

Bununla yanaşı, qarşıda həllini gözləyən məsələlər də kifayət qədərdir. İqlim dəyişiklikləri nəticəsində yağıntı rejiminin dəyişməsi, su ehtiyatlarının azalması və quraqlıq risklərinin artması kənd təsərrüfatının inkişafına təsir edən əsas amillərdən biridir. Xüsusilə suvarılan əkinçilik üstünlük təşkil edən bölgələrdə su resurslarının səmərəli idarə olunması artıq iqtisadi deyil, strateji məsələ kimi qiymətləndirilir. Bu baxımdan yeni dövlət proqramında su infrastrukturunun təkmilləşdirilməsi, müasir suvarma texnologiyalarının tətbiqi və su itkilərinin azaldılması üzrə nəzərdə tutulan tədbirlər uzunmüddətli dayanıqlılıq baxımından mühüm əhəmiyyət daşıyır.

Digər mühüm istiqamət aqrar məhsulların emal sənayesidir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatında yüksək gəlirlilik xammal satışından deyil, emal olunmuş məhsulların istehsalından formalaşır. Məhz buna görə də Azərbaycanın yeni aqrar siyasətində istehsal ilə emal müəssisələri arasında inteqrasiyanın gücləndirilməsi, soyuducu və logistika infrastrukturunun genişləndirilməsi, ixrac standartlarına uyğun məhsul istehsalının təşviqi prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bu yanaşma fermer gəlirlərinin artmasına, regionlarda yeni iş yerlərinin yaradılmasına və qeyri-neft ixracının genişlənməsinə xidmət edir.

Əslində, son altı ayın nəticələrinə yalnız statistik hesabat kimi baxmaq düzgün olmazdı. Bu dövrdə qəbul olunan qərarlar göstərir ki, Azərbaycan kənd təsərrüfatında növbəti inkişaf mərhələsinə keçid üçün institusional baza formalaşdırır. Artıq aqrar siyasətin əsas məqsədi yalnız məhsul istehsalını artırmaq deyil, daha rəqabətqabiliyyətli, innovativ, ixracyönümlü və iqlim dəyişikliklərinə davamlı kənd təsərrüfatı sistemini qurmaqdır. Bunun üçün isə qarşıdakı illərdə üç əsas istiqamət xüsusi əhəmiyyət daşıyacaq.

Birincisi, elmi tədqiqatların nəticələrinin istehsalata daha sürətli transferi təmin edilməlidir.

İkincisi, fermerlərin rəqəmsal bacarıqları və müasir texnologiyalara çıxışı genişləndirilməlidir.

Üçüncüsü isə, aqrar məhsulların beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artıracaq keyfiyyət standartları və sertifikatlaşdırma sistemi daha da təkmilləşdirilməlidir.

Nəticə etibarilə 2026-cı ilin ilk altı ayı göstərdi ki, Azərbaycanın aqrar sektoru yeni inkişaf mərhələsinə daxil olur. Bu mərhələnin əsas fərqi istehsalın həcminin artmasından daha çox onun keyfiyyətinin yüksəldilməsi, resurslardan səmərəli istifadə, rəqəmsal texnologiyaların geniş tətbiqi və yüksək əlavə dəyər yaradan aqrobiznes modelinin formalaşdırılması ilə xarakterizə olunur. Qarşıdakı illərdə qəbul edilmiş qərarların ardıcıl və səmərəli icrası təmin olunduqca kənd təsərrüfatı təkcə ölkənin ərzaq təhlükəsizliyinin deyil, həm də qeyri-neft iqtisadiyyatının dayanıqlı inkişafının əsas dayaqlarından birinə çevriləcək. Bu, Azərbaycanın iqtisadi şaxələndirmə strategiyasının praktik nəticələrini ən aydın göstərən sahələrdən biri olacaq.

*Yaşar MƏMMƏDOV,*
*Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru*

## Qərbi Azərbaycanın maddi və mənəvi irsi

# Tarixin səssiz şahidləri və kimlik mübarizəsi

Qərbi Azərbaycan mövzusu son illərdə yalnız siyasi və tarixi diskursun deyil, eyni zamanda mədəni və elmi müzakirələrin də mərkəzində dayanır. Bu anlayış təkcə müəyyən bir coğrafi ərazini ifadə etmir. O, əsrlər boyu formalaşmış zəngin maddi və mənəvi irsin, kollektiv yaddaşın və milli kimliyin simvoluna çevrilmişdir. Bu baxımdan Qərbi Azərbaycan fenomeninə yanaşma yalnız tarix prizmasından deyil, həm də mədəni irs, sosial yaddaş və identiklik kontekstində aparılmalıdır.



Tarix boyu bu ərazilər müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qarşılıqlı təsir məkanı olmuş, nəticədə çoxqatlı və rəngarəng mədəni mühit formalaşmışdır. Türk-müsəlman mədəniyyətinin bu bölgədə qoyduğu izlər memarlıq abidələrindən tutmuş şifahi xalq yaradıcılığına qədər regionun zəngin irs potensialını nümayiş etdirir. Bu irs yalnız keçmişin yadigarı kimi deyil, həm də bu gün mövcud olan milli kimliyin formalaşmasında mühüm rol oynayan canlı bir sistem kimi çıxış edir.

Lakin XX əsrdə baş verən mürəkkəb ictimai-siyasi proseslər, xüsusilə deportasiyalar və məcburi köçlər nəticəsində bu bölgənin demoqrafik və mədəni mənzərəsi köklü şəkildə dəyişmişdir. Bu dəyişikliklər təkcə əhali strukturuna deyil, həm də mədəni irsin davamlılığına ciddi təsir göstərmişdir. Maddi abidələrin dağıdılması, mənəvi dəyərlərin zəifləməsi və tarixi yaddaşın parçalanması bu irsin qorunması məsələsini daha da aktuallaşdırmışdır. Müasir dövrdə qloballaşma və mədəni homogenləşmə prosesləri də bu sahədə əlavə çağırışlar yaradır. Bir tərəfdən, texnoloji inkişaf və informasiya axını mədəni irsin tanıdılması üçün yeni imkanlar açsa da, digər tərəfdən, lokal mədəni xüsusiyyətlərin itməsi riskini artırır. Bu baxımdan Qərbi Azərbaycanın maddi və mənəvi irsinin öyrənilməsi, sənədləşdirilməsi və qorunması yalnız akademik maraq deyil, həm də strateji zərurət kimi çıxış edir.

### Daşlara həkk olunan tarix

Qərbi Azərbaycanın maddi irsi bu ərazilərdə əsrlər boyu yaşamış azəri türklərinin həyat tərzini, estetik dünyagörüşünü və dini-mədəni dəyərlərini əks etdirən çoxşaxəli bir xəzinədir. Bu irs yalnız memarlıq abidələri ilə məhdudlaşmır, o, həm də yaşayış məskənləri, təsərrüfat qurğuları, yol infrastrukturu, qəbiristanlıqlar, kitabələr və sənətkarlıq nümunələri kimi müxtəlif komponentləri özündə birləşdirir. Hər bir daş, hər bir kitabə və hər bir memarlıq elementi bu torpaqlarda mövcud olmuş həyatın canlı izlərini daşıyır. Memarlıq baxımından Qərbi Azərbaycan ərazisi özünəməxsus üslubi xüsusiyyətləri ilə seçilir. Burada inşa edilən məscidlər, mədrəsələr, karvansaralar və hamamlar Şərq memarlığının klassik elementlərini yerli tikinti ənənələri ilə sintez edərək unikal formalar yaratmışdır.

İrəvan şəhərində mövcud olmuş Göy məscid bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Onun memarlıq kompozisiyası, kaşı bəzəkləri və plan quruluşu regionun yüksək estetik zövqünü və dini-mədəni həyatını əks etdirən nadir nümunələrdən biri kimi qiymətləndirilir. Bununla yanaşı, kənd və şəhər tipli yaşayış məskənləri də maddi irsin mühüm tərkib hissəsidir. Ənənəvi evlərin planlaşdırılması, tikinti materialları (daş, ağac, gil), daxili həyət sistemi və təsərrüfat sahələrinin təşkili həmin dövrün sosial-iqtisadi münasibətlərini və iqlimə uyğunlaşma mexanizmlərini əks etdirir. Xüsusilə dağlıq ərazilərdə tikilmiş evlərdə müdafiə və funksionallıq amilləri ön plana çıxarılmışdı.

Qərbi Azərbaycanın maddi irsi içərisində qəbiristanlıqlar və qəbirlərin üzərindəki epiqrafik abidələr xüsusi yer tutur. Bu abidələr yalnız dəfn mədəniyyətini deyil, həm də dil, yazı, dini inanclar və sosial struktur haqqında zəngin məlumat verir. Qəbir daşları üzərindəki ərəb əlifbası ilə yazılmış kitabələr, ornamentlər və simvollar həmin dövrün estetik və mənəvi dünyasını əks etdirir. Bu baxımdan epiqrafik irs həm tarixçilər, həm də dilçilər üçün mühüm tədqiqat mənbəyidir. Eyni zamanda körpülər, yollar və karvan marşrutları regionun iqtisadi və ticarət həyatında mühüm rol oynamışdır. Bu infrastruktur obyektləri Qərbi Azərbaycanın yalnız mədəni deyil, həm də geoiqtisadi baxımdan strateji əhəmiyyətini göstərir.

Tarixi İpək Yolunun üzərində yerləşən bu ərazilər müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirinə şərait yaratmışdır. Lakin bu zəngin maddi irs müxtəlif tarixi proseslər nəticəsində ciddi zərər görmüşdür. Bir çox abidələr dağıdılmış, bəziləri isə məqsədli şəkildə dəyişdirilmiş və ya başqa mədəniyyətlərə aid kimi təqdim edilmişdir. Bu isə yalnız fiziki irsin deyil, həm də tarixi həqiqətlərin təhrif olunmasına gətirib çıxarır. Maddi irsin bu cür taleyi onun sənədləşdirilməsi, beynəlxalq səviyyədə tanıdılması və qorunması məsələsini daha da aktuallaşdırır. Nəticə etibarilə Qərbi Azərbaycanın maddi irsi daşlara həkk olunmuş tarix olmaqla yanaşı, həm də milli yaddaşın maddiləşmiş formasıdır. Bu irsin öyrənilməsi və qorunması yalnız elmi məsələ deyil, həm də mədəni irsin gələcək nəsillərə ötürülməsi baxımından mənəvi borcdur.

### Yaşayan yaddaş və kimlik

Qərbi Azərbaycanın mənəvi irsi bu bölgədə formalaşmış kollektiv yaddaşın, mədəni identikliyin və sosial dəyərlər sisteminin ən canlı ifadəsidir. Maddi irsdən fərqli olaraq, mənəvi irs fiziki məkanla məhdudlaşmır, o, insanların yaddaşında, dilində, davranışında və gündəlik həyatında yaşayaraq nəsildən-nəslə ötürülür. Bu baxımdan mənəvi irs həm keçmişin qoruyucusu, həm də gələcəyin formalaşdırıcısı kimi çıxış edir. Qərbi Azərbaycanın mənəvi dünyasının əsas sütunlarından biri folklordur. Bu bölgədə formalaşmış nağıllar, dastanlar, bayatılar və atalar sözləri xalqın dünyagörüşünü, həyat fəlsəfəsini və tarixi təcrübəsini əks etdirir. Xüsusilə qəhrəmanlıq və sevgi motivləri ilə zəngin olan dastan yaradıcılığı xalqın keçdiyi çətin tarixi mərhələlərin bədii inikasını təqdim edir. Bu əsərlər yalnız ədəbi nümunə deyil, həm də milli ruhun və müqavimət iradəsinin ifadəsidir.

Aşıq sənəti Qərbi Azərbaycanın mənəvi irsində xüsusi yer tutur. Göyçə mahalı tarixən aşıq mühitinin ən güclü mərkəzlərindən biri kimi tanınmış, burada yetişən sənətkarlar təkcə musiqiçi deyil, həm də söz ustası, tarix daşıyıcısı və ictimai fikir formalaşdırıcısı olmuşdur. Onların ifa etdiyi qoşmalar, gəraylılar və dastanlar xalqın hisslərini, dərdini, sevincini və ümidlərini əks etdirərək kollektiv yaddaşın qorunmasına xidmət etmişdir. Dil və şifahi ənənə də mənəvi irsin mühüm komponentlərindəndir. Qərbi Azərbaycana məxsus dialekt və şivələr, özünəməxsus ifadə tərzi və leksik xüsusiyyətlər bu bölgənin mədəni müxtəlifliyini və zənginliyini göstərir. Adət-ənənələr, mərasimlər və dini-mənəvi dəyərlər də bu irsin ayrılmaz hissəsidir. Toy, yas, Novruz kimi mərasimlər yalnız sosial hadisə deyil, həm də mədəni kodların ötürülməsi mexanizmidir. Bu mərasimlərdə istifadə olunan simvollar, musiqi, geyim və ritual elementləri xalqın tarixini və dünyagörüşünü yaşadır.

Xüsusilə ailə institutuna verilən önəm, böyüklərə hörmət, qonaqpərvərlik kimi dəyərlər Qərbi Azərbaycan mənəvi mühitinin əsas xüsusiyyətlərindəndir. Bundan əlavə, Qərbi Azərbaycan mənşəli ziyalıların ədəbiyyat, elm və ictimai fikir sahəsində fəaliyyəti də mənəvi irsin formalaşmasında mühüm rol oynamışdır. Onların əsərlərində doğma yurd həsrəti, tarixi yaddaş və milli kimlik məsələləri əsas mövzulardan biri kimi çıxış edir. Bu yaradıcılıq nümunələri həm fərdi hisslərin ifadəsi, həm də kollektiv yaddaşın qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

Mənəvi irsin ən mühüm xüsusiyyətlərindən biri onun davamlılığıdır. Fiziki məkan dəyişsə belə, bu irs insanların yaddaşında, ailə ənənələrində və mədəni fəaliyyətlərində yaşamaqda davam edir. Lakin qloballaşma, assimilyasiya və mədəni homogenləşmə kimi proseslər bu irs üçün müəyyən risklər yaradır. Buna görə də mənəvi irsin sistemli şəkildə toplanması, sənədləşdirilməsi və təbliği mühüm vəzifə kimi qarşıda durur. Nəticə etibarilə Qərbi Azərbaycanın mənəvi irsi yaşayan yaddaşdır. Bu irsin qorunması milli kimliyin, tarixi şüurun və mədəni müxtəlifliyin yaşadılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tarixi proseslər, münaqişələr və məcburi köç nəticəsində bu irsin böyük hissəsi ya fiziki olaraq məhv edilmiş, ya da öz ilkin funksiyasını və kimliyini itirmişdir. Bu səbəbdən irsin qorunması təkcə konservasiya məsələsi deyil, həm də tarixi ədalətin və mədəni hüquqların bərpası kontekstində qiymətləndirilməlidir. Tarixi abidələrin bərpa adı altında onların orijinal xüsusiyyətlərinin silinməsi, kitabələrin dəyişdirilməsi və ya tamamilə yox edilməsi bu irsin autentikliyinə ciddi zərbə vurur. Bu proses yalnız fiziki obyektlərin yox olması ilə nəticələnmir, həm də həmin abidələrin daşıdığı tarixi məlumatın itirilməsinə səbəb olur. Digər tərəfdən, bəzi hallarda bu abidələrin mənşəyinin saxtalaşdırılması və başqa mədəniyyətlərə aid kimi təqdim olunması mədəni irsin siyasiləşdirilməsi problemini gündəmə gətirir.

Məcburi köç və urbanizasiya nəticəsində ənənəvi həyat tərzi dəyişir, folklor mühiti zəifləyir və dil xüsusiyyətləri assimilyasiya riski ilə üz-üzə qalır. Xüsusilə gənc nəslin qloballaşmanın təsiri altında milli-mədəni dəyərlərdən uzaqlaşması bu irsin davamlılığı üçün ciddi təhlükə yaradır. Bu çağırışlara qarşı effektiv mübarizə aparmaq üçün kompleks və sistemli yanaşma tələb olunur. İlk növbədə maddi irsin sənədləşdirilməsi və rəqəmsallaşdırılması mühüm addım kimi çıxış edir. Arxiv materiallarının toplanması, foto və video qeydlərin yaradılması, xəritələşdirmə layihələrinin həyata keçirilməsi itirilmək təhlükəsi olan məlumatların qorunmasına imkan verir. Bu baxımdan müasir texnologiyaların tətbiqi xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda beynəlxalq hüquqi mexanizmlərin işə salınması və mədəni irsin qorunması ilə məşğul olan qurumların diqqətinin bu məsələyə yönəldilməsi vacibdir. UNESCO kimi beynəlxalq təşkilatların platformaları vasitəsilə bu irsin tanıdılması, mühafizəsi və hüquqi müdafiəsi istiqamətində addımlar atıla bilər. Bu, həm də problemin qlobal səviyyədə tanınmasına və beynəlxalq ictimaiyyətin dəstəyinin qazanılmasına xidmət edir. Perspektivlər baxımından isə maarifləndirmə və təhsil xüsusi yer tutur. Məktəblərdə və ali təhsil müəssisələrində Qərbi Azərbaycanın tarixi və mədəni irsi ilə bağlı mövzuların tədrisi, elmi tədqiqatların təşviqi və gənclərin bu sahəyə cəlb olunması uzunmüddətli qoruma strategiyasının əsasını təşkil edir. Bundan əlavə, mədəni tədbirlər, sərgilər, konfranslar və media layihələri vasitəsilə bu irsin geniş ictimaiyyətə çatdırılması onun yaşadılmasına töhfə verir. Diaspor fəaliyyətləri də bu prosesdə mühüm rol oynaya bilər.

Nəticə etibarilə Qərbi Azərbaycanın maddi və mənəvi irsinə sahib çıxmaq yalnız bir tarixi borc deyil, həm də gələcək nəsillər qarşısında məsuliyyətdir. Bu irsin yaşadılması milli kimliyin qorunması, tarixi ədalətin bərpası və mədəni davamlılığın təmin olunması baxımından vacibdir. Tarixə sahib çıxan cəmiyyətlər gələcəyini daha möhkəm və inamla qurur.

*Gülgün QULİYEVA,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 6 iyul (Bazar) tarixli 217-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 7 şəvvalül-mükərrəm sənə 1337.
6 təmmuz 1919 sənə

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 35 rublə,
2 aylığı 60 rublə, 3 aylığı 90 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə,
2 aylığı 70 rublə, 3 aylığı 100 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 5 rublə,
axırıncı səhifədə sətri 4 rublə,
itən şeylər və yer axtaranlar üçün 3 rublə.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Məşhədi Mirzağa Haşımov kamali-hüzn və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz sevgili yeznəsi Məhəmmədrza bəy Bakıxanovun həmin iyul ayının 4-də vəfat etdiyini öz qövm-əqrəba və dost-aşnalarına məlum edir. Mərasimi-dəfn bu gün iyul ayının 6-da səhər saat 9-da Spasski küçə 123 nömrəli evdən (4-cü polis idarəsi ilə qarşı) Təzəpir məscidinə aparılacaqdır.

*5403*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Əliəkbər Əliyev kamali-hüzn və təhəssürlə öz sevgili dayısı Məhəmmədrza bəy Bakıxanovun həmin iyul ayının 4-də vəfat etdiyini öz qövm-əqrəba və dost-aşnalarına məlum edir. Mərasimi-dəfn bu gün iyul ayının 6-da səhər saat 9-da Spasski küçə 123 nömrəli evdən (4-cü polis idarəsi ilə qarşı) Təzəpir məscidinə aparılacaqdır.

*5402*

**BAKI BƏHRİ-XƏZƏR İSTEHLAK CƏMİYYƏTİ “KOOPERATSİYA” İDARƏSİ**

Bununla elan edir ki, təmmuz ayının 6-da səhər saat 10-da İttifaqın binasında (Bolşoy Morskoy və Kamenisti küçələrin küncündə nömrə 22) Bakı dairəsi kooperativ nümayəndələri ümumi iclası vaqe olacaqdır.

Müzakirə ediləcək məsələlər:

1) Kontrolnı komissiya tərəfindən verilmiş şəhadətnamələr barəsindəki məsələnin müzakirəsi;

2) Tiflis Kooperativ Qurultayı barəsində məruzə.

3) Azərbaycan Kooperativ Qurultayı barəsində məruzə.

4) Axırıncı nümayəndələr iclasında seçilmiş komissiyanın məruzəsi məsələlərinin müzakirəsi.

Təyin olunmuş vaxta qədər kvorum gəlməzsə, bir saatdan sonra hər nə qədər üzv gələrsə iclas qanuni hesab olunur.

*10272*

**İNGİLİS PARÇALARI**

Və həmçinin ipək və markizet külli miqdarda satılır. Kostyum üçün parçalar. Əhmədov və kompaniyasının mağazasında, Merkuryevski və Milyutinski küçələrin küncündə, Adamovun evində. Telefon nömrə 24-34.

*5405*

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**DRAMA**

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Müdiriyyəti
Düşənbə [bazar ertəsi] günü şəvvalül-mükərrəm ayının 8-də
1337-ci sənəsi (iyul ayının 7-də 1919-cu ildə)
bu mövsümdə ikinci dəfə olaraq mütəntən [təntənəli] bir
surətdə mövqeyi-tamaşaya qoyulacaqdır
“Ədirnə fəthi”
Bu tamaşada müharibə zamanında Azərbaycan hərbi musiqi orkestri iştirakı ilə bərabər, əsgərlər vəzifəsini “Yardım alayı” əfradı [əsgərləri]
ifa edəcəkdir.
Biletlər teatrın kassasında
satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8 tamamda.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyəti Maarif naziri əmrnaməsi**

3 təmmuz 1919-cu ildə, sayı 205

Bu gündən etibarən Hökumət türkcə “Azərbaycan” qəzetəsi müdiri Üzeyir bəy Hacıbəyova iki aylıq məzuniyyət verilir.

Əslinə qol qoydu Maarif naziri:

*Qaplanov*

*Əslinə mütabiqdir.*

*Kargüzar müavini: Kondratyev*

## TELEQRAF XƏBƏRLƏRİ

Vladiqafqazdan alınmış olan son xəbərlərə nəzərən, orada Kursk, Sevastopol və Yekaterinoslav şəhərlərinin işğal edildiyi xəbəri alınmışdır. İyun ayının 30-da Vladiqafqazda ordu ştabı Könüllülər tərəfindən Tsaritsın işğal edildiyi xəbər alınmışdır. Əvvəl şəhərin cənub hissəsi işğal edilmişdir. Sonra şəhərdə dəhşətli müharibə başlanıb bir neçə saat davam eyləmişdir. Bolşeviklərin tələfatı çoxdur. Külli qənimət alınmışdır. Xarkov işğal edildiyi zaman 47 nəfər komissarlar tövqif [həbs] edilmişdir. Bolşeviklər Xarkovu tərk edərkən bir çox məşhur şəxsləri rəhn [girov] sifəti ilə aparmışlardır.

**Soçi cəbhəsində**

“Saxalxo sakme” qəzetəsi xəbər verir:

Mövsuq [etibarlı] mənbələrdən xəbər verilir ki, general Denikin Soçiyə varid olmuşdur [gəlmişdir]. Gürcü və Dabravol kəşfçiləri arasında müxtəsər müsadimə [toqquşma] vaqe olmuşdur. Hələlik Denikinin yürüşə keçəcəyi məlum deyildir.

Poti - Günorta zamanı Poti iskələsinə bir dənə italyan minanosu daxil olmuşdur.

- Tersk süvari dəstələri Hacı-Tərxan səmtində Yaşkul dairəsində hücuma keçib 90 verst şərqə doğru yürümüşlərdir. Bunlar ricət edən [geri çəkilən] Qırmızı qoşun nəfəratını [əsgərlərini] təqib edirlər.

- Parisdən teleqrafla xəbər verilir ki, Leninin nüfuzu tamamilə düşmüşdür. Könüllülər tərəfindən Petroqradın işğalına qarşı heç bir iş görəmməyəcəkdir. 10-cu bolşevik alayı bütün cəbhədə məğlub olmuşdur. Bu alay 10 min əsirlə 28 pulemyot vermişdir.

- Oneqa sahilində müvəffəqiyyətli surətdə ingilis qoşunu çıxmışdır. Bunlar bolşeviklərə qarşı hərb edirlər.

**Kronştadt**

Kronştadtı bolşeviklər tərk eyləmişlərdir və zənn edilir ki, Könüllülər tərəfindən ora işğal edilmişdir. Hələ təhqiq edilməmiş xəbərlərə görə, Petroqrad general Yudeniç tərəfindən işğal edilmişdir. Ural kazakları Perm-Kazan dəmiryolu boyu ilə Kazan üzərinə yürüş edirlər.

Helsinqfors [Helsinki] - Omskda Kadet firqəsinin qurultayı vaqe olmuşdur. Dövlət Dumasının sabiq üzvlərindən çoxusu iclasda iştirak etmişlərdir. İctimanın [yığıncağın] sədri öz nitqində bəyan eyləmişdir ki, şimdi milli vəzifə odur ki, Rusiyanı bir sinfin ixtiyarına verən ünsürlər məhv edilsin. Bolşevizm əsası məhv edilməlidir. Ancaq bu vəzifəni ifadan sonra Rusiyanı möhkəm əsaslar üzərinə təşkil etmək olar. Hər kəs Rusiyanın ehya edilməsini [dirilməsini] arzu edirsə, Kolçaka qoşulub bolşevizmlə mübarizə etməlidir. Bolşevizm tərk edildikdən sonra Rusiya hökuməti təsis və hürriyyət əsasını intişar [yaymaq] və Kadet firqəsinin məramnaməsi üzərinə və Avropanın müavinəti ilə Rusiyanı yenidən təşkil etmək mümkün olar.

**Aland cəzirələri**

İsveç notasında deyilir ki, Aland cəzirələrinin [adalarının] əhalisi arzu etmişdir ki, İsveçyaya mülhəq olsunlar [birləşsinlər]. Ona görə də İsveç hökuməti tələb edir ki, Aland cəzirələri əhalisinə muxtariyyət verilsin. Lakin məsələni sülh təriqi [yolu] ilə həll etmək mümkün olmadığından, İsveç hökuməti təklif edir ki, bu məsələnin həlli Sülh Konfransına vagüzar edilsin [tapşırılsın].

**Bolşevik məlumatı**

Peterburq - Bequnitsı, Volosova, Koporye dairəsində biz 20 kənd almışıq. Vidlitsada toplardan başqa 27 pulemyot qənimət alınmışdır. Volosova tərəfimizdən işğal edilmişdir. Bequnitsı-Koporye şosesini kəsmişik. Olonets uçastokunda böyük qələbə çalmışıq. Biz 40 verst irəliləmişik. Olonets uçastoku finlərdən təmizlənmişdir. Bir çox ləvazimi-hərbiyyə [hərbi ləvazimat] qənimət alınmışdır. Düşmənlər həyəcan içində ricət edirlər [geri çəkilirlər]. Bizim irəliyə yürüşümüz davam edir.

- N. ordusunun işğalı - Bu gecə N. ordusu qoşunu tərəfindən Perm şəhəri işğal olunmuşdur. Şura qoşunları tərəfindən Kunqur işğal edilmişdir.

## SÜLH ƏTRAFINDA

Versal - Almanlar saat 3:12 dəqiqədə sülh müahidənaməsini [sazişini] imza etmişlərdir. Almanlardan sonra Lloyd Corc və İngiltərə nümayəndələri imzalamışlardır. İmza edənlərdən Balfur, Bonar Lou, Milner də vardır. Sonra Fransa, İtaliya və Yaponiya nümayəndələri imza etmişlərdir. Klemanso, Vilson və Lloyd Corc şənlik toplarının sədası və gurultulu alqış altında saraydan çıxmışlardır.

- Berlində müntəşir [nəşr olunan] “For-verts” qəzetəsi bəyan edir ki, sülh təcavüzkaranə bir təriqlə [yolla] əqd edilmişdir. Ona görə də onun heç bir əhəmiyyəti yoxdur. Almanlar heç vaxt özlərinə edilən təcavüz və həqarəti unutmayacaqlardır. Və sülh o vaxta qədər davam edəcəkdir ki, onu təlqin edən təcavüzkar qüvvət də davam edə.

## QƏZETƏLƏRDƏN

**General Natiyev qətlinin təfsilatı**

İyun ayının 18-də Batumda Dabravol ordusu generalı [Aleksandr] Natiyev qətl edilmişdir. General burada yerlilərdən Denikinə müavinət üçün dəstələr düzəldirmiş. Axşam saat 8 yarımda general öz yavəri və arvadı ilə dərya kənarında olan bulvarın arxa xiyabanında gəzərkən səbilər [uşaqlar] meydançası yaxınlığında naməlum bir nəfər qəflətən sıçrayıb mauzerlə generalı atəşə tutar. 11 ədəd atılan güllədən 6-sı generala, 3-ü də yavərinə dəymişdir. Güllələr generalın ürəyinə, üzünə və döşünə dəymişdir. 10 güllə atandan sonra hərif tapançanın darağını dəyişmək istəmişdir. Fəqət tapançanı atıb qaçmış. Bir italyan qəflətən güllə ilə əlindən yaralanmışdır. Dərhal məhəlli-hadisəyə [hadisə yerinə] afiserlər və camaat cəmləşib hər ikisini də meyit halında görmüşlərdir. Nə qədər qatili axtarmışlarsa da, tapmaq mümkün olmamışdır.

İyunun 29-na Dabravollar nəfinə [xeyrinə] müəyyən edilən seyri-ümumi [ümumi yürüş] təbdil edilmişdir [dəyişdirilmişdir].

**Yaşıl ordu**

Dabravol ordusu dairəsində təşkil edilən Yaşıl ordu Armavir-Tuapse dəmiryolunda Kuqutı mövqifinə [stansiyasına] hücum etmişlərdir. Teleqraf xətti xarab edilmişdir. Yaşıl ordu dabravollar əleyhinə hərəkət edir.

**Şimali Qafqaziya müsəlman nümayəndələri**

İyunun 30-da Oruc bayramı münasibətilə məsciddə mərasimi-eyd [bayram mərasimi] icra edilmişdir. Namazdan sonra Şimali Qafqaziya müsəlmanları kabardin, balkar, inquş və çeçenlər tərəfindən nümayəndələr nitq söyləmişlərdir. Nümayəndələr öz nitqlərində Şimali Qafqaziya müsəlmanlarının inqilab zamanı müddətində keçirdikləri bədbəxtliklərdən, ələlxüsus Dabravol ordusu gələndən nə cür ağır üsul keçirməkdə olduqlarından bəhs etmişlərdir. Kabardin nümayəndəsi öz nitqində kəndlərin dağılmasını və bolşevizmdə müttəhim edilən onlarca adamların asılmasını nəql etdikdə bir çox adamlar ağlamaqdan özlərini saxlaya bilməmişlərdir. Nümayəndələrdən sonra məhəlli [yerli] müsəlmanlardan olan camaat xadimləri nitqlər söyləmişlərdir.

**Almaniyada yeni Kabinə**

Rostovda çıxan “Jizn” qəzetəsi xəbər verir ki, bu yaxınlarda təşkil olunan Bauer Kabinəsi istefa vermişdir. Sağ sosialdemokratlardan David, Amerikada olan sabiq Almaniya səfiri Bernstrofun iştirakı ilə təzə kabinə təşəkkül etmişdir. Yekaterinodarda çıxan “V. F.” qəzetəsi də bu xəbəri yazıb, hətta təzə nazirlərin adlarını da dərc etmişdir.

Cəmiyyəti-Əqvamın birinci iclası

İstanbuldan verilən xəbərlərə görə, Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] İcraiyyə Şurasının birinci iclası, yəqin ki, payızın axır ayında Vaşinqtonda Vilsonun sədarəti ilə Ağ Sarayda vaqe olacaqdır. Təntənəli rəsmi-güşaddan [açılış mərasimindən] sonra Cəmiyyəti-Əqvam daimi olaraq Cenev[r]əyə köçürüləcəkdir.

**İstanbulda**

“Tayms” qəzetəsinin İstanbul müxbiri İstanbul əhvalını təsvir edib müxtəlif hökumətlərin qeyri-müəyyən vəkalətə malik olan hərbi və mülki bir çox ali komissarlarının vücudu nəticəsi olaraq davam edən qarğaşalıq halından şikayət edir. Müxbir fransız və ingilis baş komandanlarının münasibatını xeyli qarışıq təsvir edir. Qarışıq siyasət baziçəsinə [oyununa] adət etmiş və Yevropa dövlətlərinin birini öz əlində digər dövlət əleyhinə alət edən Türkiyə məmurları müvəffəqiyyətli bir surətdə öz işlərində davam edirlər. Qəzetə Müttəfiqlərin hərəkətlərindən bəhslə deyir ki: İnkar etmək olmaz ki, müharibə bitdikdən sonra ayrı-ayrı millətlər arasında milli iştahalar və rəqabət təzələnmişdir. Xırda hökumətlərin keyfəmayəşaları [özbaşınalıqları] müəzzəm [böyük] dövlətlər arasında gizli surətdə inikas etmişdir. İngiltərədə, Fransada və İtaliyada öylə adamlar vardır ki, hər nə olursa olsun, öz məmləkətləri üçün İstanbulda birinci yer tutmağa çalışırlar. Hətta bunun nə üçün lazım olduğunu, buna vəkil edilib-edilməmələrini və sövqülceyş ehtiyacatı [stratejik ehtiyaclar] üçün müvafiq olub-olmadığını da fikirlərinə gətirməyirlər. Dörd il bundan əqdəm [qabaq] bu adamlar hamısı İstanbulun Rusiya ixtiyarına keçməsini istəyirdilər. Asiyaya olan nüfuz hələ gizlin qalmaqdadır. Amma hərbi sazişlər siyasi bir alət şəklini almışdır. Belə görünür ki, Fransaya və ya bizə Asiyayi-süğrada [Kiçik Asiyada, Anadoluda] nə lazım olduğunu heç kəs özünə təsəvvür etməyir. Yaxın Şərqin hər yerində Müttəfiq əsgərlərinin olduğunu lazım bilirlər. Lakin heç kəs bu əsgərləri tapmaq üçün çalışmır. Hər kəs o fikirdədir ki, müharibədən və qızdırmadan yorulmuş bu saldatları mümkün qədəri tezliklə kənar etsin. Bu saldatlardan bir çoxları Yaxın Şərqdə qırılmışlardır. Hamı hökumətlər çalışırlar ki, başqasının əsgərlərindən istifadə edib eyni zamanda öz xüsusi nüfuzlarını nəşr etsinlər [yaysınlar].

Məqalənin axırında deyilir ki: Gərəkdir bir əsas qoyulsun. O da budur ki, gərək ağırlığa tabı olmayan heç bir hökumət heç yerdə mandat almasın. Hərgah əsgər lazım isə gərək onları tapsınlar. O adamlar ki, əsgər tapırlar, onlara həsəd gözü ilə baxılmamalıdır.

Müxbir İstanbulun özündən bəhs edib deyir ki: Əhval xeyli ciddidir. İstanbulun halı gülünc dərəcədə qarışıq və eyni zamanda Müttəfiqləri gözdən salan və nifrət oyadan bir vəziyyətdədir. Bütün Yevropa və Şərq millətləri ilə əlaqədar olan bu şəhərdə heç bir qəti hökumət yoxdur.

**Mötəliflərin Kolçaka şürutu [Antanta dövlətlərinin Kolçaka şərtləri]**

“J[oxovrdi] dzayn” nam [adlı] erməni qəzetəsinin yazmağına görə, Dördlər Şurası tərəfindən Kolçaka verilən tələbatı Amerika nümayəndəsi Morris Lehistan [Polşa] təriqi [yolu] ilə müşarünileyhə [deyilən şəxsə] aparacaqdır. Mənəvi və maddi köməklərinin müqabilində Etilafiyyunlar [Antanta dövlətləri] admiral Kolçakdan neçə şey tələb edirlər. O cümlədən:

1. Kolçakın hökuməti Moskvanı alıb rahatlaşdıqdan sonra bilatəxir [dərhal] demokratik üsulu üzrə Məclisi-Müəssisan intixabatına [Təsisçilər Məclisi seçkisinə] şüru etməlidir [başlamalıdır]. Təzə intixabat əlan [indi] mümkün olmazsa, 1917 sənəsində intixab olunmuş Məclisi-Müəssisan dəvət edilməlidir.

2. Kolçak və tərəfdarları tərəfindən işğal olunmuş yerlərdə zemstvo [yerli özünüidarəetmə], bələdiyyə və qeyri idarələr təsis edilsin.

3. Öz rəftarı ilə Kolçak gərək büruzə verməsin ki, imtiyazlı sinifləri təcdid [bərpa] eyləmək fikrindədir. Ədyan [dini], siyasi və qeyri hürriyyətlər təmin edilməlidirlər.

4. Finlandiya və Lehistan istiqlaliyyətləri gərək etiraf edilib [tanınıb], hüdudlarının təyini Sülh Konfransına mühəvvəl edilsin [tapşırılsın].

5. Kolçak hökuməti ilə sabiq Rusiya hüdudunda təzə təşkil edilmiş hökumətlər arasında müzakirat bir nəticəbəxş olmazsa, müşkülatı Millətlər İttifaqı həll etməlidir. O vaxtadək Kolçak həman hökumətlərin muxtariyyətlərini müraat edib [gözləyib, onlara riayət edib], Etilafiyyunlarla onların arasında olan qabaqkı müahidələrini [sazişlərini] qəbul etməlidir.

6. Rusiya demokratik üsul ilə bərpa edildikdən sonra Millətlər İttifaqına daxil olur.

7. Rusiyanın bütün borcları xüsusunda Kolçak öz iltizamına əməl etməlidir.

**Avropanın böyük şəhərlərində**

“Jurnal-de-Jenev” Praqanın halını böylə təsvir edir:

Praqa əhalisi Çexistanın [Çexiyanın] ümumi mənzərəsinin dəyişməsindən artıq dərəcədə münfəil olurlar [təsirlənirlər]. Vaxtilə qayət səliqəli olan Praqa şəhəri şimdi qayət fəna haldadır. Birinci zəruri şeylərin olmadığından, əhali çox üsrət [çətinlik] keçirir. Alətəlbisə tapmaq mümkün deyildir. Uşaqlara böyük süfrələrdən köynək-tuman hazırlayırlar. Paltar hər hanki parçadan olursa, geyirlər. Papaq almamaqdan ötrü ipəkdən papaq hazırlayırlar. Uşaqlara çəkmə almaq mümkün olmadığından, ayaqlarına əsgi sarırlar. Corablar 40 krona satılsa da, heç bir şeyə dəyməz. Heç bir qiymətə mətbəx ləvazimatı tapılmayır.

Birinci məsələ yemək məsələsidir. İnsan bilməyir nə yesin. Polis həftədə üç gündən artıq yeyilməməsi tövsiyə edilsə də, amma həftədə üç gün də ət tapılmayır. Çörək tapmaq çox müşküldür.

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Yeni cümhuriyyət nümayəndələrinin Sülh Konfransına müraciəti**

Lion, 30 iyun

Sabiq Rusiya torpağında təşkil edilmiş olan yeni cümhuriyyət nümayəndələri Sülh Konfransının sədrinə zeyldəki [aşağıdakı] müxtirə [yazılı sənəd] ilə müraciət etmişlərdir:

*“Azərbaycan, Eston, Gürcüstan, Latış, Şimali Qafqaz, Belarus və Ukrayna cümhuriyyətlərinin nümayəndələri Müttəfiq dövlətlərlə admiral Kolçak arasında Omsk hökuməti himayəsi barəsində olan mükatibəni [yazışmanı] bilərək, öz hökumətləri namından bəyan edirlər ki, yuxarıda zikr edilən cümhuriyyətlər öz millətlərinin arzusu ilə təşkil edilib yaşayırlar. Bu cümhuriyyətlərin məşrutəsi [konstitusiyası] – qanuni-əsasları [əsas qanunları] bu yaxınlarda öz Məclisi-Müəssisanlarında tərtib veriləcək və sair dövlətlərlə də əlaqə başlanacaqdır. Heç bir rus hökumətinin bu cümhuriyyətlər haqqında olan qərarları bu azad cümhuriyyətlər üçün icbari olmayacaq. Bu cümhuriyyətlər rus hökumətinin qərarına itaət etməyəcəkdirlər.”*

**Gürcüstan və Versal**

Odessadan xəbər verirlər ki, Qafqaziyadan alınan məlumata görə, Gürcüstan əhalisi Versal Sülh Konfransının qətnaməsindən artıq dərəcədə narazıdırlar. Bunlar ehtiyat edir ki, axırda ingilislər Gürcüstanı Dabravollara yedirdəcəklər.

**Vilson**

Rəisi-cümhur Vilson şərəfinə Parisdə Yelisey sarayında böyük bir ziyafət verilmişdir. Puankare orada nitq söyləmişdir. Vilson Parisdən Brestə, oradan da Amerikaya əzimət eyləmişdir [getmişdir].

**İstanbulda**

İstanbuldan xəbər verilir ki, İstanbulun Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] verilməsi barəsində olan qətnamə Müttəfiqlərə qarşı əhali arasında həyəcan əmələ gətirmişdir. Müttəfiqlərin əmri üzərinə İstanbulu işğal edən yunan qoşunları ilə Türkiyə əhalisi arasında qanlı müharibələr vaqe olmuşdur.

**İngilis əmələləri arasında**

Gündən-günə ingilis əmələləri [fəhlələri] arasında inqilab hərəkatı artmaq üzrədir. Yalnız Londonda deyil, Londonun sair şəhərlərində polisin tətili gözlənir. Polis Həmkarlar İttifaqının təşkilini tələb edir. Törəmiş olan əhvalı ingilis hökuməti kəndisi xətrəli [təhlükəli] hesab edir.

**Almaniya donanması**

- Bu günlərdə almanlar tərəfindən paroxodlar qərq edilən Skapa-Flou və Kil kanalını təftiş üçün oraya bir komissiya ezam edilmişdir. Bunlar çox müşkülatla təftişdə bulunmuşlardır.

- Almaniya flotunun qərqindən hasil olan xəsarətin miqdarını təyin etmək üçün Beşlər Şurası bir komissiya təşkil eyləmişdir. Guya bunlar zərəri nə qədər təxmin edərlərsə, onu almanlar verməli imişlər.

**Yeni müharibə**

Novorossiysk - Amerikadan xəbər verilir ki, İstanbulda olan Amerikanın sabiq səfiri Morqentau inanır ki, 20 ildən sonra yenə təzə Avropa müharibəsi başlanacaqdır. Ona görə də Amerika indidən hazır olmalıdır.

**Vilhelmi-Sani [İkinci Vilhelm]**

İstanbul - Laheydən [Haaqadan] çəkilmiş və İstanbul qəzetələrində çap edilmiş olan teleqram xəbərlərinə nəzərən, həqiqi alman cəmiyyəti Almaniya Milli firqəsinə müraciətlə təvəqqe edir ki, imperator Vilhelmin Almaniyaya qaytarılmasına müsaidə [icazə] verilmək üçün Milli İclasa və Prussiya Seyminə müraciət etsinlər. Seym və Milli Şura Vilhelmi təhti-himayələrinə [himayələri altına] almalıdırlar.

**Ticarət münasibatı**

Odessa – İsveçrə ilə Almaniya arasında ticarəti əlaqə başlanmışdır. Bundan Müttəfiqlər narazıdırlar.

**Fransız saldatları**

Dobrucada üsyan edən bolşevik bolqarlara qarşı hərb açmaqdan fransız saldatları imtina etmişlərdir.

- Xəbər verilir ki, fransızlar Bessarabiyadan çıxmışlardır. Romaniya saldatları müharibə etməkdən vaz keçib rəislərinə itaət etməkdən imtina edirlər.

**Əfqanıstanda**

Kvettanın 150 verstliyində vaqe Tal şəhərini əfqan qoşunları işğal etmişlərdir.

**Fon Sanders**

İstanbul – Atina [Afina] qəzetələri yazırlar ki, [Otto Liman] fon Sanders paşa Malta cəzirəsindən [adasından] bu günlərdə İstanbula gətirilərək mühakimə ediləcəkdir.

Novorossiysk - Türkiyə ordusu tamamən tərksilah edilmişlərdir.

**Macarıstanda**

Kopenhagen - Peştədən nim-rəsmi [yarı-rəsmi] surətdə xəbər verilir ki, Macarıstan şura qoşunları Romaniya qoşunlarına qələbə çalmışlardır. Macarlılar çexləri bütün cəbhə boyu təqib edirlər.

**İnqilab hərəkatı**

Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, Hollandada inqilab hərəkətləri vardır.

**Şanxayda həyəcan**

Şanxayda Yaponiya əleyhinə həyəcan başlanmışdır. Bu işə Yaponiyanın müdaxilə eyləməsi gözlənir.

**Peştədə əks-inqilab**

Berndən xəbər verilir ki, Peştədə böyük nizamsızlıq olmuşdur. Vyana müxbiri bu hadisələr haqqında xəbər verir ki, bir neçə əks-inqilabçı zabitlər Tuna nəhrində olan zirehli gəmiləri ələ gətirmişlər. Başqa zabitlər isə kazarma binalarını işğal edib gəmilərə atəş açmışlardır. Bir çox adam nəhr sahilinə cəm olub şad səslərlə padşahı təbrik etmişlərdir. İyulun 26-da verilən teleqrafda əlavə edilir ki, əks-inqilab hərəkatı yatırılmışdır. Bela Kun Mərkəzi İcra Komitəsinə məruzədə bulunub demişdir ki, orta sinifi və əks-inqilabı amansız bir surətdə yatırmalıdır. Bizə bərabərlik deyil, füqərayi-kasibənin [proletariatın] diktaturası lazımdır.

**Albaniyada**

İyunun 30-da Liondan xəbər verirlər ki, Albaniya nümayəndələri böylə bir ərzi-hal [ərizə] ilə Vilsona müraciət etmişlərdir:

“Sülh müahidənaməsinin [sazişinin] imzası ilə albaniyalılar ümidvar olurlar ki, Albaniya millətinin mövcudiyyəti təmin ediləcəkdir və istiqlaliyyəti təsdiq edilməklə bərabər, ayrılan oblastları özünə qaytarılacaqdır. Ədalət asayişini elan edən Müttəfiq dövlət nümayəndələri sülh və asayişlə yaşamaq arzusunda olan millət üçün edam cəzası imza etməzlər.”

**Sülh imzasından sonra**

Nauendən xəbər verirlər ki, İngiltərə fəhlələrinin başçısı məşhur Henderson söhbət əsnasında izhar etmişdir ki, mən indi inanıram ki, sülh müahidənaməsi Almaniya tərəfindən imza edildikdən sonra təşkilatlı füqərayi-kasibə müahidənamənin fəhlə sinfinin mənafeyinə və mütarikə şəraitinə [atəşkəs şərtlərinə] zidd olan hissələrinə baxmağa başlar.

“D. H.” qəzetəsi yazır ki, heç kəs özünü aldada bilməz ki, sülh müahidənaməsi əqd edildiyi tərzdə vücuda gətirilə bilməsin. Digər bir qəzetə yazır ki, bütün Almaniya bilir ki, imza edilən sülh müahidənaməsi böylə qala bilməz. Almaniya qanlı mübarizə deyil, gələcəkdə ədalətin hökmfərma [hökmran] olması üçün ruhani mübarizədə davam edəcəkdir.

“B. T.” qəzetəsində Montenels yazır ki, Almaniya sədaqətli vasitələrlə düşmən millətləri inandırmalıdır ki, onun haqqında ədalətsizlik olmuşdur. Bununla da Almaniya sülh müahidəsinin təzədən baxılmasına müvəffəq olmalıdır. Qəzetə tələb edir ki, Almaniya və Avstriya müharibəyə bais olacaq hər bir sənədi elan etməlidir, tainki müharibənin bütün məsuliyyətini Almaniya öhdəsinə yıxmaq istəyənlərin yalanı məlum olsun.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən xüsusi bir komisyon göndərilmişdir ki, 44 cift [cüt] öküz alsın. O öküzlər qaçqınlara veriləcəkdir ki, öz ziraət və fəllahət [kənd təsərrüfatı] işlərinə davam edə bilsinlər. Bunlardan 14 cifti Şamaxı qəzasında yaşayan İrəvan qaçqınlarına, mabaqi [qalan] 30 cifti isə Şamaxı nahiyə müfəttişliyinə veriləcəkdir ki, füqəra əhali miyanında [arasında] təqsim etsin [paylasın].

- Yeni taxıl çıxmasından və nizam asayişindən dolayı Bakı qradonaçalstvasında yaşayanlara qaçqın payı verilməsi qət edilmişdir [kəsilmişdir]. Həman köylər əhalisinə 1918-ci sənədə xəsarətdidə olduqlarına [zərər çəkdiklərinə] görə qaçqınlara verilən miqdarda müavinət edilirdi. Bundan sonra Bakı qradonaçalstvası kəndlilərinə fəqət [ancaq] lazımlı vaxtda taxıl verilə biləcəkdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Qarabağdakı kəndi müvəkkili Behbudova xəbər vermişdir ki, Qaybalı köylülərinə müavinət etmək üçün Məclisi-Məbusan üzvü Şəfi bəy Rüstəmbəyova 50 min rublə buraxsın.

- Baş fabrika müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] xəbər vermişdir ki, Tağıyev fabrikası işlərini təhqiq üçün Mühəndis və Texniklər Cəmiyyəti və fabrika Fəhlə Komitəsindən ikişər nümayəndə, Ticarət və Sənaye Nəzarətindən isə bir nəfər nümayəndə dəvət edilmişdir.

- “Neftyanoe toplivo” nam cəmiyyət Məsai Nəzarətinə xəbər vermişdir ki, bütün mədən neft anbarları dolduğundan, neft çəkmək mümkün deyildir. Bi-naənileyh [ona görə], 48 nəfər fəhləni əzl etmək [işdən çıxarmaq] məcburiyyətində qalmışlardır. Cəmiyyət rica etmişdir ki, fəhlələrlə hesabı bitirmək qəsdi ilə Maliyyə Nəzarətindən məbləğ almaq təşəbbüsatı üçün bir vəsiqə verilməsi barəsində binagüzarlıqda bulunulsun [sərəncam verilsin].

- Məsai Nəzarətinin qərardadı mövci-bincə [qərardadına əsasən], Baş fabrika müfəttişi Gədəbəy zavodunun əhvalını tədqiq üçün oraya azim olmuşdur [yola düşmüşdür].

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri, Xatisov zavodunun bir şöbəsinin Azərbaycan dəmir yolları idarəsinə verilməsinə öz razılığını vermişdir. İşbu şöbədə lazımi makina hissələri qayırılacaqdır. Bu surətlə parovoz təmiri işləri xeyli yüngülləşəcəkdir.

## XARİCİ SİYASƏTİMİZ

- 3 -

**Elçilər göndərməlidir**

Beynəlmiləl münasibatda bulunmaq üçün dövlətlər bir-birinə elçilər (səfirlər) göndərirlər. Bu adət qədimdən var idi, Vestfal sülhündən sonra ümumiyyət qazandı. Elçi, onu göndərən məmləkətin bütün hakimiyyətini təmsil etdiyi üçün əhəmiyyəti çox böyükdür. Onun üçün elçinin hörmət və hüququ da böyükdür. Onu tutmaq, axtarmaq kimi həqarətamiz şeylər yasaqdır. Çünki elçiyə qarşı bəslənən hisslər, elçi təmsil etdiyi dövlətə qarşı sanılır. Elçi göndərmək məmləkətin istiqlaliyyətini göstərir. Doğrudur, nim-müstəqil [yarı-müstəqil] məmləkətlərin də elçi göndərməsi tarixdə görülmədədir. Məsələn, köhnə Bolqariya Türkiyədən asılı olduğu halda səfir göndərmək haqqına malik idi. Bugünkü İran, Çin və Siyam dövlətləri də elçi göndərirlər. Deməli, elçi göndərmək mədəni və qeyri-mədəni millətlər arasında da adətdir.

Avropa müharibəsindən sonra meydana çıxan yeni dövlətlər elçilər göndərməklə istiqlaliyyətə birinci addımlar atdılar. Məsələn, Ukrayna ilə Gürcüstan bu yolda çox ciddiyyət göstərdilər. Hətta balaca Krım da Almaniya istilasından özün qurtarmaq üçün İstanbula elçi göndərdi və alman qəsbkarlarını əmri-vaqe [fakt] qarşısında bulundurdu. Türklərlə dostluğu pozmağa cəsarət edə bilməyən almanlar qəsb nəşələrini pozdular.

Yeni vücuda gələn məmləkətlər elçi göndərməklə beynəlmiləl əlaqəyə girişirlər. Özlərinin müstəqil yaşamaq meyillərini və istedadlarını göstərirlər. Bu gün gürcü siyasi müməssilləri [nümayəndələri] hər bir yerdə var. Bunlar Gürcüstanın tam mənası ilə istiqlala müstəhəqq [layiq] olmalarını aləmə bildirirlər. Elçi hökumət yanına göndərilir. Elçidən başqa bir də şəhbəndər (konsul) göndərilir. Konsulun sayı bir məmləkətdə birdən artıq da ola bilər. Konsulun sayı ehtiyaca bağlıdır.

Məsələn, Ukraynada Azərbaycan təbəələrinin ticari və başqa ehtiyaclarını dəf etmək üçün üç konsul kifayət eylər: Kiyevdə, Odessada və Xarkovda. Elçi isə bir nəfər olmalıdır. Bir məmləkətdəki konsullar elçiyə tabedirlər və onun təlimatı ilə iş görürlər.

Azərbaycan hələ bir çox yerlərə elçi və konsul göndərməyib, halbuki ehtiyac çox-çox böyükdür. İndiki zamanda vətənlərindən ayrı düşmüş bir çox təbəələr var ki, konsul köməyinə möhtacdırlar. Yollar xarab, evdən pul gətirtmək mümkün deyil. Sonra himayə lazımdır ki, təbəə etinasızlıq zəhmətini çəkməsin. İndi başqa məmləkətlərdən viza alıb Qafqaza qayıtmaq üçün minlərcə manatlar və aylarca vaxt itirilir. Bu da xalqımızı incidir və ticarətimizi öldürür. Bu gün bir çox təbəələrimiz var ki, İstanbuldan çıxıb vətənlərinə qayıda bilmirlər. Əvvəla, viza ala bilməyirlər. İkinci, pulları yoxdur ki, gəmiyə 2-3 min manat versinlər. İstanbuldakı təbəələrimizin çoxları əcnəbi ölkələrində siyasi qarışıqlardan zərər görmüşlərdirlər.

Xaricdə olan təbəələrimizin çoxu dil bilmir və vətənə qayıtmaq üçün izni bilmir nerədən alsın. Onun üçün xırda məmurlar çəngalına [caynağına] düşüb böyük rüşvətlər vermək məcburiyyətində bulunur. Elçilər və konsullar göndərmək ilə həm vətənimizi tanıdarıq, həm də təbəələrimizin zəhmətlərini azaldarıq. Bundan başqa, bir ticarət məsələsi də var. Konsul təyin olmasa, ticarət genişlənməz, çünki bazarın övzasını [vəziyyətini] xəbər verən, milli ticarəti himayə edən konsul olur. Konsul olmasa, ticarət kor və başsız olar. Məsələn, İstanbul bazarından xəbərsiz bir çox azərbaycanlılar oraya neft götürdülər. Qrek tüccarı [yunan tacirləri] bunu eşidərək sindikat yapdılar və Qafqaz neftini almamağa qərar verdilər. Təbiidir ki, böyləliklə, malı qiymətdən saldılar.

***Yusif Vəzirov***

## KƏNDÇİLƏRİMİZİN YAYLAQ YOLLARI

Göyçə gölünün şərq tərəfində vaqe təpələrə, yaylaq dağlara Gəncə quberniyasından bir neçə ictimaların əhalisi hər il yaylağa getməyə məcburdurlar.

Bunlar Morul, Dəllər, Şəmkir və Eldar ictimalarıdır. Bunların şimal-qərbində Qazax və qeyri köçərilərin halını sonraya buraxmaqla, hələ bu dörd böyük ictimalarımızın müsəlman kəndçilərindən ibarət əhalisi ümumiyyətcə mal-qara sahibləridirlər.

Bunlar yazı mütləq mal-qaralarını mühafizə edə bilmək üçün yaylaqlara aparmalıdırlar. Gedəcək yerləri isə fövqdə [yuxarıda] zikr etdiyimiz Göyçə gölünün Gəncəyə tərəf olan şərq təpələridir. Şimdiyə qədər bu dağlar, təpələr və o tərəflərdə indi erməni cümhuriyyəti daxilində qalan yerli əhali həp müsəlmanların ixtiyarı, hökmü və əlaqəsi altında idi. Fəqət son zamanlar ora müsəlmanları erməni cümhuriyyəti qoşunlarının icbarı ilə dağıdılıb, bir çoxları kəndlərindən çıxarılıb, mühacir olmuşlardır. Qalanı isə az hissədən ibarətdir. Böyləliklə indi fövqdə məzkur [yuxarıda deyilən] ictimalarımızın Azərbaycan kəndçiləri həmişəki yaylaqlarına getdikləri zaman oralarda müsəlmanlar əvəzinə ermənilərlə yanyana durmağa məcbur olacaqlardır.

Hələ özlərinə təslim və tabe olan müsəlmanlarla ermənilərin nə kimi rəftar etdikləri məlum. Hal böylə ikən yanlarına gedə biləcək yaylaqçılarımızın halını düşünməli...

Bundan əlavə, məzkur ictimalarımızın hələ Azərbaycan daxilindən yaylaqlarına gedə biləcəkləri yolların keçidləri də indiyə qədər Azərbaycan daxilində silahlı qalmış erməni kəndlərinin təhti-təhəkkümündədir [hökmü altındadır].

Hazırda həmin köçərilərimizin yaylağa getməklərinə mane olan müsəlləh [silahlı] erməni kəndləri bunlardır: Çardaxlı, Bada. Bu kəndlər yol üstündədir ki, köçərilərimiz mütləq mal-qaraları ilə bu kəndlərin içindən gedən yol ilə keçib getməlidirlər.

Sonra yan tərəfdə olan silahlı erməni kəndləri bunlardır: Cəyir, Barum, Barsum, Qaşkənd və qeyri.

Azərbaycan daxilində bu kimi erməni kəndlərinin indi də silahlı olaraq qal-maları həm köçərilərimizin, həm əkinçi və kəndçilərimizin asayişini, məişətini xəleldar etməkdədir [pozmaqdadır].

Keçənlərdə belə Gərgər kəndi əhlindən iki müsəlman yol ilə keçərkən Barum, Barsum erməniləri tərəfindən öldürülüb malları aparılmış və meyitləri də gizlədilmişdi. Tabəhal [bu günə kimi] müsəlləh surətdə qalan erməni kəndləri əvvəldən bəri müsəlmanlara əziyyət edə gəlməkdədirlər.

Bəzi nagüvara [ağır] hallara yol verməmək və camaatımızın asayişinə xələl yetməmək üçün bu kimi erməni kəndlərinin Azərbaycan daxilində hər yerdən artıq asudə yaşadıqları halda böylə işlərə imkan verilməməsi təşəbbüsləri hökumətimizin bilatəxir [dərhal] qəti tədabirindən [tədbirlərindən] olmalıdır. Zira heç bir vaxt yay istilərini görməyən, hər il baharın ikinci ayından başlayıb dağların sərinliklərində pərvərişyab olan [bəslənən] köçəri inəkləri, qoyunları mötadları vəchilə [adət etdikləri kimi] bir neçə erməni müsəlləh kəndlilərinin üzündən yaylaqlara gec də olsa çıxammayıb aranda isti yerlərdə qalarlarsa, həpsinin azarlayıb tələf olacağı bədihi [aşkar], həm də təbiidir.

*Balaca felyeton*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 6 iyul (Bazar) tarixli 217-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## REMİNQTONİSTKALAR

Qafqazdan çoxdan çıxdığıma görə, heç zaddan xəbərim yox idi. Elə bilirdim ki, Qafqaz köhnə, həman Qafqazdır. Yəni rus qaradovoyu, rus dili və sairə.

Elə ki, təkrar Qafqaza qayıtdım, onda işlərdən xəbərdar oldum. Məni halı eylədilər ki, Qafqaz Rusiyadan ayrılıbdır və hər millət özü üçün bir cümhuriyyət düzəldibdir.

Bu əhvalat mənim xoşuma gəldi. Birinci cümhuriyyət ki, torpağına ayaq basmışdım, Ermənistan idi.

Buranın dəvairi-rəsmiyyəsindən [rəsmi idarələrdən] birisinə işim düşdü. Rus dili bildiyimə görə bir ərizə yazıb aparıb təqdim etdim. Dedilər ki, cavab üçün sabah gəl. Səhər getdim. Ərizəmi əlimə verdilər. Gördüm ki, üzərində erməni dilincə bir "rezalyutsiya" [dərkənar, qeyd] qoyubdurlar. Bir ermənidən rica etdim ki, bunu oxuyub mənə qandırsın. Erməni "rezalyutsiyanı" oxuyub tərcümə etdi.

Tərcüməsi böylə idi:

"Ərizənizə baxılmadı. Çünki hökumət dilində yazılmayıbdır."

Sordum, nə hökumət dili?!

Dedi, o hökumət ki, adına Ermənistan deyirlər. Ermənistan hökumətinin də hökumət dili, əlbəttə, ermənicə olacaqdır.

Dedim, axı mən ermənicə bilmirəm.

Dedi, sən bilmirsənsə, mən bilirəm. Zəhmət haqqı ver, sənin üçün bir yaxşı ərizə yazım.

* * *

Ermənistan Cümhuriyyətindən adlayıb, Gürcüstan Cümhuriyyətinə varid oldum [gəlib çatdım].

Burada da mənə bir ərizə yazmaq vacib oldu.

İstədim, bir gürcü tapam ki, məndən muzd alıb ərizə yazsın. Sonra fikir eylədim, bu, izafə xərc olacaqdır. Çünki Ermənistan başqa, Gürcüstan başqa. Ermənistan hökuməti daşnaklardan əmələ gəlir və daşnaklar da məlum olduğu üzrə mütəəssib [təəssübkeş] millətpərəstdirlər. Madam ki, "Xatisov"u "Xatisyan" edirlər, o halda təbiidir ki, rus dilini də atıb öz dillərini işlədəcəkdirlər.

Hərçənd ermənilərin ruslara məhəbbəti baqidir [qalmışdır] və daşnaklarla denikinlərin aşiq və məşuqluq əlaqəsində olduğu müsbətdir, [isbat edilmişdir, şübhəsizdir], lakin bunun dilə dəxli yoxdur. Bu, rusca bilməyən müsəlman dövlətlilərinin ruslardan aşna saxladığı kimi fəqərəyə [hadisəyə; məzəli əhvalata] bənzər bir işdir...

Amma gürcü hökuməti sosialist hökumətdir. Və mən də qabaqlarda öz müsəlman sosialistlərimizdən eşitmişdim ki, sosialistlər üçün millət ayrılığı yoxdur. Onlardan ötrü hamı insanlar bərabərdirlər. Bu urusdur, bu ermənidir, bu türkdür, heç təfavüt eyləməz. Bəs, bundan istinbat eylədim [məna çıxardım] ki, bir halda ki millət ayrılığı yoxdur, o halda dil ayrılığı heç ola bilməz. Çünki millətləri biri-birindən ayıran ən əvvəl dilləridir.

Ərizəmi kamali-cəsarətlə rusca yazıb apardım və lazım olan yerinə verdim. İdarə rəisi ərizəmi açıb baxan kimi təkrar qatlayıb əlimə uzatdı və gürcü dilində nə isə dedi. Mən rusca dedim ki, nə deyirsən? Cavab vermədi və qapıya işarə edib anlatdı ki, çıx bayıra. Bayırdakılardan bir nəfəri mənə əhvalatı qandırdı və dedi ki, ərizəni gərək gürcü dilində yazasan. Dedim ki, bəs sosialistlər üçün millət ayrılığı və dil ayrılığı gərək olmasın. Dedi, onu söyləyən, yəqin ki, sizin sosialistlərinizdir. Bizim sosialistlərimiz isə öz millətlərinin sosialistidirlər. Başqalarla işləri yoxdur. Və bir də gürcü kəndlisi və füqərayi-kasibəsi nə bilsin ki, Roxlin kimdir, Çurayev nəçidir? O öz Ramişvilisini, öz Seretelisini tanıyır və dilini də başa düşür...

Xülasə, Gürcüstandan ötüb Azərbaycana daxil oldum. Tərs kimi, burada da mənə ərizə yazmaq vacib oldu. Amma daha xam deyildim. Təcrübə məni öyrətmişdi ki, hər cümhuriyyətin rəsmi kağızları öz dillərində olmalıdır. Ona görə ərizəmi türk dilincə yazıb, lazım olan dairəyə rəvanə oldum. Dedilər, nə istəyirsən? Dedim ki, rəisi görəcəyəm. Dedilər, nə üçün? Dedim, ərizəm vardır. Dedilər, ərizəni ver, özün get. Bunu deyib ərizəni əlimdən aldılar və heç baxmadılar ki, görən nə yazılıb və nə dildə yazılıbdır. Dedim, bəs cavab üçün nə vaxt gəlim? Dedilər, bir-iki gündən sonra.

Bir-iki gündən sonra getdim. Dedilər ki, hələ ərizənə baxılmayıbdır, çünki tərcümə etməyibdirlər. Dedim, siz ərizəyə baxmadınız? Ərizə türkcə yazılıbdır. Tərcüməyə ehtiyacı yoxdur. Dedilər ki, elə türkcə yazıldığına görə də tərcüməyə ehtiyac vardır. Sənin ərizən gərək ruscaya tərcümə edilə, sonra verilə reminqtonistkaya [makinaçıya]. O da onu çap edib sonra rəis cənablarına pişnihad [təqdim] edə. Dedim, rəis cənabları rusdurmu? Dedi, xeyr, müsəlmandır. Dedim, öylə isə, görünür, onun türkcə savadı yoxdur. Dedi, rəhmətliyin oğlu, nə boşboğazlıq edirsən? Sən bura göydən düşməmisən, yerdən çıxmamısan, qayda belədir. İndi ki, ərizələr türkcə yazılacaqmış, bəs bu bir düjün reminqtonistkalara biz müftə pul verəcəyik? Onsuz da onların dili üstümüzdə bir arşındır. Deyirlər ki, qoy Denikin gəlsin, görün Azərbaycanın başına nə açacayıq! Bəs, bu cürə adamlara müftə pul vermək olar?! Sən ağlını hara veribsən? Və bu adamları nə hesab edirsən? Qoy reminqtonistkaların canı çıxsın, işləsinlər ki, aldıqları məvacib də haramları olmasın.

Dedim, bu qədər reminqtonistka saxlamaq məmləkətin mənafeyi nöqteyi-nəzərindən vacibatdandırmı?

Dedi, mən görürəm ki, sən çox uzun danışansan, amma səni xəbərdar edirəm ki, mən də bir kəmhövsələ adamam. Qorxuram ki, sözümüz tərs gələ, aramızda inciklik ola. Məsləhət belədir ki, çıxıb gedəsən!

Gördüm ki, məsləhət pis məsləhət deyildir. Ona görə çıxıb getdim.

*Tazə*

## TABAQÇILAR HAQQINDA

Neçə illərdən bəridir ki, biz tabaqçılar Bakı Bələdiyyə İdarəsindən şəhər küçələrində alış-veriş etməkdən ötrü tabaq yeri icarəyə götürüb və bu vaxtadək alış-veriş edib külfətimizi dolandırmaqdayıq.

Fəqət çox təəssüf etməli ki, camaatın Bakı şəhər baqqalları, xüsusən yaş meyvə satan dükançıları bizim əleyhimizə çalışıb, bu bahalıq zamanda külfətimizi dolandırmağa mane olurlar. Həman bu tamahxorların çalışdığı budur ki, Olqinski, Velikoknyajeski və Nikolayevski küçədə olan tabaqçıları yığışdırıb yaş meyvə alışverişini əllərinə salmaqla bərabər, birə-üç qiymətə satsınlar. Odur ki, bizim təşkilatsızlığımızdan və özlərinin "ittifaqlı"lığından istifadə edib Bələdiyyə İdarəsində bizim əleyhimizə çalışmaqdadırlar.

İştə, mən də onların bu çalışmaqlarını yazıb qəzetə vasitəsilə lazımi yerinə bildirməyi, tabaqçı olduğum üçün kəndimə vəzifəədd [hesab] etdim.

İştə, onlar dövri-istibdaddan bəridir ki, bizim əleyhimizə çalışıb dürlü-dürlü vasitələrdən çəkinməyirlər.

Binaənileyh [odur ki], icazənaməmiz ildə iki dəfə dəyişildiyinə binaən [görə] və bu günlər icazənaməmizin vaxtı qurtarıb yenisini alacağımızdan istifadə edib və Bələdiyyə İdarəsinə neçə illərlə tutub işlətdiyimiz tabaq yerlərini müzayidəyə (torqa) qoyulmağını təklif edirlər. Əks surətdə, yəni torqa qoyulmadığı halda yerlərimizin pullarını Bələdiyyə İdarəsinə iadə edib [verib] və yerlərin boş qalması təklifini də etmişlər. Ax, nə qədər insana yaxışmayan bir iş və nə qədər insaniyyətdən uzaq bir təklif! Bunlar dükançı olduğu halda, bizim alış-verişimizə göz dikib, artıqtamahlıqlarını ümuma bildirmək istəyirlər.

İştə, həman bizim əleyhimizə çalışan baqqallar birdəfəlik bunu düşünüb bilməlidirlər ki, qeyrilərin çörəyini əlindən alanlar özləri tez çörəkvay [çörəyə möhtac] olarlar. Ona binaən öz yerlərində oturub, əbəs xalqın çörəyinə mane olmasınlar. Və bir də onlar bilməlidirlər ki, möhtərəm Duma çlenləri [üzvləri] və sədaqətli agentləri heç vaxt haqqı nahaqqa verib insafını, vicdanını pula satmazlar. Onunçün ki, onlar da bica yerə məətəl olub Dumun [Dumanın] qapısını səhərdən axşamacan kəsdirməsinlər.

*Məhəmmədəli Əsədullazadə*
*Tabaqçı*

## BAKI MƏHƏLLƏLƏRİNDƏ KÖNÜLLÜ TƏLİMGAHLAR

İcabında müqəddəs vətən və əziz millətimizi müdafiə etmək hər bir müsəlman və əli silah tutanların vəzifəsi olduğu, millətimiz arasında bu xüsusda fövqəladə bir qeyrət görüldüyü üçün hökumətimiz tərəfindən müxtəlif mərkəzlərdə könüllü təlimgahları tərtib edilməsi təhti-qərara alınmışdır və bu vəzifələrlə iştiğal etmək [məşğul olmaq] üçün Bakıda Mərkəzi Komisyon və Ştab təyin olunmuşdur. Könüllülərin təlim və tərbiyələrinin, ümumiyyətlə yeknəsəq olması və əzəmi [maksimum] fayda əldə edilməsi üçün ümum təlimgahlar Mərkəzi Ştabın əmrində bulunacaqlardır.

Şimdilik Ştab Bakıda:

1) İçərişəhər;
2) Çənbərəkənd;
3) Təzəpir;
4) 4-cü uçastok;
5) Məhəmmədli məhəlləsi;
6) Hacı İbrahim məscidi;
7) Hacı Pirverdi məscidi məhəllələrində birər təlimgah güşad edəcəkdir [açacaqdır].

Ona binaən [ona görə] ümum Bakı məhəllələrinə elan olunur ki:

1) Hər məhəllədə könüllü əhaliyə təlim və tərbiyə etmək üçün lazım olan zabitlər veriləcəkdir.

2) Hər məhəllədə təlimgahlara nəzarət etmək üçün könüllülər tərəfindən üç kişilik bir komisyon intixab [seçiləcək] və Mərkəzi Ştab tərəfindən təsdiq olunacaqdır.

3) Şimdiyə qədər hər hanki məhəllədə təlim və tərbiyə ilə iştiğal edənlər varsa, onlar da Ştabın nəzarəti altında olacağından, o məhəllənin başçıları və bu xüsusda mövcud isə komisyonları gəlib Ştaba məlumat verməlidirlər.

4) Könüllü təlim və tərbiyəsi ilə iştiğal edəcək olan ümum zabitan Ştabın əmrində bulunacaqlarından və maaşlarını Ştabdan alacaqlarından, yerlərindəki vəsiqələri və yaxud tərcümeyi-əhval vərəqələri ilə bir an əvvəl [mümkün qədər tez] gəlib Ştabda isbati-vücud etməlidirlər.

5) Hər məhəllənin könüllü dəstələri təşkil olunub, təlimgahda nəzarət etmək üçün müntəxəb [seçilmiş] komisyon təşəkkül edincəyə qədər, komisyon mövcud olmayan məhəllələrdə Ştab tərəfindən müvəqqət olaraq müttəhid adamlardan üçər kişilik birər komisyon təyin ediləcəkdir.

6) Komanda türkcə olacağı kimi, Ştabın bütün ümuri-təhririyyəsi [yazı işləri] də türkcədir.

Mərkəzi Ştabın qərargahı Əmələ Klubunun önündə Haşımov mülkündədir.

*Könüllü təşkilatı*
*Mərkəzi Ştab müdiri:*
*Talıbzadə Yusif Ziya*
*Mərkəzi Ştabın baş katibi:*
*yüzbaşı Xəlil*

## BAKI XƏBƏRLƏRİ

**İdarədən**

Qəzetəmizin müvəqqət müdiri Hacıbəyli Üzeyir bəy əfəndi səhhətini düzəltmək qəsdi ilə bir müddətə məzuniyyətlə Bakıdan gedib, müvəqqət müdir vəzifəsi Xəlil İbrahim əfəndi öhdəsinə vagüzar edilmişdir [tapşırılmışdır].

Denikin və Azərbaycan

"Zarya" qəzetəsi yazır:

Bizdə olan məlumata görə, Bakıda İngilis Komandanlığı cənbində [nəzdində] olan Dabravol nümayəndəsi general Lazarev Denikindən bu məzmunda bir teleqraf almışdır:

*"Hərgah Azərbaycan Hökuməti tərəfindən Dabravol ordusu əleyhinə düşmənanə hərəkat başlanmazsa, Denikinin Azərbaycana qarşı heç iqdamatı [təşəbbüsü] olmayacaqdır. Samur çayında təyin etdiyi sərhəddən Könüllü ordu keçməyəcəkdir. Azərbaycanı Rusiyanın ayrılmaz bir hissəsi hesab edərək, bu məsələ Ümumi Rusiya Məclisi-Müəssisanında həll edilənədək Azərbaycanın istiqlaliyyətini təsdiq edir."*

**İclas**

İyul ayının 6-da saat 3 tamamda "İttihad" firqəsinin Bibiheybət şöbəsinin ümumi iclası vaqe olacağı möhtərəm üzvlərə xəbər verilir. İclasda sədr, katib və xəzinədar intixab olunacaqdır [seçiləcəkdir]. Adres: Bayılda, 1-ci polis idarəsi qarşısında Mitrofanov həyətində.

**Qarabağ erməni nümayəndələrinin vürudu**

Dün Azərbaycan Hökuməti tərəfindən nümayəndə sifəti ilə Qarabağ ermənilərinin qurultayına getmiş Parlaman üzvü Şəfi bəy Rüstəmbəyli ilə bərabər Qarabağ erməni əhalisi tərəfindən nümayəndə olaraq TerDanielyan və [R.] Şahnazaryan Bakıya varid olmuşlardır [gəlmişlər]. Erməni nümayəndələrinin məqsədi Qarabağda erməni-müsəlman münasibətini gözəlləşdirməkdir.

**Qəzalarda**

"Müsavat" firqəsinin Parlaman fraksiyonu qəzalarda təşkilat yapmaq məqsədilə bayram günlərindən istifadə etməyi qərara almışdır. Bu fikirlə fraksiya əzaları [üzvləri] uyezdlərə getmişlər. Dünən Parlaman üzvü və "Müsavat" firqəsi lideri Məhəmməd Əmin Rəsulzadə ilə Mustafa bəy Vəkilov Gəncəyə və Gəncə vilayətinə yola düşmüşlər. Onlar Gəncə, Qazax, Ağdaş, Şəki və Zaqatalanı ziyarət edib mühazirələr və siyasi məsələlərə dair məruzələr oxuyacaqlar.

Türk Tələbələri Komitəsində

Türk Tələbələri İcraiyyə Komitəsi qət etmişdir ki, hökumətə müraciətlə tələbələri[n] öz təhsillərini ikmal [tamamlamaq] üçün Avropaya göndərilmələri haqqında lazımi tədabir ittixaz edilməsi [tədbirlər görülməsi] barəsində təşəbbüsatda bulunsunlar.

**Darülfünun komisyonunda**

Maarif Nəzarəti Darülfünun [universitet] komisyonu sədrinə müraciətən rica etmişdir ki, darülfünun işlərindən ötrü Qərbi Avropaya göndərilən şəxslərin ad, familiya və sənətlərini xəbər versin.

Xüsusi komisyon tərəfindən darülfününa lazım olan tibbi və ictimai-siyasi elmlərə dair kitabların siyahısı tutulmuşdur.

Bir çoxları qəbul olunmaq üçün müraciət etdiklərindən, komisyon müəyyən cavab verməkdən aciz qalır. Zira darülfünun üçün təyin olunmuş Ticarət məktəbini hənuz ingilislər boşaltmamışlar. Maarif Nəzarətinin verdiyi xəbərə görə, Birinci gimnaziya boşalmaq üzrədir. Bir çoxları darülfünunda xidmət etməyə ərizə verirlər. Komisyon ərizələri qəbul edib cavab verməyi işləri düzələndən sonraya qoyur.

**Qradonaçalstvada**

\- Bakı qradonaçalstvası cənbində [nəzdində] xüsusi paltar və çəkmə emalatxanaları açılmışdır. Bu emalatxanalar[ı] qradonaçalnik polismeyster olarkən təsis etmişdi. İndi tamam qradonaçalstvanı təmin edə bilər.

Axır zamanlarda qradonaçalstva cənbində silah qayıran zavod işə başlamışdır. Bu zavodda bir də şəhəri mühafizə üçün zirehli avtomobil qayırılır.

\- Qradonaçalnik tərəfindən milis hazırlayan məktəb açılmışdır. Şəhər polisinə xidmətə daxil olmaq istəyənlər bu məktəbdə nizam və milis vəzifəsini öyrənib imtahan verməlidirlər. Yeni təşkil olunan qorucu [mühafizə] bölüklərində ciddi intizam (disiplina) qoyulmuşdur.

**N[oy] V[issarionoviç] Ramişvili şərəfinə ziyafət**

İyulun 2-də saat 5-də Bakı Camaat Yığıncağı (Obşestvenni Sobraniya) klubunun yay mülkündə Gürcüstan Cümhuriyyətinin Hərbiyyə və Daxiliyyə naziri Ramişvilinin şərəfinə bir ziyafət verilmişdir. Ziyafətdə Gürcüstan Hərbiyyə nazirinin müavini general Odişelidze, Xariciyyə nazirinin müavini N[ikolay] İ[otamoviç] Kartsivadze, Gürcüstan Cümhuriyyətinin Azərbaycandakı siyasi nümayəndəsi doktor [Qriqol] Alşibaya, Azərbaycan Cümhuriyyətinin başda Rəisivükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli olmaq üzrə Hərbiyyə naziri Mehmandarov, Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov və qeyri nazirlər hazır idilər. Məclisi Hərbiyyə naziri Mehmandarov həzrətləri açaraq gürcü ordusu şərəfinə tost qaldırır. Hərbiyyə nazirinə Ramişvili cavab verir. Ondan sonra general Odişelidze, Parlaman rəisi əvəzinə Parlamanın baş katibi Əhməd Cövdət Pepinov dəxi nitqlər irad edirlər [söyləyirlər]. Ziyafət vaxtı musiqi və sazəndar çalınırdı.

**Müəllimlərə məvacib**

Bakı Bələdiyyə İdarəsinin Maarif şöbəsi axırıncı iclasında qərar qoymuşdur ki, 1 mart 1919-cu ildən bu yana xidmətdə olan müəllimlərə yay vaxtı dəxi məvacib verilməlidir.

**İbtidai məktəb**

Bələdiyyə İdarəsinin Maarif şöbəsi tərəfindən Mariinski ünas [qızlar] gimnaziyasının 8-ci pedaqoji sinfinin təcrübəsi üçün həman məktəb indində [nəzdində] ibtidai məktəb açılmasını qət etmişdir.

**Birjada**

"Laj" [qiymət artımı] ümidsiz bir halda davam edir.

Bakı bonlarının qiyməti İranda və burada çox yaxşıdır. Ümumi Rusiya pullarının qiyməti isə getdikcə düşür. Birja tamamilə şaşırmış və nəyə qərar verməyi bilməyir. Böyük Kerenskiləri və Nikolay pullarını gözlənməyən dərəcədə aşağı təklif edirlər. "Laj"ın qədərini təyin etmək əsla mümkün deyildir. Minlik 1400-dən 1800-ə kimi gedir. Kerenski 250-liliklər 1600 manata satılır. Xırdalarla maraqlanan yoxdur. Romanov pullarından 500 manatlıqların kursu yaxşıdır. 500 manat 1300-dən 1400-ə kimi qiymətlənir. Xırda Nikolay pulları yoxdur.

**Valyuta**

Valyuta dəyişməksizin durur. İtaliya lirəsi artmadadır. Böylə ki, İtaliya lirəsi 20-21 manata gedir. Başqa pullara, funt və franklara əhəmiyyət verən azdır.

**Ticarət bazarı**

Ticarət bazarında ruh pozulmuş kimidir. Möhtəkirlər nə yapacaqlarını unutmuşlar. Bir tərəfdən də hamının əlində bir qisim mal vardır. Əlan [hal-hazırda] bazarda sabun və şəkər artır. Bu malların qiyməti getdikcə düşməkdədir. Böyləliklə satışda şəkəri 22 manata verirlər.

**Mərdəkanda "Müsavat" şöbəsi**

30 həziran tarixində düşənbə [bazar ertəsi] günü axşam saat 7 radələrində Sabunçu-Balaxanı mədənlər mərkəzi "Müsavat" idarəsi təbliğat əzasından [üzvlərindən]: 1) Yusifzadə Əbdürrəhim, 2) Sultanzadə Məşhədinin dəvətlərinə icabətlə [dəvətini qəbul edərək], Mərdəkan qəryəsi [kəndi] camaatı nümayəndələri Məhəmmədəli Qəhrəmanzadənin mənzilində ictima etdilər [yığışdılar].

Hazirunun [iştirakçıların] xahişi ilə məclis rəsmiyyət peyda etmədən müqəddəm [qabaq] insanlarda yaşamaq yolları aramağa ehtiyac hissi nə zamandan bəri oyanmış olub, məsləki-siyasi nədən ibarət olduğunu şərh və hal-hazırda ziyalı təbəqəmiz müxtəlif firqələrə münşəib [bölünmüş, ayrılmış] olaraq təqib etdikləri məsləki-siyasiyyəni yekdigəri [bir-biri] ilə müqayisə bədində [sonrasında], "Müsavat" firqəsinin şüarından və kəndi şüarında ibraz etdiyi [nümayiş etdirdiyi] fəaliyyət və mətanətindən dolayısı ilə əldə etmiş olduğu məmnuniyyətbəxş nəticələrdən ətrafı ilə məlumat verildikdən sonra, haziruna xitabən "Müsavat" şöbəsi təsisinə lüzum görülərsə, məclisə rəsmiyyət verib heyəti-idarə intixabına şüru etmək [seçkisinə başlamaq] təklifi kamali-məmnuniyyətlə qəbul edildi.

Mütəaqibən [Onun ardınca] Yusifzadə Əbdürrəhimin sədarəti, Qasımzadə Feyzullanın kitabəti [katibliyi] ilə məclis rəsmiyyət peyda edib, heyəti-idarə intixabı məsələsi müzakirə nəticəsində isimləri zeyldə mühərrər əşxas [adları aşağıda yazılmış şəxslər] intixab edildilər:

1) Heydər Məhəmmədzadə (sədr);
2) Məhəmməd Mirzəməhəmmədzadə (müavin);
3) Qasımzadə Mustafa (katib);
4) Rəhman Əlizadə (xəzinədar);
5) Məhəmmədəli Qəhrəmanzadə,
6) Nadir Nurməhəmmədzadə,
7) Hacı İsabala Musazadə,
8) Mirfəttah Ağazadə (idarə üzvü).

Heyəti-idarənin növbəti iclasları hər həftə cümə günləri axşam saat 8-ə qərar verilib, məclis xətm oldu.

## AZƏRBAYCANDA

**Salyandan**

Şimdiyə qədər fəna bir surətdə gedən əsgəri işlərimiz (əsgər təcəmmösü [yığılması]) bərəkət versin ki, get-gedə qanun təhtinə [qanun altına] daxil olmaqdadır. Keçmişdə olan səhv və xətalar, bir taqım qanunsuzluqlar, rüşvətlər, şükürlər olsun ki, şimdi daha yoxdur.

Əsgər təcəmmösü bu halda yenə davam etməkdə, bir taqım "vasitə"lərlə əsgər getməyərək sərbəst gəzən gənclərimiz indi çağırılmaqda və məqami-aidinə sövq olunmaqdadır [aidiyyətli quruma göndərilməkdədir].

Əgər Əxzi-əsgər şöbəsində qaimməqam Yusifzadə Əliheydər bəy əfəndi bulunmazsa, şübhəsizdir ki, doktor Terletski "sayəsində" heç bir gəncimiz əsgər olammaz. Bu hərif şimdiyə qədər bir çox rollar oynamışdır və bir çox paralar və rüşvətlər almışdır və bir çox bədəncə sağlam olanlara "xəstəliklər" isnad etmişdir. Bir çox yaşlılara yaşsız və bir çox yaşsızlara da "yaş" vermişdir.

Bu gün Azərbaycan xalqı xaricdən gələn denikinlərlə mübarizəyə qalxışır. Halbuki bizim üçün xaricdən ziyadə, daxilimizdə bizimlə bərabər çörəyimizi yeyərək hökumətcəlilərnizə [uca hökumətimizə] böyük məzərrət iras etdirməyə [ziyan vurmağa] çalışan və denikinləri çarçeşmlə [dördgözlə] gözləyən bu kimi hariflər təhlükəlidir.

Ətrafdan havyarlardır (kürülərdir), balıqlardır ki, gəlir. Əsgəri işlər üçün buraxdığı "şəhadətnamələr" sayəsində nələr almamışdır?

Gərək hökumət dairələrində və gərək başqa müəssisələrdə bu xüsuslar nəərietibara alınmalıdır. Daxili denikinlər rəsmi məqamlardan çıxarılmayınca, biz rahat olmayacağız.

Əxzi-əsgər işində bu doktorun verdiyi şəhadətnaməsinə baxmayaraq, kəndi ağıl və məntiqi dairəsində hökm etdiyindən, qaimməqam [qəza rəisi] Əliheydər bəy şayaniteqdir və təşəkkür [təqdirə və təşəkkürə layiq] nəticələr əldə edə bilir.

*[Rüstəm] İskəndərzadə*

**Ordubad əhvalı**

Məlum olduğu üzrə, Naxçıvan uyezdi ermənilərə təslim olmuşdur. Lakin Naxçıvan uyezdinə daxil olan Ordubad şəhəri erməni hökumətinə təslim olmayıb, Azərbaycan hökumətindən bu barədə nə tövr rəftar etməkləri üçün düsturüləməl [təlimat] almaqdan ötrü Bakıya nümayəndə göndərmişdilər.

İndi Tiflisdə olan İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyəti məlumat almışdır ki, Naxçıvan xanlarından Cəfərqulu xan [Kəlbəli xan oğlu Naxçıvanski], Kəlbəli xan [Cəfərqulu xan oğlu Naxçıvanski], Böyük xan və Məhəmmədəli xan (?!) erməni hökuməti tərəfindən nümayəndə sifəti ilə Ordubada azim olmuşlar [yola düşmüşlər] ki, Ordubad şəhərini Ermənistan hökumətinə tabe olmağa məcbur etsinlər.

**Ermənilərin hazırlığı**

Aldığımız məlumati-mövsuqəyə [mötəbər məlumata] görə, Ermənistan hökuməti kəndi qoşunlarını Zəngəzur qəzası üzərinə sövq etməkdədir. Onların vürudunadək [gəlişinədək] yerli müsəlmanlarla yaxındakı erməni qüvvələri ilə bir neçə müsadimələr [toqquşmalar] olmuşsa da, müsəlmanlar qələbə çalaraq ermənilərin nizami qüvvələrini geriyə püskürtmüşlərdir. Yerli ermənilərin bir para quldurları da müsəlmanları narahat etməkdədirlər.

**Lənkəranda**

Lənkəranda yenə Şura hökuməti təşkil edilmişdir. Əhvalat bu surətlə vaqe olmuşdur:

Lənkəran muğanlılar tərəfindən işğal edildikdən sonra bolşeviklər şəhərin ətrafına çəkilib bir heyət göndərmişlər və muğanlıları inandırmışlar ki, Şura hökuməti onların əleyhində deyildir. Yalnız Sara cəzirəsinə [adasına] keçmək istəyirlər. Bunun üçün muğanlılardan xahiş edirlər ki, şəhərdən çıxsınlar, Forştadta çəkilsinlər. Bu xahişi muğanlılar qəbul etmişlərdir.

Fəqət bolşeviklər şəhərə daxil olduqdan sonra forştadta ateş açmışlardır. Və nəticədə muğanlıları Qumbaşıya çəkilməyə məcbur etmişlərdir.

Lənkəranda bütün evlər qarət edilib, bir çox evlər yandırılmışdır. Bolşeviklər əhali üzərinə 7 milyon manat təzminati-hərbiyyə qoymuşlardır. Rəhn [girov] sifəti ilə 35 müsəlman, 9 yəhudi, 16 nəfər rus həbs edilmişlərdir. Əl bombası ilə şəhərin ən möhtərəm şəxslərindən İvanov qətl edilmişdir. Təqsiri də bu imiş ki, onun iki oğlu muğanlılara qoşulmuş imiş. Polkovnik İlyaşeviç həbs edilib, oğlu isə naməlum yerə qaçmışdır.

Muğanlılar iyulun 2-də Prişibdə bir ictima [yığıncaq] dəvət edərək söz vermişlər ki, nə tövr olsa da, bolşevizmi məhv eyləsinlər.

Lənkəran Şura hökumətinə muğanlılar bir ultimatum göndərərək, iyulun 5-dək şəhərin təslimini tələb edirlər. Əks surətdə Lənkərana qarşı hərb açacaqlardır.

## ERMƏNİSTANDA

**İngiltərə generalı Biç Ermənistanda**

"Sakartvelo" gürcü qəzetəsi yazır ki, polkovnik Sanders ilə Təbrizə gedən general Biç Aleksandropola (Gümrüyə) varid olmuşdur [çatmışdır]. Generalın şərəfinə keşidə edilən [verilən] ziyafətdə general erməni zabitlərinə xitabən böylə bir nitq irad etmişdir [söyləmişdir]:

Mən çox şadam ki, sizin şəxsinizdə erməni camaatını təbrik edirəm. Erməni camaatını şad edə bilərəm ki, Paris Konfransı Ermənistanın istiqlaliyyətini təsdiq edir. Van şəhəri Ermənistanın paytaxtı olacaqdır. Siz ermənilər Müttəfiqlər üçün və mədəniyyət işlərində böyük xidmətlər göstərmişsiniz. Ermənistanın sərhədləri elan edildiyi zaman bu xəbər qonşularınızın təəccübünə səbəb olacaqdır.

General Rusiya məsələsindən bəhslə demişdir ki, biz general Denikinə Rusiyanı bərpa etməkdən ötrü kömək etməyə söz vermişik. Mən sizin general Denikinə olan hüsntəvəccöhünüzü bilib, bu işdə sizi bizə kömək etməyə dəvət edirəm.

General Azərbaycan ilə Gürcüstandan bəhs edib demişdir ki, Müttəfiqlər onların istiqlaliyyətini təsdiq etməyəcəklər və onlar vahid Rusiyaya daxil ediləcəklərdir. İşin gedişinə tabe olmayanlar güzəştdə bulunmadıqlarına, təsiredici iqtisadi ablukaya [blokadaya] razı olacaqlardır.

**General Andranik**

"Aşxatavor" yazır: General Andranik Parisə vürudunun ikinci günü general Pişon və Foş tərəfindən hüzura qəbul olunmuşdur. Ondan sonra Poqos Nubar paşa ilə bir yerdə Fransa rəisi-cümhuru Puan-kareni ziyarət edib, bir neçə məsələ xüsusunda müsahibədə bulunmuşlar.

**Ermənistan xəritəsi**

"Aşxatavor" yazır ki, Sülh Konfransının qətnaməsinə görə, "Marsel coğrafiya şirkəti" Ermənistanın, Suriyanın və qeyri məmləkətlər xəritəsini hazırlayır.

**Vanda**

"Aşxatavor" "İqdam"dan iqtibasən yazır ki, əhaliyə 200 min kilo toxum və 200 min rəs [baş] heyvan paylanmışdır. Əkin çoxdur. Azuqə cəhətincə tam əmniyyətdir. Yüzlərcə erməni və müsəlman yetimlərini saxlamaq və naxoşlara müalicə etmək üçün Bələdiyyə İdarəsi darüleytam [yetimxana] və 200 naxoş üçün xəstəxana hazırlamışdır. Varto və Xınıs dairələrinin əhalisi cəm olub xəlifəyə izhari-itaət edib neçə yerlərə bu xüsusda teleqramlar göndərmişdir.

**Qars-Batum yolu**

Batumdan Ermənistana azuqə və qeyri ləvazimat daşımaq üçün Qars-Batum yolu islah edilmişdir. Əlan [indi] həman yol ilə furqonlarda 500 min pud un göndərilmişdir. Yol [ilə] mal daşımaq üçün yaxın zamanda kifayət qədərdə yük avtomobilləri mühəyya [hazır] ediləcəkdir.

## İDARƏYƏ MƏKTUB

**- 1 -**

"Azərbaycan" qəzetəsinin müdirindən acizanə rica edirik, biz fəhlələrin bir neçə kəlmə sözünü qəzetədə dərc buyursunlar.

Neçə gündür ki, Əliheydər Qarayev Tağıyev fabrikasına gəlib, vaxt-bivaxt mitinqlər düzəldib hökumət əleyhinə ağzına gələn nalayiq sözlər söyləyir. Məsələn, yoldaşlar, hökumət sizə düyü, un verib sizi öz tərəfinə çəkir, aldanmayın. Bizə öylə hökumət lazım deyil. Bizim yoldaşlarımız, hansı ki Aşqabaddadır, Astraxandadır, bu yaxın zamanda gəlib çıxar. Biz Şura hökumətindən başqa hökumət tanımırıq. Yaşasın Şura hökuməti! Yaşasın Aşqabadda olan yoldaşlarımız! Yaşasın qırmızı bayraqlarımız! – deyə bolşevizmi təbliğ edir. Bunlardan başqa hökumət əleyhinə çox sözlər söyləyirlər ki, yazmaqla bitməz. Təəccüb burasıdır ki, Əliheydər Qarayev özü Parlaman üzvü olduğuna binaən, bu cür nalayiq sözlərlə biz fəhləleri başqa bir hala salır. Qarayevin hər gün fabrikaya gəlməsi, hökumət əleyhinə getməsi və fabrikada yaşayan (.......) iş vaxtı mitinq qurması, özü Parlaman üzvü olması çox təəccübdür.

İdarədən: Bu məktub bir neçə gün təxirlə çap edilir.

**- 2 -**

Möhtərəm müdir əfəndi! Sevgili cəri-dənizin [qəzetinizin] bir guşəsində işbu məktubun dərcini acizanə rica edirəm.

Keçən cümə günü Çənbərəkənd qrajdanski komitənin iclasında mənim barəmdə yazılmışdı ki, guya mən Ağabala Şükür oğlu "Səfa" məktəbinin qıfıllarını çıxarıb aparmışam. Və mənə təklif olunub da, verməmişəm və hətta etina etməyirmişəm. Bu xəbərin həqiqətdən uzaq olduğunu qeydlə, ərz etməliyəm ki, o vaxt ki Ağatağı Nağıyev mənə rücu [müraciət] etmişdi "Səfa" məktəbinin binasını düzəldim, işi tamam edəndən sonra həmin 6 ədəd köhnə zamokları apardım Ağatağı Nağıyevə təhvil verim. O zaman Ağatağı cənabları mənə dedi ki, köhnə zamoklardır, tulla getsin. Mən o zamokları tullamayıb, aparıb vermişəm Yusif Ağakişi oğluna. Və məndə "Səfa" cəmiyyətinin heç bir şeyi yoxdur. Və bundan əlavə, özüm "Səfa"da neçə gün işləmişəm, onun da haqqını almamışam, bağışlamışam cəmiyyətə.

*Ağabala Şükür oğlu*

**[İtibdir]**

Mirməhəmməd Vəzirovun Mərv şəhərindən aldığı 329 nömrəli əbədilik pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*10271*

**İtibdir**

Yusif Azadəli oğlunun İrəvan quberniyasından aldığı pasportu itib. Etibardan saqitdir.

*10273*

**Satılır**

Kinematoqraf aparatı, pianino, elektrik stansiyasının nömrə vuranı (nomerator), dəmir baklar, boçkalar [çəlləklər], taxta və şalbanlar. Telefon nömrəsi: 33-28. Vağzalnı küçə, nömrə 42. Qabirin mənzili.

***5401***

**Satılır**

Mexaniçeski maşinalar, stanoklar. Telefon nömrə: 33-28.

*10275*

**İtibdir**

Rüstəm Nəriman oğlunun 4-cü polis idarəsindən aldığı pasportu itib. Etibardan saqitdir.

*10274*

**İtibdir**

Qüdrət Quliyevin 4-cü Balaxanı polis idarəsindən aldığı pasportu itib. Etibardan saqitdir.

*5404*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Berlin Darülfününu doktoru**
**S.İ.Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Bəhri-Xəzər dənizində passajir və yük gəmilərinin yola düşmələri**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 26 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Diş həkimi**
**E.S.Karşteynbaumun**

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08.

Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyuba-şevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Satılır**

Ucuz qiymətə ingilis malından hər cür hazır kostyumlar, Busloviçin mağazasında. Korçakovski nömrə 12, telefon nömrə 24-70.

*5406*

Ümuri-Xeyriyyə Nəzarətinin Qarabağ nahiyəsində Qusulu kəndində olan ipək toxumaq işinə mükəmməl bələd olan və türk dili bilən övrət lazımdır. Hər gün, bayram günlərindən başqa, Nəzarətin Xeyriyyə şöbəsinə müraciət etməlidir.

*T-166*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahimov***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

**İngilis parçaları**

səh. 47. "markizet": çox nazik pambıq və ipək parça.

**Hökumət Teatrosunda**

səh. 48. "Ədirnə fəthi" (yaxud "Ənvər bəyin Ədirnə fəthi"): Cəfər Cabbarlının pyesi.

**Teleqraf xəbərləri**

səh. 48. "Saxalxo sakme" (Ümumxalq işi): Tiflisdə nəşr edilən gürcü qəzeti.

**Qəzetələrdən**

səh. 50. "Yaşıl ordu" (yaxud Yaşıllar hərəkəti): Rusiyada Vətəndaş müharibəsi dövründə əcnəbi müdaxiləçilərə, bolşeviklərə və ağqvardiyaçılara qarşı mübarizə aparan, qeyri-nizami silahlı qruplar; əsasən kəndlilərdən və kazaklardan ibarət olurdu.

səh. 51. "müvafiq olub olmadığını": qəzetdə "müvafiq" yerinə "müvəffəq" getmişdir.

"Dördlər Şurası" (yaxud Böyük Dördlük): Paris Sülh Konfransının gedişində dörd böyük dövlətin liderlərindən əmələ gələn şura ("Böyük Dördlük" yaxud "Dördlər Şurası"); bura ABŞ prezidenti Vudro Vilson, Britaniya, İtaliya və Fransa Baş nazirləri Lloyd Corc, Vittorio Orlando və Jorj Klemanso daxil idi.

səh. 52. "Jurnal-de-Jenev" [Journal de Genève]: 1826-1991-ci illərdə Cenevrədə nəşr edilmiş qəzet.

**Cümə günkü mühüm xəbərlər**

səh. 53. "Beşlər Şurası" (yaxud Böyük Beşlik): ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya.

**Xarici siyasətimiz**

səh. 56. "Siyam": bugünkü Tailand nəzərdə tutulur.

Reminqtonistkalar

səh. 58. "reminqtonistka": XIX əsrin axırlarından etibarən Amerikada kütləvi şəkildə istehsal edilməyə başlanan yazı maşını əhali arasında "reminqton" adıyla məşhurlaşmışdı; "reminqtonistka" makinaçı qadın mənasında işlədilmişdir.

**Tabaqçılar haqqında**

səh. 60. "Olqinski, Velikoknyajeski və Nikolayevski küçədə": Bakıda, indiki "Məhəmməd Əmin Rəsulzadə" küçəsi Rusiya imperiyası dövründə əvvəlcə "Velikoknyajeski", sonra "Olqinski" adlanmışdır. "Nikolayevski" isə indiki "İstiqlaliyyət" küçəsidir.

**Bakı məhəllələrində könüllü təlimgahlar**

səh. 61. "bir an əvvəl": qəzetdə "bir az əvvəl" getmişdir.

**Bakı xəbərləri**

səh. 62. "Ter-Danielyan": qəzetdə bu soyadı təhrif edilmişdir.

**Azərbaycanda**

səh. 66. "Sara adası" (yaxud Sarı adası): Xəzər dənizində, Lənkəran şəhərinin şərqində yerləşirdi. 1956-cı ildə torpaq yolla Port İliç (indiki Liman) şəhəri ilə birləşdirildikdən sonra yarımada olmuşdur.

**İdarəyə məktub**

səh. 67. "fabrikada yaşayan (…….) iş vaxtı mitinq qurması": qəzetdə belə getmişdir.





# Vətən deyəndə...





● Tarix yazan oğullar

# Tankının üzərinə "Şuşa - son ünvanımız" yazmışdı



**İkinci Qarabağ müharibəsi başlayan gündən düşmənə qarşı Füzuli istiqamətində döyüşənlərin sırasında zabit Amid Heydərovun komandiri olduğu tank bölmələri də var idi. Əks hücum əmri verilən kimi 32 yaşlı gənc zabit Amid Heydərov tabeliyində olan zirehli texnikalar yağıların müdafiə xəttini yarmaq üçün irəli şığıdı.**

Amma işğalçılar neçə ildən bəri möhkəmləndikləri mövqelərdən geri çəkilmir, ciddi müqavimət göstərir, mövqelərinə yaxınlaşan hərbi texnikaları və canlı qüvvələri atəşə tuturdular. Buna baxmayaraq, gənc zabitin komandiri olduğu tank bölmələri mərmilərdən yayınaraq düşmənin mövqelərinə atəş aça-aça irəliləyirdilər. Heyət üzvləri komandirin verdiyi döyüş əmrlərini yerinə yetirərək böyük şücaət göstərir, ermənilərə qarşı cəsarətlə vuruşurdular. Dəqiq atəşlə qəsbkarların texnikaları, artilleriya qurğuları sıradan çıxarılır, işğalçılar addım-addım geri çəkilirdi.

Bir neçə gündən sonra zabit Amid Heydərovun tank bölüyünü Cəbrayıl istiqamətinə göndərirlər. Zirehli texnikalar düşmən mövqelərini atəşə tuta-tuta irəliləyir, arxadan gələn piyadalara yol açırdı. Cəbrayılın Nüzgar kəndi uğrunda gedən döyüşlərdə işğalçılar tərəfindən iki tankın vurulması gənc zabiti çox qəzəbləndirdi. Qarşısına məqsəd qoydu ki, nəyin bahasına olursa olsun, tanklarına atəş açılan mövqeləri darmadağın edəcək. Məqsədinə çatmaq üçün düşmənin müdafiə xəttini yararaq xeyli irəli gedən Amid arsenalında olan mərmiləri dolu kimi düşmənin mövqelərinə yağdırdı. Düşmən postları darmadağın edildi, piyadaların irəliləməsi üçün yol açıldı. Lakin sursatı qurtardığı üçün geri qayıtmaq istəyəndə ermənilər onlara atəş açdı, tankları vuruldu. Amid Heydərovun tankı da alovlandı. Son döyüş tapşırığını sonacan yerinə yetirən heyət üzvləri ilə bərabər, komandir də oktyabrın 3-də Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Qələbə ilə başlayan döyüş yolu yarımçıq qaldı. Onun döyüş yolunu əsgərləri, zabit yoldaşları davam etdirdi.

Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qarşıya qoyulmuş döyüş tapşırıqları cəsur bir zabit, komandir kimi yerinə yetirən Amid Heydərov doğulduğu Lerikdə doğmalarının, yaxınlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə ehtiramla torpağa tapşırıldı. O, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görüldü. Şəhidlik zirvəsinə ucalana qədər isə zabit Amid Heydərov nümunəvi xidmətlərinə görə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalına layiq görülmüşdü.

Amid Rəbbil oğlu Heydərov 1988-ci il mayın 20-də Lerikdə dünyaya göz açmışdı. Kiçik yaşlarından iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovu özünə örnək seçən Amid böyüyəndə general olmaq istəyirdi. Arzusuna çatmaq üçün Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olmuşdu. Sonra təhsilini Heydər Əliyev adına Hərbi İnstitutda davam etdirmişdi. Dörd il ərzində hərb sənətinin sirlərinə mükəmməl yiyələnmiş, uşaqlıq arzusunu reallaşdıraraq tankçı olmuşdu.

Qəhrəmanın atası Rəbbil kişi övladı haqqında göz yaşı içində danışdı. Dedi ki, döyüşün qızğın çağında işğalçılar oğlunun komandiri olduğu tanklardan birini vururlar: "Döyüşçü yoldaşları yaralıları tankdan çıxarmaq istəsələr də, ermənilər buna imkan vermirlər. Amid qorxmadan zirehli texnika ilə düşmən üzərinə gedir, işğalçıları susdurur. Mərmisi qurtardığı üçün geri qayıdanda tankı vururlar. Oğlum zirehli texnikanın içində qəhrəmancasına şəhid olur. Amid Aprel döyüşlərində Lələtəpə yüksəkliyinə çıxan ilk tankçı olmuşdu. Oğlum İkinci Qarabağ müharibəsində bu qəhrəmanlığını təkrarladı. 32 yaşlı Amid 44 günlük Vətən müharibəsində də hücum əmri veriləndə tankı ilə birgə düşmənin müdafiə xəttini yardı, işğalçılara göz açmağa imkan vermədən son mərmisinə, son nəfəsinədək böyük şücaət göstərərək şəhidlik zirvəsinə ucaldı. Qəhrəmanlığı, igidliyi ilə hər yerdə başımızı uca etdi. Özü də ucalıqlara yüksəldi".

Şəhid anası Şükufə Heydərova dedi ki, oğlunun intiqamı düşməndən alınıb, Şuşaya Zəfər bayrağımız sancılanda başqa şəhidlər kimi, Amidin də ruhu şad olub: "Hər gün onun otağında şəkilləri və paltarları ilə danışıram. Övlad itkisinə dözmək çox çətindir. Onun yoxluğu ilə barışa bilmirəm. Təskinliyimizi yalnız onunla tapırıq ki, Amid Vətən uğrunda şəhid olub. Amid çox mərd, qorxmaz uşaq idi. Oğlum 32 illik ömründə iki müharibə gördü. Aprel döyüşlərində də iştirak etmişdi. Zabit yoldaşları ona "Aprel döyüşlərinin qəhrəmanı" deyirdilər. 44 günlük Vətən müharibəsində tankın üstünə "Şuşa - son ünvanımız" sözlərini yazmışdı. Çox təəssüf ki, o, müqəddəs məkana çata bilmədi, qəhrəmancasına şəhid oldu".



Şəhidin həyat yoldaşı Nuranə Heydərova: "8 ildir ailə həyatı qurmuşduq. Hərbçi olmaq şərəfdir, lakin şərəfli olduğu qədər də çətindir. Amidin yoxluğundan illər keçməsinə baxmayaraq, hələ də onu itirdiyimə inana bilmirəm. Ürəyi yumşaq, mehriban insan idi. Prezidentə minnətdarlığımı bildirirəm ki, Amidin qəhrəmanlığını layiqincə qiymətləndirdi".

Bakının Nizami rayonundakı küçələrdən biri 2023-cü ildən Vətən Müharibəsi Qəhrəmanı şəhid mayor Amid Rəbbil oğlu Heydərovun adını daşıyır. İndi bu küçədən keçənlər cəsur tankçı Amid Heydərovun xatirəsini hörmətlə yad edirlər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

# Yazılmayan kitabın qəhrəmanı

**Vətənə xidmət hər zaman böyük məsuliyyət və fədakarlıq tələb edir. Bu yol insanın yalnız peşə hazırlığını deyil, həm də xarakterini, iradəsini və çətin anlarda düzgün qərar vermək bacarığını sınayır. Azərbaycan Ordusunun tarixində belə xidmət nümunələri çoxdur.**



Şəhid kapitan Həmid Cəfərli də ömrünü bu amalla - vətənə sevgi, hərbi peşəyə sədaqət və zabit məsuliyyəti ilə yaşadı. Vətənə xidmət onun həyat salnaməsində uşaqlıq arzusundan başlayan, hərbi məktəblərdən keçən və döyüş meydanlarına qədər uzanan bir yol oldu.

Həmid Kərim oğlu Cəfərli 1990-cı ilin avqustunda Bakıda dünyaya göz açmışdır. 1996-cı ildə paytaxtın Xətai rayonundakı 88 nömrəli orta məktəbdə təhsil almışdır. Arzusu zabit olmaq, Azərbaycan Ordusunda xidmət etmək idi. Bu arzu onu 2004-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirdi. Liseydə keçirdiyi 3 il onun xarakterinin və peşə seçiminin formalaşmasında mühüm rol oynadı.

2007-ci ildə liseyi bitirdi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldu. "Qoşun kəşfiyyatı" ixtisasını seçməsi təsadüfi deyildi. Kəşfiyyat xidməti yüksək fiziki hazırlıqla yanaşı, çevik düşüncə, dözümlülük və dəqiq qərar qəbul etmək bacarığı tələb edən sahələrdən biridir. Həmid Cəfərli məhz bu xüsusiyyətləri özündə formalaşdıraraq gələcəyin peşəkar kəşfiyyat zabiti kimi yetişdi və 2011-ci ildə ali hərbi təhsilini uğurla başa vuraraq leytenant rütbəsi aldı.

Müdafiə Nazirliyinin müvafiq əmrinə əsasən, xidmətini davam etdirmək üçün Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzinə zabit ixtisas kursuna göndərildi. Leytenant Həmid Cəfərli 2011-2012-ci illərdə burada kəşfiyyatçı taqım komandiri kursunu bitirdi. 2012-ci ildən "N" saylı hərbi hissənin Kəşfiyyat Bölüyünün taqım komandiri vəzifəsində xidmətə başladı. Hərb peşəsi yalnız fiziki hazırlıq deyil, həm də intizam, soyuqqanlılıq, məsuliyyət və düzgün qərar vermək bacarığı tələb edir. Həmid Cəfərli xidmət etdiyi bütün illər ərzində məhz bu xüsusiyyətləri ilə seçilən zabitlərdən oldu.

2015-ci ildə hərbi hissələrin birində kəşfiyyat bölüyünün komandiri təyin olundu. Bu dövr onun hərbi fəaliyyətində xüsusi yer tutur. Ön xəttə yaxın ərazilərdə xidmət edən kəşfiyyat zabiti kimi dəfələrlə xüsusi tapşırıqların icrasında iştirak etdi. Düşmənin nəzarətində olan ərazilərə dəfələrlə kəşfiyyat qrupları ilə daxil olaraq qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirdi. 2016-cı ildə göstərdiyi xüsusi xidmətlərə görə vaxtından əvvəl kapitan hərbi rütbəsinə layiq görüldü.

Həmid Cəfərli 2017-ci ildə "N" saylı hərbi hissəyə komandir müavini vəzifəsinə təyin olundu. Hər yeni təyinat onun üzərinə daha böyük məsuliyyət qoyurdu. O, bu məsuliyyəti peşəkarlığı və şəxsi nümunəsi ilə doğruldurdu. Buna görə də 2019-cu ildə "N" saylı hərbi hissədə bölük komandiri vəzifəsinə təyin olundu.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda kapitan Həmid Cəfərli artıq kifayət qədər döyüş hazırlığı və komandanlıq təcrübəsi qazanmış zabit idi. O, ilk gündən döyüşlərə qatıldı. Vətən müharibəsinin ilk günü dostuna belə yazmışdı: "Xoş o adamın halına ki, ona şəhidlik nəsib olur".

Həmid Cəfərli Cəbrayıl istiqamətində düşmənin müdafiə səddinin yarılmasında və işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda aparılan əməliyyatlarda fəal iştirak etdi. Cəbrayıl yüksəkliklərinin azad olunması uğrunda döyüşdü, Nüzgar kəndində Azərbaycan bayrağını ucaltdı, Füzuli rayonunun bir neçə kəndi və yüksəkliklərinin azad edilməsində payı oldu. Hətta iki gün şəxsi heyəti ilə birlikdə mühasirədə qaldı. Ancaq ruhdan düşmədi, bölüyü ilə birlikdə çətin şəraitdə qarşıya qoyulan tapşırıqları yerinə yetirdi, şücaət göstərdi.

Kapitan Həmid Cəfərli 2020-ci il oktyabrın 5-də Füzulinin Pirəhmədli kəndi uğrunda gedən ağır döyüşlərdə şəhid oldu. Azərbaycan dövləti onun xidmətlərini yüksək qiymətləndirdi. Ölümündən sonra "Vətən uğrunda" , "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

Onun bir arzusu da vardı. Döyüş yoldaşlarına deyirdi: "Müharibədən sağ-salamat çıxsam, mütləq kitab yazacağam". Həmin kitab yazılmadı. Həmid 30 yaşında vətən torpaqlarını düşmən əsarətindən xilas etmək naminə şəhadətə ucaldı. Amma qəhrəman şəhidlərimizdən biri kimi Həmid Cəfərlinin də həyat yolu gələcək nəsillər üçün hər zaman minnətdarlıq hissləri ilə oxunacaq bir ömür kitabına çevrildi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Böyük Zəfər

# Bakının qürur və şərəf ünvanı - Vətən Müharibəsi Memorial Kompleksi



**Ölkəmiz son illər beynəlxalq turizm bazarında tanınma və rəqabət qabiliyyətinin artırılması istiqamətində mühüm uğurlar əldə edib. Bu yöndə həyata keçirilən dövlət siyasəti, beynəlxalq marketinq kampaniyaları və infrastruktur layihələri nəticəsində turizm sektorunda vəziyyət əhəmiyyətli dərəcədə dəyişib.**

Ötən il turizmin inkişafı ilə bağlı aparılan araşdırmaya görə, Azərbaycanın müxtəlif xarici bazarlar üzrə orta tanınma göstəricisi artıq 48 faizə yüksəlib. Bu rəqəm ilk baxışda sadə statistik göstərici kimi görünə bilər. Lakin beynəlxalq turizm sənayesində tanınma səviyyəsinin 2 dəfə və daha çox artması respublikamızın qlobal turizm xəritəsində mövqeyinin güclənməsi deməkdir. Xüsusilə Türkiyə bazarında 90, Səudiyyə Ərəbistanında 75 faiz səviyyəsində tanınma göstəriciləri Azərbaycanın Yaxın Şərq və türk dünyasında artıq tanınmış turizm istiqaməti statusu qazandığını göstərir. Almaniyada bu göstəricinin 30 faizə yüksəlməsi isə Avropanın ən böyük turizm bazarlarından birində Azərbaycan haqqında məlumatlığın artdığını nümayiş etdirir.

Prezident İlham Əliyev çıxışlarının birində demişdir: "Azərbaycanda turizmin inkişafı üçün çox gözəl imkanlar var. Biz bu imkanlardan maksimum dərəcədə istifadə etməliyik. Turizm üçün bizim bütün lazımi ilkin şərtlərimiz var: əlverişli coğrafi mövqe, sabit siyasi vəziyyət, təhlükəsizlik, qonaqpərvər insanlar, yaxşı iqlim, yaxşı qida və çoxlu tarixi abidələr. Turistləri cəlb etmək üçün yeganə ehtiyacımız olan şərt bunu dünyaya, Avropaya təqdim etməkdir. Azərbaycanda turizm yerlərinin yaradılması bu istiqamətdə inkişaf edir, dövlət infrastruktur yaradır, yollar çəkir, bütün kommunikasiyalar təmin edilir, özəl sektor isə, öz növbəsində, investisiyaları təşkil edir. Nə qədər çox turist gəlsə, Azərbaycanı o qədər də çox adam tanıyacaq və turistlər ölkəmizə valyuta gətirəcəklər".

Belə tanışlığı genişləndirən sahələrdən biri də Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezidentin sərəncamı ilə Bakıda yaradılan, həmçinin dünyada turizm brendinə çevrilən Zəfər parkı və Zəfər muzeyidir. İftixarla demək olar ki, bu gün paytaxtın görməli yerində - Nobel prospekti ilə Ağ şəhər bulvarı arasında yaradılan bu kompleks dünya azərbaycanlılarının müqəddəs və qürur doğuran ziyarət məkanına çevrilib.

Heç kimə sir deyil ki, "Odlar Yurdu"nun qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi ağrılı-acılı günlərlə yanaşı, qürurverici məqamları ilə yaddaşlara əbədi həkk olub. Odur ki, Azərbaycanın bölgələrindən, hətta xarici ölkələrdən Bakıya yolu düşən əcnəbilər bu ocağı həvəslə ziyarət edirlər. Yaz-yay aylarında buraya gələnlərin sayı daha çox olur. Azərbaycan İstiqlal Muzeyində əməkdaşların dəstəyi sayəsində şəhid və qazi ailələrindən, Vətən müharibəsinin iştirakçılarından götürülmüş şəxsi əşyalar və müxtəlif materiallar sərgilənir. Günü bu gün də muzey əməkdaşları hərbi qənimətlərin toplanması işini davam etdirirlər. Muzey əməkdaşları həm paytaxtda, həm də rayonlarda şəhid ailələri ilə görüşür, şəhidlərin yadigar qalan əşyalarını toplayır və komplektləşdirirlər. Muzeyin direktoru Sədi Mirseyibli bildirdi ki, ziyarətçilərə 9 min 203-dən çox əşya təqdim olunur. Cari ildə şəhid ailələri, qazilər və Vətən müharibəsində iştirak edən şəxslərə aid daha 300 əşya muzeyə gətirilib. Polad Həşimova, Xudayar Yusifzadəyə, Rəşad Babayevə aid əşyalar artıq tam komplektləşdirilib.



Muzeyin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə, həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Burada 8 ekspozisiya zalı yaradılıb: "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi", "Ermənistan-Azərbaycan münaqişəsi. Tarixə baxış", "44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı", "Şanlı Zəfər. Şuşanın azad olunması", "Qəhrəmanlar yolu", "Qarabağ Azərbaycandır!", "Dövlət suverenliyinin bərpası. 20.09.2023", "Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş".

Təqdim olunan faktlar, foto və videomateriallar, interaktiv nümayişlər və xüsusi olaraq bu muzey üçün hazırlanmış eksponatlar, maketlər münaqişə haqqında həqiqətləri, 44 günlük Vətən müharibəsinin gedişi, Zəfər nəticəsində dövlət suverenliyinin bərpa olunması barədə məlumatları ziyarətçilərə dolğun çatdırmaqla yanaşı, həm də bu hadisələri hər kəsə yenidən yaşadır. Muzeydə ziyarətçilərin ən çox diqqətini çəkən çoxdan bəri həyata keçirilən "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihədir.

Muzeylə tanışlıq zamanı əslən Bakıdan olan Firuzə Kərimova və ailə üzvləri ilə görüşdük.

- Uzun illərdir Almaniyada yaşayıram. Orada tanış azərbaycanlılar, eləcə də almanlar Azərbaycan Prezidentinin qətiyyəti, zabit və əsgərlərimizin şücaəti sayəsində işğaldan azad edilmiş ərazilərimiz haqqında həmişə maraqla danışırlar. Çox arzusunda idim Bakıya gəlim - Zəfər parkını, Zəfər muzeyini ziyarət edim, deyilənlər haqında daha məlumatlı olum. Qəhrəmanlarımızın şəxsi əşyalarının nümayiş olunduğu sərgilər təsirlidir. Bir şey daha çox xoşuma gəldi. Muzeydə təkcə Vətən müharibəsində şəhid və qazi olmuş zabit və əsgərlərlə, könüllü döyüşçülərlə deyil, Aprel döyüşləri və antiterror əməliyyatı şəhidləri, habelə Birinci Qarabağ müharibəsində şəhid və qazi olmuş qəhrəmanların şəxsi əşyaları - geyimləri, habelə fotoları nümayiş edilir. Fondları gəzdikcə qürur hissi keçiririk, iftixar duyğuları ürəyimizi riqqətə gətirir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Səfalı təbiət, yüksək xidmət

Yay gələndə, havalar isinməyə başlayanda işdən yorulan insanlar dincəlmək, təbiətə yaxın olmaq, şəhərin səs-küyündən uzaqlaşmaq, istirahət etmək üçün planlar qurur, ailə büdcəsinə uyğun istirahət yerlərini seçirlər.



İstirahətə yollanan turistlər daha çox təbiətin qoynuna səfər etməyə üstünlük verirlər. Buna görə də ölkədə yay turizmi daha çox inkişaf edib. Bu hesaba yayda turistlərin istirahət etmələri üçün istirahət mərkəzlərində kifayət qədər əlverişli şərait yaradılıb. Qusar, Qəbələ, Quba, İsmayıllı, Şəki, Lənkəran, Xızı və s. zonalarında hərtərəfli şəraiti olan turizm kompleksləri fəaliyyət göstərir.

Daim iqtisadi gücü artan, getdikcə beynəlxalq aləmdə böyük nüfuz qazanan ölkəmiz ardıcıl olaraq beynəlxalq tədbirlərə evsahibliyi edir. Belə tədbirlər ölkəmizi dünyaya daha da yaxından tanıdır və sevdirir. Şəhərlərimizin və təbiətimizin gözəlliyi bu tədbirlərdə iştirak edən insanların diqqətini özünə cəlb edir, onlarda yenidən ölkəmizə səfər etməyə maraq və istək oyadır.

Artıq yay turizminin son ayıdır. Yalnız xarici deyil, yerli turistlər də istirahətlərini ürəklərincə keçirmək üçün ölkəmizdə yaradılmış yay turizminin imkanlarından hərtərəfli faydalanaraq istirahətlərinin rahatlığını təmin edirlər. Amma turizm istirahətlə yanaşı, həm də biznesdir, bu sahə ilə məşğul olanların gəlir mənbəyidir. Dünya Turizm Təşkilatının hesablamalarına görə, əgər 2000-ci ildə dünya üzrə turizm gəliri 500 milyard dollar olmuşdursa, bu rəqəm sonrakı illər dəfələrlə artmışdır. Bu gün inkişaf sürətinə və qazanılan gəlirlərə görə turizm iqtisadiyyatın əksər sahələrini üstələyərək neft və neft məhsulları ticarəti və avtomobil satışından sonra 3-cü yeri tutur. Görünür, elə buna görə də həm dövlətlərin, həm də iş adamlarının bu sahəyə marağı az deyil.

Dönək vətənimizə. Yay aylarında Azərbaycana daha çox turistin gəlməsi ölkəmizin təbiətinin gözəlliyindən və burada onlara göstərilən xidmətin yüksək səviyyədə təşkil edilməsindən xəbər verir. İsti aylarda ölkəmizə gələn turistlər istirahətlərini daha maraqlı və səmərəli keçirmək üçün əsasən Böyük Qafqaz dağlarının ətəklərində yerləşən bölgələrə üz tuturlar. Qəbələ, Quba, İsmayıllı, Qax, Zaqatala, Balakən, Xızı, Lənkəran, Gədəbəy kimi dağ rayonlarında istirahət etmək həm təbiətlə ünsiyyətdə olmaq, həm də bu yerlərin qədim tarixi ilə tanış olmaq deməkdir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Türkiyədə 1800 illik şəfa rəmzi olan nəhəng heykəl aşkarlanıb



Türkiyənin Antalya vilayətində yerləşən Aspendos Antik şəhərində aparılan arxeoloji qazıntılar zamanı sağlamlıq tanrısı Asklepios və oğlu Telesforu birlikdə təsvir edən, hündürlüyü 2,20 metr olan mərmər heykəl qrupu aşkarlanıb.

AZƏRTAC xəbər verir ki, Türkiyədə həyata keçirilən "Gələcəyə Miras" layihəsi çərçivəsində üzə çıxarılan və Roma İmperatorluğu dövrünə aid edilən heykəl qrupu Teatr küçəsində, Şərq meydanındakı Monumental Qapının şimal qanadının qalıqları arasında tapılıb. Eramızın II əsrinin son rübünə aid edilən əsər bədii xüsusiyyətləri və ikonoqrafik quruluşu ilə diqqət çəkir.

Bununla bağlı açıqlama verən Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy bildirib ki, tapıntı Aspendosda sağlamlıq kultları, dini inanclar və şəhər həyatı ilə bağlı mühüm elmi məlumatlar təqdim edir. Arxeoloqların fikrincə, Asklepios müalicə və sağlamlığın qorunmasını, Telesfor isə sağalma və reabilitasiya mərhələsini simvolizə edir. Hər iki fiqurun eyni kompozisiyada təsvir olunması antik dövrdə şəfa anlayışının bütöv şəkildə ifadə edildiyini göstərir.

# "Google" süni intellekt bölməsində rəhbərliyi dəyişir

"Google" və onun ana şirkəti "Alphabet" süni intellekt sahəsində rəhbərlik strukturunda dəyişikliklər edib.




AZƏRTAC xəbər verir ki, "Google DeepMind"in baş direktoru Demis Hassabis gündəlik idarəetmədən çəkilərək "Alphabet"in baş elmi direktoru və "Google DeepMind"in sədri vəzifələrini tutacaq. O, diqqətini süni ümumi intellektin (AGI) inkişafına, uzunmüddətli elmi tədqiqatlara və süni intellektin cəmiyyətə təsirlərinə yönəldəcək.

"Google DeepMind"in texnologiya üzrə rəhbəri Koray Kavukcuoğlu isə bölmənin operativ idarəçiliyini üzərinə götürəcək. O, süni intellekt modellərinin, o cümlədən "Gemini" ailəsinin inkişafına rəhbərlik edəcək. "Reuters" bu dəyişikliyi "Google"un süni intellekt üzrə tədqiqat və məhsul fəaliyyətini daha sıx əlaqələndirmək, rəqibləri "OpenAI" və "Anthropic"lə rəqabətdə mövqeyini gücləndirmək cəhdi kimi qiymətləndirir. Eyni zamanda şirkətin baş elmi direktoru Jeff Dean 27 ildən sonra "Google"dan ayrılaraq tanınmış AI tədqiqatçıları ilə birlikdə "Discovery Loop" adlı yeni süni intellekt şirkəti yaradır.

"Reuters"in məlumatına görə, "Google"dakı bu dəyişikliklər süni intellekt sahəsində rəqabətin kəskinləşdiyi, "Gemini" modellərinin inkişafı ilə bağlı gecikmələrin müzakirə edildiyi və şirkətin süni intellektə böyük investisiyalarını artırdığı bir dövrə təsadüf edir. Xəbərin açıqlanmasından sonra "Alphabet"in səhmləri təxminən 4 faiz ucuzlaşıb.

# Hava şəraiti əsasən yağmursuz keçəcək

Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 22-25, gündüz 30-34 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-26, gündüz 34-39, dağlarda gecə 15-20, gündüz 23-28 dərəcə isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 34-38 dərəcə isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20, gündüz 23-28, bəzi yerlərdə 31-34 dərəcə isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 14-19, gündüz 23-28, bəzi yerlərdə 31-35 dərəcə isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-25, gündüz 33-37 dərəcə isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şərq rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24, gündüz 30-35, dağlarda gecə 14-19, gündüz 25-30 dərəcə isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-26, gündüz 34-39 dərəcə isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-25, gündüz 32-36, dağlarda gecə 18-20, gündüz 24-29 dərəcə isti olacaq.

# Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti yük göndərilib




Avqustun 6-da Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti tədarük həyata keçirilib.

AZƏRTAC xəbər verir ki, 14 vaqondan ibarət, çəkisi 979 ton olan buğda Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib.

Qeyd edək ki, indiyədək Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana 36 min tondan çox taxıl, 9 min tonadək gübrə, 1136 ton propan, 133 ton alüminium, 414 ton antrasit və 67 min ton taxta materialları göndərilib.

Eyni zamanda indiyə qədər Azərbaycandan Ermənistana 15 min tona yaxın dizel, 5 min tonadək "Aİ-92" və "Aİ-95" benzini ixrac olunub.

# "The Washington Post": "Avropa "Patriot" raketlərini Ukraynaya verməkdən imtina edib"

Avropanın bir neçə ölkəsi ABŞ administrasiyasının xahişlərinə baxmayaraq, Ukraynaya "Patriot" hava hücumundan müdafiə sistemi üçün əlavə tutucu raketlər verməkdən imtina edib. Bu barədə "The Washington Post" qəzeti danışıqlarla tanış mənbələrə istinadən məlumat yayıb.

Nəşrin məlumatına görə, bu ölkələrin hökumətləri silah-sursat ehtiyatlarının bir hissəsinin təhvil verilməsinin öz hava hücumundan müdafiə sistemlərinə mənfi təsir göstərəcəyindən ehtiyatlanırlar. NATO rəsmiləri həmçinin qeyd edirlər ki, "Patriot" sistemlərinin və digər müasir hava hücumundan müdafiə sistemlərinin istehsal həcmi dünyada silahlı münaqişələrin yaratdığı artan tələblərə uyğun gəlmir.

Anonimlik şərti ilə danışan yüksəkvəzifəli Ukrayna rəsmisi nəşrə bildirib ki, tutucu raket ehtiyatları ilə bağlı vəziyyət kritik olaraq qalır. "Vəziyyət həqiqətən pisdir", - mənbə "The Washington Post" qəzetinə bildirib və əlavə edib ki, təchizat artmazsa, qış üçün ən pis ssenari mümkündür. Bu azmış kimi, nəşrin məlumatına görə, ABŞ Prezidenti Donald Tramp da bu yaxınlarda Ukrayna Prezidenti Volodimir Zelenski ilə əvvəllər müzakirə edilən və tutucu raketlərin istehsalı üçün lisenziyaların Ukraynaya ötürülməsi ilə bağlı razılaşmadan imtina edib.



Hava hücumundan müdafiə vasitələrinin çatışmazlığı problemi xüsusilə Rusiyanın 5 avqust gecəsi baş verən kütləvi hücumu zamanı özünü daha aydın göstərib. Həmin vaxt Rusiya qüvvələri 24 ballistik raketdən və 4 "Tsirkon" və "Oniks" raketindən istifadə edib. Ukrayna Hərbi Hava Qüvvələrinin məlumatına görə, kifayət qədər ixtisaslaşmış hava hücumundan müdafiə sistemlərinin olmaması səbəbindən ballistik raketlərin heç biri zərərsizləşdirilməyib.

Hücumdan sonra Ukrayna Prezidenti Volodimir Zelenski müttəfiqlərini hava hücumundan müdafiə sistemlərinin çatdırılmasını sürətləndirməyə və Rusiya hərbi-sənaye kompleksinə sanksiya təzyiqini artırmağa çağırıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi (indiki Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti) tərəfindən Vüqar Vaqif oğlu Əbdüləzimovun adına verilmiş EZ № A0000632 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Yalçın Vilayət oğlu Məmmədova məxsus 99SS997 dövlət nömrə nişanlı Mitsubishi (L200) markalı avtonəqliyyat vasitəsinə verilmiş BB150557 nömrəli Texniki pasport itdiyi üçün etibarsız sayılır.


**«AZƏRBAYCAN»**
**qəzetinin reklam xidməti**
**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclis Aparatının və İşlər İdarəsinin kollektivləri parlament Rəhbərliyi Katibliyinin əməkdaşı Səmra Məmmədovaya atası
**MÜBARİZ QULİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Səttar Möhbalıyev Səyyad Arana qardaşı
**ELÇAY SALAHLININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aslan Muradov, Rəfail Mehdiyev, Fuad Cavadov, Mehdi Nəcəfov, Elçin Qasımov, Adil Əliyev, İlqar Məmmədov, Akşin Ziyadov, Malik Ələkbərov, Hüseyn Əlixanov, Mehman Soltanov, Rahim Rəhimov, Ağakərim Səmədzadə, Sübhi Kazımov, Çingiz Məmmədov və Cümşüd Cəfərov Reyhanə Kərimovaya əzizi
**MÜBARİZ QULİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3275**
Sifariş **980**

Qiyməti 60 qəpik